# 10

DƏRSLİK



# ÜMUMİ TARİX

LAYİHƏ



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

LAYİHƏ

LAYİHƏ

KƏRİM ŞÜKÜROV
PƏRVİZ AĞALAROV
NİYAMƏDDİN QULİYEV
KƏRƏM MƏMMƏDOV
HAFİZ CABBAROV
ELNUR HÜSEYNOV

*Ümumtəhsil məktəblərinin* 10*-cu sinfi üçün*

# ÜMUMİ TARİX

*fənni üzrə*

**DƏRSLİK**

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**info@eastwest.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

LAYİHƏ

# Mündəricat

## Qədim Şərq və Avropa sivilizasiyaları


1 İbtidai cəmiyyət ....6
2 Qədim Misir və İkiçayarası (Mesopotamiya) .... 12
3 Qədim İran və Hindistan .... 18
4 Böyük Hun dövləti. Çin .... 24
5 Qədim Yunanıstan, Makedoniya və Roma .... 30


## Dünya ölkələri III–XI yüzilliklərdə


6 Türk dövlətləri .... 36
7 Ərəb xilafəti .... 46
8 Qərbi Avropa .... 52
9 Bizans .... 58
10 Mədəniyyət .... 62


## Əziz məktəblilər!

Siz artıq 6–9-cu siniflərdə öyrəndiyiniz mövzular əsasında tarix kursunu bitirmisiniz. 10-cu sinif ümumi tarix dərsliyində əvvəlki illərdə öyrəndiyiniz proqram materiallarını dövrlər üzrə yenidən izləmək imkanı əldə edəcəksiniz. Bu kitabda 6–8 siniflərdə tədris olunan materialların əhəmiyyətliləri seçilərək, bir az genişləndirilmiş şəkildə sizlərin diqqətinə çatdırılmışdır. Təkrar mövzulara yenidən müraciət edilməsi, öyrəndiklərinizin möhkəmləndirilməsi ilə yanaşı, verilmiş mənbələr üzərində işləmək sizdə əlavə bacarıqlarınızın formalaşmasına da kömək edəcəkdir. Qazandığınız biliyin tətbiq olunmasında əldə edəcəyiniz bacarıqlar sizin gələcək fəaliyyətinizdə də yardımçınız olacaqdır.

**Tam orta təhsilin ilk pilləsində sizlərə uğurlar arzulayırıq.**

LAYİHƏ

## Dünya ölkələri XI–XV yüzilliklərdə


11 Böyük Səlcuq dövləti ........ 68

12 Osmanlı imperiyası ........ 74

13 Dehli sultanlığı ........ 80

14 Böyük Monqol imperiyası. Qızıl Ordu ........ 84

15 Teymuri dövləti ........ 90

16 Xaçlı yürüşləri ........ 94

17 Qərbi Avropada mərkəzləşmiş dövlətlərin yaranması ........ 100

18 Mədəniyyət ........ 106


**Şərti işarələr**

S Sual

T Tapşırıq

A Araşdırma

## Dünya ölkələri XVI–XVIII yüzilliklərdə


19 Avropada Reformasiya. Otuzillik müharibə ........ 114

20 İngiltərə və Fransa ........ 120

21 Böyük coğrafi kəşflər. ABŞ-ın yaranması ........ 126

22 Rusiya ........ 132

23 Osmanlı imperiyası ........ 136

24 Böyük Moğol dövləti ........ 142

25 Mədəniyyət ........ 146


LAYİHƏ



# İBTİDAİ CƏMİYYƏT

Qədim insanlar, arxeologiya, daş dövrü, tunc alətlər, tayfa

Cəmiyyətin tarixi ilk insan tipinin meydana gəlməsi ilə başlayır. İnsanın mənşəyi ilə bağlı bir-birindən fərqlənən üç əsas baxış mövcuddur.



### Təkamülçü

Təkamülçü baxışın nümayəndələri müasir insanların əcdadlarının insanabənzər meymunlardan təbii seçmə və təkamül prosesi nəticəsində yarandığını qeyd edirlər.



### Dini

Dini baxış tərəfdarlarına görə, ilk insanlar olan Adəm və Həvva Tanrı tərəfindən yaradılmışdır. Onlar əvvəlcə cənnətdə yaşasalar da, sonradan Tanrı tərəfindən qadağan edilən meyvəni yediklərinə görə Yer üzünə qovulmuşlar.



### Kosmik

Kosmik baxışa əsasən insanlar başqa bir planetdən Yer kürəsinə gəlmişlər.

**Sizcə, bu nəzəriyyələrdən hansı həqiqətə uyğundur?**

# İbtidai icma cəmiyyəti. Mənbələr və dövrləşmə

Digər tarixi dövrlərlə müqayisədə ibtidai icma quruluşu daha uzun müddət davam etmişdir. Təqribən 3 milyon ilədək bundan əvvəl ilk insan tipinin yaranması ilə başlamış, 6 min il bundan əvvəl ilk sivilizasiyaların, yazının və dövlətin meydana gəlməsi ilə başa çatmışdır. Yazının olmadığı bir dövrdə insanların necə yaşadıqlarının öyrənilməsində arxeologiya, antropologiya və etnoqrafiyanın böyük rolu vardır.

*Arxeologiya* yunan mənşəli söz olub, "qədim dövr haqqında elm" deməkdir. Tarixə köməkçi elm sahələrindən olan arxeologiya insanların əmək fəaliyyətinin nəticələrini (əmək alətləri, silahlar, yaşayış

LAYİHƏ



Arxeoloji qazıntılar zamanı aşkar edilmiş yaşayış məskəni



Antropoloq tədqiqat zamanı

məskənləri, məişət əşyaları, geyimlər, bəzəklər, nəqliyyat vasitələri və s.) üzə çıxarır və öyrənir. Bu araşdırmalar zamanı arxeoloqlar insanların maddi mədəniyyətlərinin öyrənilməsində tarix elminə yaxından kömək edir.

*Antropologiya* yunan mənşəli söz olub, "insan haqqında elm" deməkdir. Bu elm insanın mənşəyi, yaş və cinslərə görə bədən ölçülərinin fərqlilikləri, irqlər və onların yayılma bölgələrinin müəyyən edilməsini öyrənir. Antropoloqlar canlı insanların bədən ölçüləri ilə yanaşı, həm də insan qalıqlarının ölçülməsi və onların fiziki quruluşunun bərpası ilə məşğul olur.



Okeaniyalı qəbilələr arasında yaşayaraq onları tədqiq edən avropalı etnoqraf

*Etnoqrafiya* yunan mənşəli söz olub "etnos" *xalq* və "qrafo" *təsvir edirəm* sözlərinin birləşməsindən yaranmışdır. Etnoqrafiya tayfa, xalq və millətlərin mənşələrini, soyköklərini, məskunlaşma bölgələrini, məişətlərini, maddi və mənəvi mədəniyyətlərini öyrənən elmdir. Etnoqraflar hazırda ictimai inkişafdan geridə qalmış xalqları öyrənməklə ibtidai icma quruluşu dövründə insanlar arasında mövcud olmuş ictimai münasibətlər haqqında məlumat verirlər.

**Öyrəndiklərinizi yada salıb sxem əsasında danışın.**

**Sizcə, ibtidai icma quruluşu nəyə əsasən dövrlərə bölünür?**

İbtidai icma



Daş dövrü



Tunc dövrü



Dəmir dövrü

LAYİHƏ



PALEOLİT

Yunan dilində "paleos" *qədim*, "litos" *daş* deməkdir.



MEZOLİT

Yunan dilində "mezos" *orta*, "litos" *daş* deməkdir.



NEOLİT

Yunan dilində "neos" *yeni*, "litos" *daş* deməkdir.

### Daş dövrü əmək alətlərinin hazırlanma üsuluna görə üç yerə ayrılır:

Kobud və ya Paleolit, Yonma və ya Mezolit, Cilalı və ya Neolit.

Daş dövründən Metal dövrünə keçid olan Mis-daş qısa müddət davam etmiş və mis alətlər daş alətləri sıradan çıxara bilməmişdir.

# Kobud Daş dövrü

Kobud Daş dövrü və ya Paleolit ilk insan tipinin yaranmasından e.ə 12-ci minilliyə qədər davam etmişdir. Bu dövrdə əmək alətləri kimi, əsasən, iri və kobud daşlardan istifadə olunmuşdur. Paleolit dövrü özü Alt, Orta və Üst Paleolit mərhələlərinə bölünür. Alt Paleolit qədim daş dövrünün ilk mərhələsi olub, ilk insanın yaranmasından 100 min il bundan əvvələ, yəni Yer kürəsində baş vermiş soyuqlaşmaya qədər davam etmişdir. Bu dövrdə yaşamış insan antropoloqlar tərəfindən "bacarıqlı insan" adlandırılır. Əsasən, ovçuluq və yığıcılıqla məşğul olan "bacarıqlı insanlar" Ulu icma şəklində yaşamışlar.

**S** **Sizcə, nə üçün ilk əmək alətləri daşdan hazırlanmışdır?**



Alt Paleolit dövrü insanları

100 min il bundan əvvəl soyuqlaşma nəticəsində Yer kürəsinin xeyli hissəsi buzla örtüldü. Buzlaşma ilə başlamış Orta Paleolit dövrü 40-35 min il bundan əvvələ – "Ağıllı insan"ın və ya "Homo Sapiens"in (yunan dilində "homo" *insan*, "sapiens" *ağıllı, dərrakəli* deməkdir) yaranmasına qədər davam etmişdir.

Antropoloqlar Orta Paleolit dövrü adamlarını bu tip insanın ilk tapıldığı bölgənin adı ilə "Neandertal insan"ı adlandırırlar. Bu dövrdə insanlar süni od əldə etməyi öyrəndilər.

LAYİHƏ



Orta Paleolit dövrü insanları (Neandertal adamları)

**T** **Daş dövrünün mərhələləri ilə bağlı sxem hazırlayın.**

Üst Paleolit dövrü 40-35 min il bundan əvvəl "Ağıllı insan"ın yaranmasından Yer kürəsində istiləşmənin baş verməsinə qədərki dövrü əhatə edir. İnsanlar bir-biriləri ilə rabitəli nitqlə danışmağa, ibtidai incəsənətlə məşğul olmağa başladılar. Ulu icma birlikdə yaşayan, işləyən, ümumi əmlaka malik olan və qan qohumluğuna əsaslanan insan kollektivi – qəbilə və ya nəsli icma ilə əvəz olundu. Uzun müddət qəbilə icmasında qohumluq ana xətti əsasında aparılmışdır. Ona görə bu dövr anaxaqanlığı (matriarxat) adlanır. Qadın uşaqların qayğısına qalır, yığıcılıqla məşğul olur, odu qoruyub saxlayırdı.



Üst Paleolit dövrü insanları

# Yonma Daş dövrü

Yonma Daş dövrü və ya Mezolit e.ə. XII minillikdə başlamış və Cilalı Daş dövrünə, yəni Neolitə qədər davam etmişdir. Bu dövrdə insanlar daşları yonaraq daha kəsici alətlər düzəltməyə başladılar. İstiləşmə nəticəsində Yer kürəsində bitki və heyvanat aləmi xeyli dəyişdi. Keçmiş buzlaqların yerində müxtəlif bitkilər meydana gəldi və daha kiçik heyvanlar yaşamağa başladı. Yonulmuş, daha kəsici daşları ağac çubuqlarının başlarına bərkitməklə ox və onu atmaq üçün yay ixtira olundu.

Artıq ovçular heyvanları və quşları daha uzaq məsafədən vura bilirdilər. İri heyvanların ovlanması zamanı çox vaxt ox onları yaralayırdı. Yaralı heyvanların ovunu ucu şiş ağac və ya ucuna kəsici daş bağlanmış ağacla başa çatdıran insanlar çox vaxt onların balalarını öz yaşayış məskənlərinə gətirir və əhliləşdirirdilər. Bununla da ibtidai heyvandarlığın əsası qoyuldu.

Buzlaşma dövründən fərqli olaraq, istiləşmə dövründə insanlar topladıqları ayrı-ayrı bitkilərin mövsümlərə uyğun olaraq yenidən cücərdiklərini müşahidə etməyə başladılar. İndi onlar bu bitkilərin toxumlarını özləri toplayaraq əkib-becərməyi öyrəndilər. Torpağı ucu şiş və ya ağzına daş bərkidilmiş ağacla, yaxud da daşla yumşaldırdılar. Nəticədə ibtidai

LAYİHƏ

əkinçiliyin əsası qoyuldu. İbtidai heyvandarlığın və əkinçilik vərdişlərinin yaranması ilə istehsal təsərrüfatının əsası qoyuldu.

Bu isə insanların qida ehtiyatının və saylarının artmasına səbəb oldu.

İnsanlar ovladıqları heyvanların dərilərindən geyim də hazırlamağa başladılar.


Mezolit dövrü insanları

**Yonma Daş dövründə insanların əldə etdikləri nailiyyətlərlə bağlı cədvəl tərtib edin.**

# Cilalı Daş dövrü

Cilalı Daş dövrü və ya Neolit dövrü e.ə.VIII minilliyin sonlarından – e.ə.VI minilliyin ortalarına qədər davam etmişdir. Bu dövrdə insanlar daşları cilalamağı və deşməyi öyrəndilər.

Yonma Daş dövründən Cilalı Daş dövrünə keçid mərhələsinə aid edilən Göbəklitəpə kompleksi bu dövrün xüsusi əhəmiyyətə malik abidəsidir. Türkiyə ərazisində tapılan bu məbəddə iri lay daşlar üzərində insanların sitayiş etdikləri heyvanların rəsmləri vardır. E.ə.VIII minilliyin əvvəllərində insanlar, yəqin ki, qonşu ərazilərdəki məhsuldar torpaqlarda əkinçiliklə məşğul olmaq üçün buranı tərk etmişdilər.

Cilalı Daş dövründə istehsal təsərrüfatı daha da genişləndi. Əhalinin böyük hissəsi oturaq həyata keçdi. Əkinçiliklə məşğul olan insanlar torpağı toxa ilə yumşaltdıqları üçün belə əkinçilik toxa əkinçiliyi adlanır. Əkinçiliklə bağlı yeni alətlər: müxtəlif maddələri əzmək üçün həvəngdəstə, taxılı əzmək üçün dən daşı, biçin zamanı istifadə edilən və sümükdən hazırlanmış oraq meydana gəldi.

İlk əkinçilik məskənləri Ön Asiya ərazisində meydana gəlmişdir. Türkiyə ərazisində yerləşən və Neolit dövrünə aid olunan Çatalhöyük yaşayış yeri dünyanın ən qədim əkinçilik məskənlərindən biri hesab olunur. Onlar dənli bitkilər yetişdirir və çoxlu sayda mal-qara saxlayırdılar. Saxsı qabların hazırlanması (dulusçuluq) və toxuculuğun meydana gəlməsi bu dövr insanlarının ən böyük nailiyyətləri idi. Gildən hazırlanmış saxsı qablar sonra dulus kürələrində bişirilirdi. Toxuculuqda yun və bitki liflərindən istifadə edilirdi.

Bütün bunlar ibtidai icma cəmiyyətinin həyatında baş vermiş əsil inqilabi dəyişikliklər hesab olunduğundan "Neolit inqilabı" adlandırılır.

**Göbəklitəpə haqqında təqdimat hazırlayın.**


Neolit dövrü düşərgəsi

LAYİHƏ

# Mis-daş dövrü

Mis-daş dövrü e.ə.VI–IV minillikləri əhatə edir. Bu dövrdə insanlar ilk dəfə metalla – mislə tanış oldular və misdən müxtəlif əmək alətləri, məişət avadanlığı və bəzək əşyaları düzəltməyə başladılar. Təsərrüfatda və məişətdə hələ də daş alətlər üstün yer tuturdu. Mis yumşaq olduğundan ondan hazırlanan alətlər tez sıradan çıxır və misin özünə təbiətdə az rast gəlinirdi. Bu dövrdə toxa əkinçiliyi daha da inkişaf etmiş, hazırda məlum olan ev heyvanlarının əhliləşdirilməsi başa çatmış, maldarlıq təsərrüfatı inkişaf etmişdi. Mis-daş dövrünün əvvəllərində ananın – qadının cəmiyyətdə mövqeyi hələ də möhkəm idi. O, nəslin yaradıcısı, ailə və qəbilə ocağını qoruyub saxlayan müqəddəs varlıq hesab olunurdu.

# İbtidai icma quruluşunun dağılması

E.ə. IV minilliyin sonlarında insanlar misin tərkibinə qurğuşun, sürmə, qalay qatmaqla daha möhkəm metal – tunc almağı öyrəndilər. Təxminən 2 min il davam etmiş Tunc dövründə əmək məhsuldarlığı daha da artdı. Xış əkinçiliyinin yaranması, maldarlığın daha da inkişafı kişi əməyinin rolunun artmasına və onların nüfuzunun möhkəmlənməsinə səbəb oldu. Anaxaqanlığını ataxaqanlığı (patriarxat) əvəz etdi.



Mis-daş dövrü insanlarının yaşayış məskənləri



Tunc nizə ucluqlarının hazırlanması

Bir neçə qohum qəbiləni birləşdirən tayfalar yarandı. Tayfa üzvləri ümumi adət-ənənəyə malik olur və bir dildə danışır, ağsaqqallar tərəfindən idarə olunurdu. Güclü tayfaların işğalçılıq siyasəti qarşısında xırda tayfalar birləşir, nəticədə bir tərəfdən iri tayfa birlikləri yaranır, digər tərəfdən tayfa içərisində hərbi başçıların nüfuzu artırdı. Artıq tayfanın idarə edilməsində ağsaqqallarla yanaşı, hərbi başçılar da yaxından iştirak edirdilər. Nəticədə "hərbi demokratiya" adlandırılan idarəçilik forması yaranmağa başladı. Tunc dövründə əmək alətlərinin təkmilləşməsi nəticəsində yaranan əlavə məhsulun ağsaqqalların və hərbi başçıların əlində cəmləşməsi nəticəsində tayfa içərisində əmlak bərabərsizliyi yaranmağa başladı. Cəmiyyətdə ictimai və əmlak bərabərsizliyinin yaranması, əhalinin təbəqələrə bölünməsi kimi dəyişikliklər ibtidai icma quruluşunun dağılması ilə nəticələndi.

S **Metaldan istifadə bəşəriyyətin inkişafına necə təsir göstərdi?**



Torpağın xışla yumşaldılması

LAYİHƏ




# QƏDİM MİSİR VƏ MESOPOTAMİYA

Nilin töhfəsi, Misir ehramı, Firon I Tutmos, II Ramzes, Mesopotamiya, Hammurapi qanunları

Misir Afrikanın şimal-şərqində, Nil vadisində yerləşir. Coğrafi relyefinə görə ölkə şimalda Nilin deltasında yerləşən Aşağı və cənubu əhatə edən Yuxarı Misir olmaqla iki hissəyə bölünürdü. Ölkənin geosiyasi mövqeyi özünəməxsus xüsusiyyətlərə malik Qədim Misir sivilizasiyasının yaranmasına səbəb olmuşdu.

Dünyanın ən uzun çayı olan **Nil** Misirin cənubundan şimalına doğru axaraq Aralıq dənizinə tökülürdü. Çayın gətirdiyi lil onun yatağının iki tərəfini də münbitləşdirirdi. Bu torpaqlar çox məhsuldar olurdu. Qədim yunan tarixçisi **Herodot** Misiri "Nilin töhfəsi" adlandırırdı.

S **Sizcə, coğrafi mövqe və iqlim təsərrüfatın inkişafına necə təsir göstərə bilər?**

E.ə. IV minilliyin ikinci yarısında ölkə ərazisində: **Aşağı Misir** və **Yuxarı Misir** dövlətləri yaranmışdı. Aralarındakı mübarizə Yuxarı Misirin qalib gələrək ölkə ərazisini vahid dövlətdə birləşdirməsi ilə nəticələndi. Beləliklə, **e.ə. IV minilliyin sonunda** vahid Misir dövləti yarandı.

Müxtəlif xammallara duyulan ehtiyac Misirin qonşu ölkələrlə əlaqələr qurmasına səbəb olmuşdu. Nil vadisində dulusçuluq və kərpic üçün kifayət qədər gil vardı, lakin taxta az idi. Vadidəki qayalardan saf və ağ əhəngdaşı, uzaq bölgələrdən qranit və başqa sərt daşlar, qızıl, mis və qiymətli daşların gətirilməsi lazım olurdu. Bu da hərbi yürüşlər təşkil edə bilən mütəşəkkil cəmiyyət olmağı zəruri edirdi.

*Çarlz Friman. "Misir, Yunan və Roma".*

**E.ə. II minilliyin ortalarında** Misir özünün ən güclü dövrünü yaşamağa başlayır. Firon **I Tutmosun** hakimiyyəti dövründə Fələstin və Suriya işğal edildi. Misir dövlətinin şimal sərhədləri ilk dəfə Fərat çayına çatdı. Cənubda isə Nubiya tabe edildi.

**III Tutmosun** hakimiyyəti dövründə yenidən Fələstin, Finikiya və Suriya ələ keçirildi. O, Fələstin və Suriyanı idarə etmək üçün canişinlər təyin etdi.



I Tutmos

Firon **II Ramzes** Anadoludakı Het dövləti ilə mübarizə aparmışdır. Hər iki dövlət arasında Suriya uğrunda müharibədə qəti qələbə qazanan olmamışdır. Tərəflər arasında Kadeş şəhərində imzalanan sülh müqaviləsi ilə Şimali Suriya hetlərdə qaldı. Tərəflər başqa dövlətlərə qarşı bir-birinə yardım etməli idilər. **Kadeş müqaviləsi** tarixdə ilk yazılı sülh müqaviləsidir. Bu müqavilə nəticəsində uzun müddət sülh şəraitində yaşamış Misir iqtisadi cəhətdən daha da inkişaf etmişdi. Bu isə II Ramzesin geniş quruculuq işləri aparmasına şərait yaratmışdı.

LAYİHƏ

**E.ə. I minilliyin əvvəllərində** hakimiyyət uğrunda mübarizələr nəticəsində Misir zəiflədi. O, ərazilərinin bir qismini itirdi və ayrı-ayrı hissələrə parçalandı.



Qədim Misirdə piramida inşası

## İdarəetmə və sosial təbəqələr

Misirdə hökmdar qeyri-məhdud hakimiyyətə malik idi. Hökmdarın sarayı böyük ev mənasını verən **firon** adlanırdı. Sonralar firon sözü hökmdarı ifadə etməyə başladı.

Firon tanrının yer üzərində təmsilçisi olaraq insanların, torpaqların və bütün əmlakın sahibi hesab edilirdi. Onlara hakimiyyətin tanrı tərəfindən verilməsi iddia edilirdi. Firon baş komandan idi. Hakimiyyət atadan oğula və ya qardaşdan qardaşa keçirdi. Məmurlar oxuyub-yazmağı bilən şəxslər arasından seçilirdi. Onlar əkin sahələrinin ölçülməsi, verginin toplanması, hüquq və ordu ilə bağlı işlərə baxırdılar.

Misir cəmiyyətində önəmli yer tutan təbəqələrdən biri də dini işlərə nəzarət edən kahinlər idi. Əhalinin böyük əksəriyyətini kəndlilər təşkil edirdi. Cəmiyyətin mühüm təbəqələrindən biri də sənətkar və tacirlər idi. Qullar Misirdə iqtisadi cəhətdən xüsusi əhəmiyyət daşımırdı. Əmlak və torpaq dövlətə məxsus idi.

## Misir mədəniyyəti

Qədim Misirdə e.ə.IV minillikdə yazı yarandı. Şumerlərdə olduğu kimi, Misirdə də ilk yazı əşyanın şəklinin çəkilməsi ilə başlamışdı. Sonralar şəkli yazılar işarələrlə – heroqliflərlə əvəz olundu. Misir heroqlifləri 1822-ci ildə fransız alimi **Jan Şampolyon** tərəfindən oxunmağa başlanmışdır.

E.ə. III minillikdə Misir memarlığında böyük inkişaf baş verdi. Bu, fironların məzarlarına ehramların inşa edilməsi ilə bağlı idi. Pilləkən formalı ilk piramida firon **Coserin** olmuşdur.

Ən böyük piramida olan firon **Xeopsun** piramidası dünyanın 7 möcüzəsindən biri sayılır.

E.ə.IV minilliyin sonlarında Mesopotamiyaya qədər əlaqələr qurulmuşdu. Misirdə şumerlərdəkinə oxşar möhürlər tapılmışdı. Binaların quruluşunda oxşarlıqlar var. Misirdə ilk dəfə e.ə.IV minilliyin sonunda yaranan yazının Mesopotamiyadan alınmış ola biləcəyini iddia edən bir sıra alimlər vardır. Şumer mixi yazısı və Misir heroqlifləri sözün səsini ifadə edən işarələrlə, anlamını təmsil edən işarələrin birləşdirilməsi yolu ilə istifadə edilmişdir.

*Çarlz Friman. "Misir, Yunan və Roma".*

**Misir və Şumer sivilizasiyalarının qarşılıqlı əlaqələrini dəyərləndirin.**



II Ramzes yürüşdə

LAYİHƏ



Qədim Misir və Mesopotamiya

Misirlilərin riyazi bilikləri şumerlərdən zəif olsa da, həndəsə sahəsində yüksək inkişaf etmişdilər. Onlar sahə və həcm ölçüsünü müəyyən edə bilirdilər.

Qədim Misirdə tibb sahəsində də müəyyən biliklər qazanılmışdı. Dünyada ilk dəfə burada sadə cərrahi əməliyyatlar həyata keçirilmişdir.

Misirlilərin yaratdığı təqvim dünya mədəniyyəti tarixində önəmli yer tutur. Nil çayının dövri olaraq baş verən daşqınlarına əsaslanan təqvim bir il dörd aydan ibarət 3 mövsümə: **Daşqın, Əkin** və **Məhsul yığımına** bölünürdü. Qədim Misirdə günəş saatı da yaradılmışdı. Gündüzlər vaxtı müəyyən etmək üçün əşyanın kölgəsindən istifadə edirdilər.

Din Misir mədəniyyətinin bütün sahələrinə təsir göstərmişdi. Tanrıların heyvan başlı insan şəklində təsvir edilməsi totem inancları ilə bağlı olmuşdur.

# Mesopotamiya

Cənub-Qərbi Asiyada İran körfəzi ilə Aralıq dənizi arasındakı landşaftda səhra iqlimi hökm sürür. Lakin bu bölgədə ən qədim əkinçiliyin yarandığı bir torpaq qövsü var.

Bölgənin əyri forması və ərazisinin münbitliyinə görə onu **Bərəkətli Aypara** adlandırırlar. Buraya Aralıq dənizinin şərq sahilləri və qədim yunan tarixçiləri tərəfindən **Mesopotamiya** adlanan düzənlik daxildir. Dəclə və Fərat çayları arasını əhatə edən Mesopotamiya yunan dilində "İkiçayarası" deməkdir.

Mesopotamiyanın cənubunda məskunlaşan şumerlər əkinçiliklə də məşğul olmağa başladılar.

**Mesopotamiyanın təbii mühitinin mənfi cəhətləri**

- müdafiə üçün heç bir təbii maneələrin olmaması;
- təbii ehtiyatlar, tikinti və s. zəruri materialların məhdud olması;
- quraqlıqdan sonra baş verən çay daşqınları.

LAYİHƏ

Sel suları çəkildikcə lillə örtülən münbit torpaqlarda əkinçilər taxıl əkir, əkin sahələrini çay suyu ilə suvarırdılar. Əldə edilən bol məhsul kəndlərin inkişafına imkan verirdi. Mesopotamiyanın təbii mühitinin çətinlikləri şumerlərin özünəməxsus təşkilatlanmasına səbəb oldu. Quraqlıq zamanı əkin sahələrini su ilə təmin etmək üçün çaylardan suvarma arxları qazılmağa başlandı.

Yaşayış məskənlərini qorumaq üçün çiy kərpiclə divarlar hörülürdü. Şumerlər əldə etdikləri məhsulları, parçaları və sənətkarlıq alətlərini qonşu bölgələrin əhalisi ilə mübadilə edirdilər.

Mesopotamiya sivilizasiyasının yaradıcıları şumerlər olmuş, onların təcrübə və nailiyyətlərindən sonralar digər xalqlar bəhrələnmişdir. Şumerlərə məxsus bir çox sözlər türk dilinə uyğundur. Ona görə də bir çox tarixçilər onları qədim türklərin əcdadları hesab edir.

**Mesopotamiyanın coğrafi şəraitinin problemləri və onların həlli yolları ilə bağlı cədvəli tamamlayın.**

| Problemlər | Həll yolları |
|---|---|
| | |

**E.ə. IV minillikdə** şumerlər əkin sahələri ilə əhatə olunmuş bir sıra şəhərlər yaratdılar. Genişlənən şəhərlər ətraf kəndlərə siyasi və iqtisadi cəhətdən nəzarət etməyə başladı. Şumer sivilizasiyasının əsas göstəricilərindən olan **şəhər-dövlətlər** yarandı. Hər bir şəhər və onun nəzarət etdiyi ətraf arazi bir şəhər-dövləti təşkil edirdi. Müstəqil olan bu şəhər-dövlətlər eyni mədəniyyətə malik olsalar da, hər birinin öz hökmdarı var idi. Şumerlər **Eredu, Uruk, Kiş, Laqaş, Umma, Ur** və s. şəhər-dövlətlər qurmuşdular.

Şumer şəhərləri divarlarla və müdafiə qülləlləri ilə əhatə olunmuşdu. Şumer şəhərlərindəki **Zikkurat** adlanan məbədlər nəhəng pillələr formasında idi. Zikkuratların da tikintisində çiy kərpicdən istifadə olunurdu.

Əkinçilik və sənətkarlığın inkişafı şumerlərə qonşu ölkələrlə ticarət əlaqələrinin genişləndirməsinə imkan verdi. Bu isə mədəniyyətlərarası qarşılıqlı əlaqələrin yaranmasına səbəb oldu. Sonralar assuriyalılar, finikiyalılar və yəhudilər erkən şumerlərin bir çox maddi və mənəvi nailiyyətlərini mənimsədilər.



Zikkurat

**Mədəniyyətlərarası qarşılıqlı əlaqələr nədir? Fikirlərinizi konkret nümunələrlə əsaslandırın.**

# Sosial-iqtisadi həyat

Şumer şəhərləri əvvəllər məbəd kahinləri tərəfindən idarə olunurdu. Şumerlər kahinlərin şəhərləri tanrıların adından idarə etdiyinə inanırdılar. Bu isə şumer idarəetməsinin teokratiyaya* əsaslandığını göstərir.

***Teokratiya**

*yunan dilindəki "teos" (Tanrı) və "kratos" (idarə etmək) sözlərindən əmələ gəlib, cəmiyyət məsələlərinin dini qanunlarla həll edildiyi idarəetmə sistemidir.*

Kahinlər hər bir əkinçidən məhsulunun bir hissəsini vergi olaraq alırdılar. Müharibə zamanı şəhər əhalisi hərbi başçı seçirdi. Sonralar şəhərlər arasında müharibələrin artması tədricən hərbi başçıların hökmdara çevrilməsinə səbəb oldu. Bu hökmdarlar, bir qayda olaraq, öz səlahiyyətlərini oğullarına verirdilər. Beləliklə, hakimiyyət irsən keçməyə başladı.

Şumerlər hakimiyyətin ilahi mənşəli olduğuna, yəni hökmdarların səlahiyyətlərini tanrılardan aldığına inanırdılar. Hökmdarlar hakimiyyətlərini möhkəmləndirmək və ilahi mənşəli olduğunu əsaslandırmaq üçün yazılı qanunlar verdilər. Tarixdə ilk yazılı qanunlar şumerlər tərəfindən yaradılmışdır.

LAYİHƏ

Şumer şəhər-dövlətlərinin iqtisadiyyatı, əsasən, əkinçiliyə əsaslanırdı. Həmçinin ticarət və sənətkarlıq da mühüm əhəmiyyət kəsb edirdi. Tacirlər quru yolu ilə Aralıq dənizinin şərqinə və dəniz yolu ilə Hindistana gedirdilər. Təxminən e.ə. IV minillikdə **təkər** ixtira edildi. Bu isə daşınmanı asanlaşdıran arabalardan istifadəyə səbəb oldu.

Sivilizasiya ilə birlikdə sosial təbəqələr yaranmağa başlandı. Şumer cəmiyyətində hökmdar, torpaq sahibləri və kahinlər ən yüksək təbəqəni təşkil edirdilər. Sonrakı yeri tacirlər tuturdu. Sadə Şumer əhalisinin böyük əksəriyyətini əkinçilər və sənətkarlar təşkil edirdi. Qullar şumer cəmiyyətinin ən aşağı təbəqəsinə aid idi.

Şumer qadınları da kişilərlə bərabər hüquqlara malik idi. Belə ki onlar ticarət, əkinçilik və sənətkarlıqla məşğul olmaqla yanaşı, əmlaka da sahib ola bilərdilər. Hətta yuxarı təbəqədən olan qadınlar oxumağı və yazmağı öyrənərək kahin və məmur ola bilərdilər. Şumer qadınları bir çox qonşu xalqlardan fərqli olaraq daha çox hüquqlara malik idi.

**T** **Qadınların hüquqları baxımından Qədim Şumer və türk cəmiyyətinin oxşar cəhətlərini dəyərləndirin.**

# İlk imperiya

Şumer şəhər-dövlətləri arasında mübarizə onların zəifləməsinə səbəb oldu. Düzənlik ərazidə yerləşməsi Şumer şəhər-dövlətlərinin xarici hücumlardan müdafiəsini çətinləşdirirdi.

Şumer şəhər-dövlətlərinin şimalında **akkadlar** yaşayırdı. Təxminən e.ə. XXIV yüzillikdə akkadların başçısı **Sarqon** Şumer şəhər-dövlətlərini işğal etdi.

**S** **Sarqonun Şumer şəhər-dövlətlərini işğal etməsini asanlaşdıran səbəb nə idi?**

Akkadlar Şumer sivilizasiyasının əksər nailiyyətlərini mənimsədilər. Sarqonun işğalları bu sivilizasiyanın Mesopotamiyadan kənarda daha da yayılmasına kömək etdi. Sarqon Mesopotamiyanın şimalı və cənubu üzərində nəzarəti ələ keçirməklə dünya tarixinin ilk imperiyasını yaratdı. Bu dövlət daxili münaqişələr, fasiləsiz işğalçı müharibələr və quraqlıq səbəbindən tənəzzülə uğradı.

**S** **Şumer sivilizasiyası bütün Mesopotamiyada necə yayıldı?**

**S** **Akkad dövlətinin tənəzzülünün səbəbləri nə idi və Şumer şəhər-dövlətlərinin tənəzzülü ilə hansı oxşarlıqları var idi?**

Qədim Azərbaycan tayfalarından olan **kutilərin** hücumları nəticəsində Akkad imperiyası süqut etdi. Onların bir əsrlik hakimiyyəti dövründə Mesopotamiyada nisbətən sabitlik yarandı. Kutilərin Mesopotamiyada hakimiyyətinə son qoyulduqdan sonra Şumer şəhər-dövlətlər arasında yenidən müharibələr dövrü başlandı.

# Hammurapi qanunları

Təxminən e.ə. II minilliyin əvvəllərində **amoreylər** adlanan köçəri tayfalar Mesopotamiyaya hücum etdilər. Onlar şumerləri məğlub edərək Fərat çayı üzərində **Babil** adlı şəhər-dövlət qurdular. **Hammurapinin (1792–1750)** hakimiyyəti dövründə Babil Mesopotamiyanın böyük hissəsində nəzarəti ələ keçirmişdi. Hammurapi 282 maddədən ibarət **"Qanunlar toplusu"** ilə məşhurdur. Bu toplu şumerlərin qanunları əsasında hazırlanmışdır. Hammurapi qanunları sonrakı dövrdə müxtəlif dövlətlər üçün də əsas olmuşdur. Cinayətlərə görə cəzalar ağır idi və onlar qurbanın sosial təbəqəsinə görə dəyişirdi. Bundan əlavə, qanunlar qadınları və uşaqları ədalətsiz rəftardan qorumağa çalışırdı. Qanunlar hər kəsə şamil edilsə də, varlı və kasıb, kişi və qadın üçün fərqli cəzalar təyin edirdi.

**T** **Şumer sivilizasiyasının nailiyyətlərinə aid cədvəli tamamlayın.**

| Siyasi həyat | Sosial-iqtisadi həyat | Mədəni həyat |
|---|---|---|
| ... | ... | ... |

LAYİHƏ



Hammurrapi

Qədim Mesopotamiyada cəmiyyət patriarxal idi: kişilər üstün mövqeyə malik idi. Hammurapi qanunlarına görə kişilərə nisbətən qadınlar daha az imtiyaz və hüquqlara malik idi.

Hammurapinin qanunları insanların həyatının, demək olar ki, bütün sahələrini əhatə edirdi.

Hammurapi qanunlarında dövlət məmurlarının vəzifələrini yerinə yetirməsi ilə bağlı ciddi tələblər var idi.

- Əgər qatillər tapılmasa, məmurlar öldürülən şəxsin qohumlarına cərimə ödəməli idilər.
- İnşaatçılar tikdikləri binalara görə məsuliyyət daşıyırdılar. Əgər ev uçub sahibinin ölümünə səbəb olurdusa, inşaatçı edam edilirdi. Əgər çökmə ev sahibinin oğlunun ölümünə səbəb olurdusa, inşaatçının oğlu edam edilirdi. Ev inşaatçının hesabına yenidən tikilməli idi.

**Sizcə, Mesopotamiya əhalisi üçün şəhər-dövlətlərin və ya imperiya idarəetməsinin hansı daha səmərəli olardı?**

# Şumer mədəniyyəti

Şumerlər çoxtanrılı dinə malik idi. Onlar öz tanrılarının əbədi və hər şeyə qadir olduğuna inanırdılar. Mesopotamiya mifləri və əfsanələri haqqında zəngin məlumatlardan bəziləri dünyanın ən qədim eposu olan "Gilqameş" dastanında əks olunmuşdur.

Şumerlər **mixi** (mismar şəkilli olduğu üçün belə adlanır) yazı sistemi yaratdılar. Yazı aləti kimi qamış qələmdən istifadə edərək gil lövhələrin üzərində mismar şəklində işarələr yazır, sonra onları bişirir və ya günəşdə qurudurdular. Yazıdan, ilk növbədə, vergilər və başqa dövlət işlərinin qeydiyyatını aparmaq üçün istifadə edilirdi. Ən mühüm vəzifələri tutmaq üçün varlı ailələrdən olan oğlanlar məktəblərdə təhsil alırdılar. Təhsil kiçik yaşlarından başlanır və yeniyetmə dövrünə qədər davam edirdi. Məktəb günləri günəş çıxanda başlayıb, günəş batanda bitirdi. Məktəblərdə sərt intizam var idi.

Şumerlər müasir dövrdə də həyatımıza təsir edən bir çox ixtiralar etmişdilər. Bir çox yeni ixtiralar şumerlərin praktik ehtiyaclarından irəli gəlirdi. Təkər, dulus çarxı, memarlıqda tağ üsulu və sütunlar Şumer texnologiyasının nümunələridir. Tunc alətləri də ilk dəfə şumerlər hazırlamışdılar.

Şumerlər riyaziyyat və astronomiyada da böyük nailiyyətlər əldə etdilər. Riyaziyyatda onlar **60-lıq say sistemi** hazırladılar. Bir saatın 60 dəqiqəyə bölünməsi və dairənin 360 dərəcəyə malik olmasının müəyyən edilməsi Şumer mədəniyyətinin müasir dövrümüzə töhfəsidir. Həndəsə əkin sahələrini ölçmək və binaları tikmək üçün istifadə olunurdu. Astronomiyada şumerlər bürclərin qrafikini tərtib edirdilər. İlk məlum xəritələrdən biri təxminən e.ə. III minillikdə gil lövhə üzərində hazırlanmışdır.



Mixi yazı

**Sivilizasiyaların yaranması və inkişafına ətraf mühit necə təsir göstərir?**

**Şumerlərin iki əsas ixtirasını və onların müasir həyatımıza necə təsir etdiyini dəyərləndirin.**

**Şumerlərin əldə etdiyi nailiyyətlərə əsasən cədvəli tamamlayın.**

| Nailiyyətlər | Müasir həyatımıza təsirləri |
|---|---|
| ... | .... |

LAYİHƏ



# QƏDİM İRAN VƏ HİNDİSTAN

Arilər, satraplıq, I Dara, kasta, raca, Mauriya sülaləsi, Aşoka

Hind və irandilli xalqlar ari tayfalarının varisləri sayılır. Köçərimaldar həyat tərzi sürən ari tayfaları Şərqi Avropa çöllərində yaşayırdılar.

E.ə. II minillikdə Avropada kəskin iqlim dəyişikliyi baş verdiyindən əlverişli ərazilər tapmaq məqsədilə köç etmiş arilər Cənubi Qafqaz və Mərkəzi Asiyadan keçmiş, onların bir hissəsi İranda, digər hissəsi isə Hindistanda məskunlaşmışdı. Arilərin gəlişinə qədər indiki İranda və Hindistanda müxtəlif dillərdə danışan tayfalar yaşayırdılar.

Zaman keçdikcə yerli əhali arilərin dillərini qəbul etmiş, nəticədə irandilli və hind tayfaları yaranmışdır. Belə irandilli tayfalardan biri də farslar idi. Farsların adı ilk dəfə e.ə. IX yüzillikdə Assuriya yazılarında çəkilir.

E.ə. VIII yüzilliyin sonlarında fars tayfalarının ittifaqı yaranmış, Əhəmən adlanan şəxs ittifaqın başçısı seçilmişdir. Ona görə də sonralar Əhəmənin nəslindən olanların başçılığı ilə yaradılan dövlətə Əhəmənilər dövləti deyilmişdir.



Aria axınının əfsanəvi təsviri

## Əhəməni dövləti

Əhəmənilər dövləti e.ə. 550-ci ildə Midiya dövlətinin süqutu nəticəsində yaranmışdır. Əhəmənilər nəslindən olan II Kir Midiya hökmdarı Astiaqdan narazı olan qüvvələrlə gizli əlaqə yaradıb üsyan qaldırdı. Üç il davam edən müharibə nəticəsində II Kir Midiyanın paytaxtı Ekbatan şəhərini tutdu. Bununla Midiya dövləti süquta uğradı və onun ərazisi yaranmaqda olan Əhəməni (fars) dövlətinin tərkibinə qatıldı.



II Kir

LAYİHƏ


Persepol

Farslar Midiya mədəniyyətinin bir çox cəhətlərini, eləcə də dövlət quruluşu və idarəetmə sistemini mənimsədilər. Bir neçə il ərzində II Kir Midiya dövlətinin tərkibinə daxil olan ölkələri özünə tabe etdi. E.ə. 547-ci ildə fars ordusu Kiçik Asiyada güclü dövlət sayılan Lidiyanı, az sonra orada yerləşən yunan şəhərlərini də işğal etdi. E.ə. 539-cu ildə Babil şahlığının tutulması ilə II Kir Ön Asiyanı tamamilə özünə tabe etdi. Onun dövründə Əhəməni dövləti cahanşümul (dünyanı tutan) dövlətə çevrildi. Qədim Ön Asiyanın müxtəlif ictimai, iqtisadi inkişaf səviyyəsində olan ölkələri və xalqları bir dövlət tərkibində birləşdirildi. Əhəməni dövlətinin sərhədləri şərqdə Hindistana, qərbdə isə Aralıq və Egey dənizlərinin sahilinə çatırdı. E.ə. 530-cu ildə II Kir massaget tayfaları üzərinə yürüş etdi. Döyüş massaget hökmdarı Tomirisin qələbəsi ilə nəticələndi.

**S** **"Əhəməni dövləti cahanşümul dövlətə çevrildi" cümləsinin izahını necə verərdiniz?**

**S** **Sizcə, nə üçün farslar Midiya idarəetmə sistemini mənimsədilər?**


Tomirisin qələbəsi

**T** **II Kirin ələ keçirdiyi əraziləri xəritədə göstərin.**

II Kir həlak olduqdan sonra oğlu II Kambiz Əhəməni taxt-tacına sahib oldu.
II Kambiz ölkədə baş vermiş xalq çıxışlarını yatırdıqdan sonra Misir yürüşünə çıxdı. Misirlilərin güclü müqavimətinə baxmayaraq, farslar e.ə. 525-ci ildə Misiri işğal etdilər. Əhəməni şahı I Daranın (e.ə. 522–486) hakimiyyətinin ilk illərində bütün ölkə ərazisini üsyanlar bürüdü. I Dara böyük çətinliklə üsyanları yatırdı. Tezliklə işğallara başlayan Əhəmənilər Hindistanın şimal-qərb hissəsini, Frakiyanı, Makedoniyanı özlərinə tabe etdilər.

# I Daranın daxili siyasəti

I Dara Əhəməni dövlətinə daxil olan ölkələri itaət altında saxlamaq üçün islahatlar həyata keçirdi.

Köhnə inzibati bölgülər və xərac toplama qaydaları ləğv edildi. I Dara, ilk növbədə, əyalətləri idarəetmə sistemini yenidən təşkil etdi. O, dövləti satraplıq (canişinlik) adlanan inzibati-vergi dairələrinə böldü. Dövlət 20 satraplığa bölünmüşdü. Belə inzibati dairələrin başında satrap dururdu. Satraplar şahın daimi nəzarəti altında idilər.

LAYİHƏ



Əhəməni hökmdarının qəbulunda

Bu nəzarəti şahın "qulaq və gözləri" adlanan gizli polis həyata keçirirdi. I Daranın dövründən başlayaraq imperiyada bütün məmurlar və satraplar ancaq farslardan təyin edilirdi. Fars dilinin tətbiqi genişlənirdi. İmperiyanın müxtəlif əyalətləri ilə əlaqəni asanlaşdırmaq üçün I Dara yol tikintisinə diqqəti artırmışdı. Yolun hər 20 km-də şah dayanacaqları tikilmişdi. Burada yaşayan süvarilər şahın əmr və göstərişlərini estafet sistemi ilə təcili olaraq ölkənin hər yerinə yayırdılar. I Dara bütün imperiyada tətbiq olunan vahid pul sistemi yaratdı. Belə sikkələr Daranın adı ilə "darik" adlandırıldı. Sikkələr üzərində şahın təsviri verilirdi. I Daranın islahatları beynəlxalq ticarətin genişlənməsinə və inkişafına səbəb oldu.

S **Sizcə, dövləti daxilən möhkəmləndirmək üçün I Daranın hansı tədbirini daha yüksək qiymətləndirmək olar?**



"Darik" (qızıl pul)

S **I Daranın hansı tədbiri beynəlxalq ticarətin inkişafına yol açmışdır?**

I Daranın dövründə yunanlara qarşı başlanan və uzun sürən müharibə Əhəməni dövləti üçün uğursuz bitdi.

"Mən Darayam, böyük şah, şahlar şahı, xeyli ölkələr şahı, bu böyük və geniş ölkə şahı Viştaspın oğlu Əhəməni nəslindənəm. ... mən farsam. Farsdan Misiri tutdum. Mən Misirdə axan Nil çayından Farsdan başlayan dənizə kimi bu kanalın çəkilməsini əmr etdim. Mən əmr etdiyim kimi kanal qazıldı. Mən istədiyim kimi gəmilər Misirdən Farsa kanal vasitəsilə üzməyə başladı".

S **Mənbədə nədən bəhs edilir?**

T **I Daranın daxili siyasətini təhlil edin.**



LAYİHƏ




I Daradan sonra hakimiyyətə gələn Əhəməni şahları onun qədər bacarıqlı olmadılar.

Makedoniya hökmdarı İsgəndərin hücumu imperiyanın süqutunu sürətləndirdi. Makedoniyalı İsgəndərlə sonuncu Əhəməni şahı III Daranın orduları arasında e.ə. 331-ci ildə Qavqamela çölündə həlledici döyüş baş verdi. Döyüşdən bir gün əvvəl düşmənin saysız qoşunlarını görən İsgəndərin sərkərdəsi ona gecə ikən qəflətən hücuma keçməyi təklif edir. İsgəndər isə: "qələbəni oğurluqla qazanmaq istəmirəm", – deyə cavab verir.

S **Sizcə, Qavqamela döyüşündən əvvəl İsgəndərin "Qələbəni oğurluqla qazanmaq istəmirəm" cavabını verməsi onun hansı xarakterindən irəli gəlirdi? Fikrinizi əsaslandırın.**


Qavqamela döyüşü


III Dara

Sübh tezdən döyüş başladı. İranlılar sağ cinahdan makedoniyalıları sıxışdırmağa başladılar. Döyüşdə dönüş yaratmaq üçün İsgəndər süvari dəstəsi ilə birlikdə fars ordusunun mərkəzinə zərbə endirdi. Qorxudan döyüşü yarımçıq qoyub ölkənin şərqinə qaçan III Dara yaxın adamları tərəfindən öldürüldü.

Əhəməni ordusunun məğlubiyyəti ilə bitən döyüşdən sonra ölkənin paytaxtı Persepol ələ keçirildi. Beləliklə, e.ə. 330-cu ildə Əhəməni dövləti süqut etdi.

LAYİHƏ

# Hindistanın təbiəti

Hindistan Asiyanın cənubunda yerləşən böyük ölkə olub Hindistan yarımadasını və Asiya qitəsinin bu yarımadaya qovuşan hissəsini əhatə edir. Dünyanın ən hündür və həmişə qarla örtülü Himalay sıra dağları Hindistanı başqa ölkələrdən ayırır. Himalay dağları ölkəni soyuq şimal küləklərindən qoruduğuna görə Hindistanda hava hətta qışda da isti olur. Yarımadanın qərb hissəsindən Hind çayı, şərqindən Qanq çayı axır. Himalay dağlarından axmağa başlayan bu iki çay dağlarda qar əriyən zaman böyük daşqın əmələ gətirir.

**T** **Hindistanın təbii-coğrafi şəraitini xəritə əsasında təsvir edin.**

# Hindistanın ən qədim şəhərləri

Arxeoloqlar Hind çayı vadisində e.ə. III minillikdə salınmış şəhərlərin xarabalarını aşkara çıxarmışlar. Bunların ən böyüyü Mohenco-Daro və Harappa şəhərləridir. Şəhərdə içərisi çox gözəl bəzənmiş iki və üçmərtəbə evlər, taxıl saxlanılan böyük anbar, habelə yoxsulların komaları və sənətkarların emalatxanaları olmuşdur. Şəhər əhalisi tunc və qızıl emal edirmiş. Harappalıların öz yazıları da olmuşdur. Ancaq onların yazısının sirri hələ açılmamışdır. Mohenco-Daroda əhalini içməli su ilə təchiz edən su kəməri, kanalizasiya sistemi olmuşdur. E.ə. II minillikdə əhali şəhərləri tərk edib getmişdir. Bunun səbəbi indiyədək hələ də bilinmir.

E.ə. II minillikdə racələrin başçılıq etdikləri köçəri ari tayfaları şimal-qərb tərəfdən Hindistana hərəkət etmişlər. Onlar yerli əhali ilə qarışaraq oturaq həyata keçmişlər, əkinçiliklə məşğul olmağa və qonşuluq icmaları halında yaşamağa başlamışlar.

E.ə. XI yüzillikdə hind-arilər dəmir emal etməyi öyrənmişlər. Dəmir alətlərlə Qanqın ətrafındakı cəngəllikləri təmizləyən hindlilər əkin sahələri üçün şərait yaratmışlar. Burada əkinçiliklə yanaşı, maldarlıq və sənətkarlıq da sürətlə inkişaf etməyə başladı.

**S** **Hindistanda ilk dövlətlərin Hind çayı vadisində yaranmasının səbəbini nə ilə izah etmək olar?**

**S** **Böyük çayların ətrafında yaranmış daha hansı sivilizasiyaları tanıyırsınız?**


Harappa


Mohenco-Daro

LAYİHƏ

Hind xalqının formalaşdığı dövrdə Hinduizm dini yaranmağa başlamışdır. Hinduizmin ən qədim müqəddəs qanunlar toplusu "Veda" ("biliklər", "müdriklik") adlanır. Veda yazılarında varlılar və kasıblar haqqında danışılır.

Əkin sahələrinin xüsusi mülkiyyətə verilməsi əmlak və sosial bərabərsizliyi artırdı. Artıq bu dövrdə, e.ə. XII–XI yüzilliklərdə Hindistanın 4 əsas kastası (irsi hüquq və vəzifələri olan insan təbəqələri) yaranmışdı: brahmanlar (kahinlər), kşatri (döyüşçülər), vayşi (icmaçı kəndlilər), sudra (ən kasıb asılı insanlar, nökərlər).

**Kastalar haqqında məlumat toplayıb təqdimat hazırlayın.**

Hind xalqının sərf etdiyi əməyin səmərəsini racələr və başqa adlı-sanlı adamlar mənimsəyirdilər. Onlar yığılan məhsulun və heyvan balalarının bir hissəsini qonşu icmaların əlindən alırdılar. Adlı-sanlı adamlar əsirləri qul edir, qulları "düşmən" adlandırırdılar. Racələr tədricən hökmdar olur və hakimiyyəti irsi olaraq öz övladlarına verirdilər. Beləliklə, e.ə. I minillikdə Hindistanda padşah hakimiyyəti, qoşunu, keşikçiləri, məmurları olan dövlətlər əmələ gəldi.

Lakin vahid dövlətin olmaması ölkənin müdafiəsini çətinləşdirirdi. E.ə. VI yüzillikdə Hindistanın şimal-qərbi Əhəməni dövlətinin tabeçiliyinə keçdi. Əhəməni dövlətinə son qoyan Makedoniyalı İsgəndər e.ə.




327-ci ildə Hindistana yürüş etdi və Hind çayına qədər Hindistan torpaqlarını ələ keçirdi. İsgəndər Hindistanın digər ərazilərini də işğal etmək istəyirdi. Lakin illərlə davam etmiş yürüşlər və aramsız döyüşlərdən yorulmuş Makedoniya əsgərləri yürüşü davam etdirməkdən imtina etdilər. Əsgərlərinin qətiyyətini görən İsgəndər geri çəkilməyə məcbur oldu.

İsgəndərin ölümündən sonra Makedoniya imperiyasının dağıldığı dövrdə Hindistanda da yunan-Makedoniya işğalına qarşı mübarizə başladı. Bu mübarizədə Mauriya sülaləsindən olan Çandraqupta fərqlənirdi. Tezliklə Hind çayı hövzəsindəki ərazilərin bir hissəsi azad edildi. Mauriya sülaləsinin ən qüdrətli hökmdarı Aşoka e.ə. III yüzilliyin ikinci yarısında Hindistanı vahid dövlətdə birləşdirdi. Bütün Hindistan üzərində hakimiyyətini möhkəmləndirən Aşoka bir sıra sahələrdə islahatlar apardı. İslahatlarını xalqa çatdırmaq üçün o, Hindistanın müxtəlif səmtlərində 33 kitabə qoydurmuşdu. Hindistanın tarixində buddizmin əsas himayədarı və təbliğçisi kimi yadda qalmış Aşokanın vəfatından sonra dövlət zəiflədi. E.ə.180-ci ildə Mauriya sülaləsinə son qoyuldu və Hindistan yenidən ayrı-ayrı dövlətlərə parçalandı.




LAYİHƏ




# BÖYÜK HUN DÖVLƏTİ. ÇİN

Hun, Teoman , Çin səddi, Mete, Pinçen sazişi, Sin Şi Xuandi, Xan sülaləsi, Sarısarıqlılar üsyanı

Onlar Mərkəzi Asiya çöllərinin şəriksiz hakimi idilər. Maldarlıqla məşğul olan bu xalq yüzilliklər boyunca otlaqlar və su mənbələri ardınca Böyük çöl*də şərqdən qərbə, qərbdən şərqə köç etmiş, Avrasiya qitəsində qüdrətli dövlətlər qurmuşlar. Döyüş üsulları, silahları, özlərinə məxsus sənətkarlıq nümunələri ilə dünya mədəniyyətinə bir sıra yeniliklər bəxş etmiş türk birlikləri dünyada müxtəlif adlarla tanınmışdır. Eradan əvvəl I minillikdə türklər tarixdə Hun dövləti adı ilə məşhur olan yeni dövlət qurdular.

*** Böyük çöl**

*Qobi səhrasından Qara dənizin şimalına qədər uzanan düzənlik ərazilərdir.*

Hunlar haqqında ilk məlumatlar e.ə II minilliyə aiddir. Çin mənbələrindən məlum olur ki, onların ilk siyasi birlikləri məhz bu dövrdə meydana gəlmişdir. Orxon və Selenqa çayları arasında yaşayan hunlar, əsasən, köçəri maldarlıqla və ovçuluqla məşğul idilər. Sərt iqlim xüsusiyyətləri, daimi yerdəyişmələr hunların həyat tərzinə də ciddi təsir göstərmişdir. Onlar qalalara, sədlərə ehtiyac duymadığından hər an təhlükələrə hazır olmaq məcburiyyətində idilər. Buna görə uşaqlarını Böyük çölün şərtlərinə uyğun böyüdürdülər. Hunlar kiçik yaşlarından hərb sənətinin sirlərini öyrənir, at çapmaq, ox atmaq vərdişlərinə yiyələnirdilər.

**S** **Sizcə, nəyə görə hunlar döyüş təlimi keçməyə ehtiyac duymurdular? Fikrinizi bir neçə dəlil ilə əsaslandırın.**

Oğlan uşaqları qoyuna minir, quşlara və gəmirici heyvanlara ox atır, bir az böyüdükdə tülkü və dovşan ovlayırlar. Əsgərləri yay çəkən güclü və zirehli süvarilərdir. Ənənələrə görə sülh dövründə maldarlıqla məşğul olur, vəhşi heyvanları ovlayırlar. Fövqəladə hallarda döyüş təlimləri keçərlər. Bu onların həyat tərzidir. Uzaqmənzilli silahları yay və ox, əlbəyaxa silahları balta və nizədir.

*Əkbər Nəcəf. "Hun minilliyi" əsərindən*

## Teoman tanhu*

E.ə III yüzilliyin ikinci yarısında Teoman adlı sərkərdə hun tayfalarını vahid dövlətin tərkibində birləşdirdi və Böyük Hun dövlətinin qurucusu oldu. Ötükəni isə dövlətinin paytaxtına çevirdi.



*** Tanhu**

*kağan və ya xaqan deməkdir.*

Hun dövlətinin meydana gəlməsi ilə təxminən eyni vaxtda Çində də vahid dövlət yaranmışdı. Tezliklə bu iki dövlət arasında uzun sürən çəkişmələr başladı. Sayca çox olan Çin orduları döyüşkən hun süvarilərinin hücumları qarşısında aciz qalırdı.

LAYİHƏ

Piyadalara üstünlük verən çinlilərdən fərqli olaraq hunlar süvari döyüşür, uzaq məsafədən ox atmaqla düşmənə böyük tələfat verirdilər. Düşməni zəiflətdikdən sonra əlbəyaxa döyüşə girirdilər. Çin hökmdarı Sin Şi Xuandi çıxış yolunu sədd tikilməsində gördü.

E.ə 214-cü ildə Böyük Çin səddinin tikintisinə başlandı. Lakin bu sədd də hun hücumlarının qarşısını almağa kifayət etmirdi. Hun süvariləri gah bu səddin kənarlarından yol tapır, gah da zəif möhkəmləndirilmiş yerlərindən keçib Çinin içərilərinə yürüşlər təşkil edirdilər.

## Mete tanhu

Hun dövlətinin ən qüdrətli dövrü Mete tanhunun (e.ə. 209–174) hakimiyyəti illərinə təsadüf edir.



Mete mərkəzi hakimiyyəti möhkəmləndirmiş, ordu islahatı keçirmişdir. Hun süvari ordusu onluq, yüzlük, minlik və on minlik dəstələr şəklində təşkil edilmiş, orduda nizam-intizam yaradılmışdı.

**Sizcə, ordunun bu cür saylara bölünməsi hansı zərurətdən irəli gəlirdi?**

Fit səsi çıxaran oxların düzəldilməsi də onun adı ilə bağlıdır. Belə oxlar atılarkən səsi ilə düşməni vahiməyə salırdı.

Güclü və intizamlı orduya arxalanan Mete işğallara başladı. Monqol və Tibet tayfaları tabe edildi. Hun dövlətinin sərhədləri şərqə və qərbə doğru xeyli genişləndirildi. Əsas hədəf yenə də zəngin Çin dövləti idi.

E.ə. 200-cü ildə Hun ordusu Çin səddini aşıb dövlətin içərilərinə doğru irəliləməyə başladı. Həlledici döyüş Pinçen şəhəri yaxınlığında baş verdi. Çoxsaylı Çin ordusu Turan taktikasından istifadə edilərək mühasirəyə alındı. Çin hökmdarı çıxılmaz vəziyyətə düşdü. O, Mete xaqanın xanımına elçi göndərərək ərini sülh üçün dilə tutmağı xahiş etdi. Hun cəmiyyətində qadınlar böyük rola malik idi. Onlar siyasi qərarların verilməsində də yaxından iştirak edirdilər. Mete bu xahişi qəbul etdi.

Tərəflər arasında imzalanan Pinçen sazişinə görə:

- Xan sülaləsinin hökmdarı hər il xərac ödəməyi öz öhdəsinə götürürdü;
- Çinin şimal əraziləri Hun dövlətinə verilirdi;
- Çinin ticarəti yolları da hunların nəzarətinə keçirdi.

Mete Mərkəzi Asiyada yaşayan 26 tayfanı öz hakimiyyəti altında birləşdirdi. Geniş fəthlər nəticəsində Hun dövləti imperiyaya çevrildi. Onun sərhədləri şərqdə Koreyadan qərbdə Xəzər dənizinə, şimalda Sibirdən cənubda Kaşğara qədər uzanırdı. Böyük İpək yolu da hunların nəzarətinə keçmişdi. Çin qaynaqları Meteni "Tanrı qutu", yəni Tanrının yer üzündə siyasi hakimiyyət verdiyi şəxs adlandırırdı. "Oğuznamələr"də isə Mete əfsanəvi Oğuz xaqan ilə eyniləşdirilirdi.

**Böyük Hun imperiyasının malik olduğu ərazilərdə indiki dövrdə hansı dövlətlər yerləşir?**

E.ə. I yüzilliyin əvvəllərində Hun dövləti daxili çəkişmələr nəticəsində zəifləməyə başladı. Bu, Çinin təsiri ilə bağlı idi. Açıq müharibədə hunlara məğlub olan Xan sülaləsinin hökmdarları müxtəlif üsullarla Hun dövlətinin daxili işlərinə qarışmağa, nifaq yaratmağa çalışırdılar. Onlar rəqibinin döyüş üsullarını öyrənir, özləri də süvari qoşunlar təşkil edirdilər. Eyni zamanda, Çin hökmdarları nikah diplomatiyasından istifadə etməyə üstünlük verir, bu yolla hun şahzadələri arasında ədavət yaratmağa çalışırdılar. Məqsədləri isə Çinin Hun dövlətindən asılılığına son qoymaq, hər il ödədikləri ağır xəracdan qurtulmaq idi.

E.ə 58-ci ildə anası çinli olan hun şahzadəsi dövləti Çinə tabe etmək niyyətinə düşdü. Anası türk olan digər qardaş – Çiçi tanhu isə buna etiraz etdi. Ögey qardaşlar arasındakı mübarizə Hun imperiyasının iki yerə parçalanması ilə nəticələndi. Şərqi Hun dövləti

LAYİHƏ




Çinə tabe oldu. Çiçi tanhunun rəhbərlik etdiyi Qərbi Hun dövləti isə bir müddət müstəqilliyini saxlaya bildi. Çiçi tanhu dövlətin sərhədlərini qərbə doğru genişləndirdi: Tanrı dağlarının şimalı, İssık gölünün ətraf əraziləri tabe edildi. Lakin parçalanma hunları çox zəiflətmişdi. İpək yoluna nəzarəti yenidən ələ keçirməyə çalışan Xan hökmdarları bu fürsəti əldən vermədilər.

E.ə 36-cı ildə Çin orduları Qərbi Hun dövləti üzərinə yeridildi. Hunlar qəhrəmanlıqla döyüşsələr də , üstün Çin ordularına məğlub oldular. Qərbi Hun dövləti süqut etdi. Bu məğlubiyyətdən sonra hunlar qərbə, Ural dağlarının ətəklərinə və İdil (Volqa) çayı sahillərinə köç etdilər. Onların varisləri isə bir neçə yüzillik burada qaldıqdan sonra yeni qüdrətli bir dövlətin – Avropa Hun dövlətinin əsasını qoyacaqdılar.

Çinə tabe olan şərq hunları isə bir qədər sonra müstəqillik əldə etsələr də, onu sonadək qoruya bilmədilər. III yüzilliyin əvvəllərində bu dövlət də süqut etdi. Bu dövlətin varisləri gələcəkdə Göytürk dövlətinin qurulmasında yaxından iştirak edəcəkdi. Hunların digər qolu isə Mərkəzi Asiyada Ağ hun dövlətinin qurucuları oldu.

## Dövlət

Qədim türklərdə dövlət El adlanırdı. Elin təməlində dövlət və xalq dururdu. Bu söz dövləti olan xalqı ifadə edirdi. Digər türk mənşəli dövlətlərdə olduğu kimi, hunlar da hökmdar hakimiyyətinin Tanrıdan gəldiyinə inanırdılar. Hun tanhuları "Göy Tanrının Yer üzündəki nümayəndələri" hesab olunurdu. Hakimiyyət irsən keçirdi.

## Təsərrüfat həyatı

Qədim hunların əsas məşğuliyyəti köçəri maldarlıq idi. Onlar qoyun sürüləri, mal-qara və at ilxıları bəsləməklə yanaşı, dəmirçilik və zərgərliklə də məşğul olmuş, özlərinə məxsus zəngin mədəniyyət abidələri yaratmışdılar.



Hun zərgərlik nümünəsi

## Din

Digər türk boyları kimi hunlar arasında da Tanrıçılıq geniş yayılmışdı. Onlar Göy Tanrıya sitayiş edir, yaradılışın ondan gəldiyinə inanırdılar. Tanrının yaratma və hadisələrə müdaxiləsi qut yolu ilə gerçəkləşirdi. ("Qut" – xoşbəxtlik, səadət mənasını verir) Hun inancında şamançılıq da mühüm yer tutmuşdur. Şamanların Göy Tanrı ilə insanlar arasında vasitəçi olduğuna inam var idi. Günəş, Ay tanrıları da hunların inancında xüsusi yerə sahib idi.

LAYİHƏ

# Çin

Çin Asiya qitəsinin şərqində yerləşir. Dağlardan yol alan Yantszı və Xuanxe çayları Şərqi Çin düzənliyindən keçib dənizlərə tökülür. Bu çayların keçdiyi vadilərdə torpaqlar məhsuldar olduğu üçün insanlar qədim dövrlərdə burada məskunlaşmış, əkinçiliklə məşğul olmuşlar. Lakin yağışlar zamanı Xuanxe çayı daşır, ərazilər suyun altında qalırdı. Xuanxe çayını " gəzən çay", "min bir fəlakət çayı", "Çinin bəlası" adlandırırdılar. Zaman keçdikcə çinlilər daşqınlardan qorunmaq üçün bəndlər tikməyi, çaydan suvarma üçün arxlar çəkməyi öyrəndilər. Təsadüfi deyil ki, Çində erkən sivilizasiya e.ə. III-II minilliklərdə məhz Xuanxe vadisində meydana gəlmişdir. Qəbirlərdən tapılan əşyaların müxtəlifliyi e.ə. II minillikdə Çində ictimai bərabərsizliyin, təbəqələşmənin yarandığından xəbər verir. Yazının – heroqliflərinin meydana gəlməsi də bu dövrə aiddir.

**S** **Sizcə, Qədim Çində yazı hansı zərurətdən meydana gəlmişdi?**

Çay vadilərində insanlar çəltik becərir, maldarlıq və sənətkarlıqla məşğul olurdular. Çin sənətkarlarının toxuduğu ipək parçalar, ağ gildən düzəltdikləri zərif çini qablar isə sonralar bütün dünyada məşhurlaşmışdı.

E.ə. VI–V yüzilliklərdə dəmir emalına başlanması Çində təsərrüfatın inkişafına təkan verdi. Tələbatdan artıq məhsulun meydana gəlməsi sərvət uğrunda mübarizələrə səbəb oldu.




Müharibələrdə əsir götürülən insanlar qula çevrilməyə, təsərrüfat işlərində onların əməyindən geniş istifadə edilməyə başlanıldı. Beləliklə, sərvət əldə etmək və onu qorumaq zərurəti quldar dövlətlərin meydana gəlməsinə şərait yaratdı.

# Çinin birinci hökmdarı

Artıq e.ə. IV–III yüzilliklərdə Çində bir neçə quldar dövlət var idi. Bu dövlətlər bir-biri ilə aramsız müharibələr aparırdı. Ona görə də bu dövr Çin tarixinə "vuruşan padşahlıqlar dövrü" kimi daxil olmuşdur.

Bu padşahlıqlardan biri olan Sin digər dövlətlərlə mübarizədə qalib gəldi.

E.ə. 221-ci ildə Sin padşahı bütün ölkəni vahid dövlətdə birləşdirdi və özünü Sin Şi Xuandi (Çinin birinci hökmdarı) adlandırdı. O bütün ölkə üçün vahid ölçü, çəki və pul sistemi tətbiq etdi. Çin ərazisi 36 vilayətə bölündü və hər birinə məmur təyin edildi. Mərkəzləşdirilmiş dövlət idarəetmə sistemi yaradıldı.



Sin Şi Xuandi

LAYİHƏ

İmperatora, onun fərmanlarına qarşı çıxanlara amansız divan tutulurdu.

Demək olar ki, Sin sülaləsi ilə eyni dövrdə güclü dövlət quran hunlar zəngin Çin ərazilərinə aramsız hücumlar təşkil edirdilər. Hökmdar  Sin Şi Xuandi vəziyyətdən çıxış yolunu sədd tikilməsində gördü. E.ə. 214-cü ildə  Böyük Çin səddinin tikintisinə başlanıldı. Hündürlüyü bəzi yerlərdə 10 metr olan  divarın uzunluğu ətrafa uzanan qolları ilə birlikdə 6 min kilometr idi. Lakin bu nəhəng sədd də hun hücumlarının qarşısını almağa kifayət etmədi.

**S** **Sizcə, Çinin vahid dövlətdə birləşdirilməsinin hansı üstünlükləri var idi? Fikirlərinizi əsaslandırın.**

## Xan sülaləsi

E.ə. 206-cı ildə Çin dövlətində sülalə dəyişikliyi baş verdi. Hakimiyyətə Xan sülaləsi gəldi. Hun döyüş taktikalarını öyrənən çinlilər artıq onlarla mübarizədə uğur qazanmağa başladılar. Böyük Hun dövləti parçalandı və onun bir hissəsi Çin əsarəti altına düşdü. Xan hökmdarları Vyetnamın bəzi vilayətlərini və Koreyanı da işğal etdilər.

İlk Xan hökmdarlarının hakimiyyəti dövründə kənd təsərrüfatının canlandırılması istiqamətində addımlar atıldı. Sin sülaləsi dövründə tərk edilmiş kəndlər yenidən məskunlaşdırıldı, boş torpaqlar əkilib-becərilməyə başlandı. Bu isə məhsul istehsalının artmasına səbəb oldu


Çin səddinin tikilməsi

Xan hökmdarlarından bəziləri elmin və mədəniyyətin inkişafına da qayğı göstərirdi. Bu addımlar nəticəsində Çin əhalisi vahid xalqa çevrildi. Təsadüfi deyildir ki, çinlilər bu gün də özlərini "xan" adlandırırlar.

## Böyük İpək yolu

Xan sülaləsi hökmdarlarının işğalları nəticəsində e.ə. II yüzillikdə Çin dünya ticarət yollarına çıxış əldə etdi. Nəticədə Çindən Aralıq dənizi sahillərinə, oradan isə Avropaya uzanan və Böyük İpək yolu adlandırılan karvan yolu fəaliyyətə başladı. Çin ipəyi dünya ölkələrində yüksək qiymətləndirilirdi.  Çinlilər ipək ixracından böyük mənfəət əldə edirdilər. Böyük İpək yolunun əsas istiqamətlərindən biri də Azərbaycandan keçirdi. Xan sülaləsinin hökmdarları Böyük İpək yolunun əhəmiyyətini anlayır və  Çinə  böyük gəlir gətirən bu ticarət yolunu daim nəzarətdə saxlamağa çalışırdılar.

**T** **Böyük İpək yolu haqqında məlumat toplayıb təqdimat hazırlayın.**




Layihə

# Xan sülaləsini zəifldən üsyanlar

İstilaçı müharibələr ölkəyə qul axınını gücləndirdi. Ağır vergiləri və icarə borclarını ödəyə bilməyən kəndliləri də ailəsi ilə birlikdə qula çevririrdilər. Bu isə sosial ziddiyyətləri kəskinləşdirirdi. Xan sülaləsinin zəifləməsi ilə Çini xalq üsyanları bürüdü. I yüzilliyin başlanğıcında baş vermiş "Qırmızıqaşlılar" üsyanı çətinliklə yatırıldı.

Kəndlilərin və qulların amansız istismarı, əyan və sərkərdələr arasındakı çəkişmələr Çində növbəti üsyana səbəb oldu. 184-cü ildə baş verən "Sarısarıqlılar" üsyanı 20 ildən artıq davam etsə də, bu üsyan yatırıldı.

Buna baxmayaraq, Çində quldarlıq quruluşuna böyük zərbə vuruldu: Xan sülaləsi zəiflədi və III yüzilliyin əvvəllərində süqut etdi. Çin yenidən xırda dövlətlərə parçalandı.

# Çin mədəniyyəti

Qədim çinlilər özlərinə məxsus heroqlif yazı növünü icad etmişdilər. Yazı vasitəsi kimi ilk vaxtlar bambuk lövhələrdən istifadə edilirdi. İmperator fərmanları ipək parçalar üzərində yazılırdı. Xan sülaləsinin dövründə kağız ixtira edildi.


Kəndli üsyanı

**Yazının növləri və əhəmiyyəti ilə bağlı məlumat toplayıb təqdimat hazırlayın.**

Çinlilər dəqiq təqvim düzəltmişdilər. Bu, əkinçiliklə məşğul olan əhali üçün olduqca vacib idi. Tacir və səyyahlar səfərləri zamanı Çini əhatə edən ölkələr, ərazilər haqqında məlumatlar toplamış, bu məlumatlar əsasında dağlar və dənizlər haqqında kitab yazılmışdı. Kompası da uzaq səfərlərə çıxan çinli dənizçilər və səyyahlar ixtira etmişdilər.


Çin heroqlifləri

Qədim Çində təbabət də inkişaf etmişdi. Çinli təbiblər təbii bitkilərlə müalicələrə üstünlük verirdilər. Bu bitkilərdən biri də çay idi. Xan sülaləsi dövründə Çin tarixindən bəhs edən əsərlər meydana gəlmişdi. Bunlardan ən məşhuru e.ə. II–I yüzilliklərdə yaşamış Sıma Tsyanın müəllifi olduğu "Tarixi qeydlər" əsəri idi. Avropalılar Sıma Tsyanı "Çin tarixinin Heredotu" adlandırmışlar.

Qədim Çində evlər, adətən, ağacdan tikilirdi. Yalnız hökmdar sarayları və varlı əyanların evləri daşdan olurdu.

E.ə. VI–V yüzilliklərdə Çində Konfutsi təlimi yayılmağa başlamışdı. Sin sülaləsi dövründə Konfutsi təlimi rədd edilmiş və bu təlimin tərəfdarlarına divan tutulmuşdu. Konfutsinin bütün insanların, o cümlədən hökmdarın ədalətli rəftar etmək fikirlərini Sin Şi Xuandi qəbul etmirdi. Xan sülaləsinin nümayəndələri isə bu təlimi rəsmi ideologiya səviyyəsinə qaldırmışdılar.

**Dövlətin idarə edilməsi ilə bağlı Konfutsi təlimini dəyərləndirin.**

LAYİHƏ




# QƏDİM YUNANISTAN, MAKEDONİYA VƏ ROMA

Polis, yunan koloniyaları, Solon, Sparta, Yunan – Əhəməni müharibəsi, Makedoniyalı İsgəndər, Respublika, Roma imperiyası

Avropada ilk dövlət e.ə. III minilliyin birinci yarısında **Krit adasında** yaranmışdı. Krit Misir və Yunanıstanın cənubu ilə ticarət əlaqələri saxlayırdı.

**E.ə. II minilliyin ortalarında** güclü vulkan püskürməsi Kritdəki sivilizasiyanın süqutuna səbəb oldu. Krit mədəniyyətinin təsiri nəticəsində Yunanıstanın cənubunda **Mikenada** yeni sivilizasiya yaranmışdı.

E.ə. II minilliyin sonlarında **dorilərin** şimaldan Yunanıstana yürüşü nəticəsində Mikena sivilizasiyası dağıldı.

**A** **Krit və Mikena sivilizasiyasının meydana gəlmə səbəblərini araşdırın.**

## Yunan şəhər–dövlətləri

E.ə. VIII yüzillikdə yunanların **polis** adlandırdıqları şəhər-dövlətlər meydana gəldi. Hər bir polisin akropol adlanan hissəsi təpənin yuxarısında yerləşirdi. Akropoldan aşağıda aqora (bazar meydanı) yerləşirdi. Şəhər-dövlətlərin yuxarı təbəqəsini təşkil edən zadəganlar iri torpaq mülkiyyətçiləri olmaqla bərabər, siyasi həyatda da üstünlüyə malik idilər. Ordunun əsasını ağır silahlı piyadalar təşkil edirdi. Onların düzülüş qaydası **falanqa** (latınca "barmaq" deməkdir) adlanırdı.

**S** **Şəhər-dövlətlərin olması Yunanıstanın siyasi inkişafına necə təsir göstərirdi?**

## Yunan koloniyaları

**E.ə. VIII–VI yüzilliklərdə** yunanların bir hissəsi vətənlərini tərk edərək uzaq ölkələrdə məskunlaşdı. Yunanıstanda əhalinin sayının artması, əkin sahələrinin azlığı və ticarətin inkişafı bu köçmənin əsas səbəbləri idi. Nəticədə Aralıq dənizi və Qara dəniz sahillərində **yunan koloniyaları** quruldu. Koloniyaların yaranması ilə yunanlar öz mədəniyyətlərini və siyasi ideyalarını Aralıq dənizinə yaydılar. Koloniyalar ticarətin və sənətkarlığın inkişafına səbəb oldu. Bu isə Yunanıstanın bir çox şəhər-dövlətlərində yeni varlı şəxslər qrupunu yaratdı. Tədricən onlar siyasi hakimiyyətdə təmsil olunmaq üçün hakim aristokratlarla mübarizəyə başladılar.

**T** **Yunan koloniyalarının yaranmasının səbəb və nəticələrini şərh edin.**

**S** **Ticarət və sənətkarlığın inkişafı Yunanıstanın siyasi həyatına necə təsir göstərdi?**


Mikena sarayı

LAYİHƏ




# Afina dövləti

**Solonun islahatları**

- Torpağa görə bütün borclar ləğv edildi.
- Borclarına görə köləliyə düşmüş afinalılar azad edildi.
- Taxıl və digər zəruri ərzaq məhsullarının ixracı qadağan edildi.

Əvvəllər Afinanı hökmdar idarə edirdi. E.ə. VII yüzillikdə Afina aristokratların hakimiyyətinə əsaslanan **oliqarxiyaya** (azlığın hakimiyyəti) çevrilmişdi. Bütün vətəndaşların iştirak etdiyi **xalq yığıncağının** səlahiyyətləri az idi. Afinadakı ciddi iqtisadi problemlər siyasi ziddiyyətləri kəskinləşdirdi. Borcların ləğv edilməsi və yoxsullara torpaq verilməsi uğrunda mübarizə başlandı. Üsyandan qorxan aristokratlar güzəşt etməyə məcbur oldular. E.ə. 594-cü ildə **Solon** islahatlar keçirdi.

İslahatlar nəticəsində Afina vətəndaşlarının hüquq və vəzifələri onların əmlakına uyğun müəyyən edilməyə başladı. Əmlakından asılı olmayaraq bütün vətəndaşlar xalq yığıncağında iştirak edə bilərdilər. Lakin yoxsul vətəndaşlar siyasi vəzifəyə seçilə bilməzdilər.



Afina xalq yığıncağı




Solonun islahatları ziddiyyətləri tamamilə həll etmədi. Daxili çəkişmələr Afinada **tiranlığın** yaranmasına gətirib çıxardı. Aristokratlardan biri zorla hakimiyyəti ələ keçirdiyi üçün onu onu tiran adlandırdılar. Yeni varlılar və aristokratlara borclu olan yoxsul kəndlilər tiranı dəstəkləyirdilər.

Lakin tiranlıq yunanların qanunun aliliyi düşüncələrinə uyğun deyildi. E.ə. VI yüzilliyin sonlarında afinalılar üsyan qaldırıb tiranlığa son qoydular. Həyata keçirilən islahatlara əsasən qanunları müzakirə və qəbul etmək səlahiyyəti xalq yığıncağına verildi. Xalq yığıncağı ali hakimiyyət orqanı oldu.

**Solonun islahatına əsasən taxıl və digər zəruri ərzaq məhsullarının ixracının qadağan edilməsini müasir dövrlə əlaqələndirərək dəyərləndirin.**

LAYİHƏ

# Hərbi dövlət – Sparta

Digər yunan şəhər-dövlətləri kimi, Spartada da əkin üçün yararlı torpaq az idi. Digərlərindən fərqli olaraq spartalılar koloniyalar yaratmaq əvəzinə, qonşu əraziləri işğal edərək əhalisini qula çevirirdilər. İşğal edilmiş əraziləri əldə saxlamaq üçün spartalılar hərbi dövlət yaratmışdılar. Spartada idarə üsulu **iki hökmdarın** başçılıq etdiyi oliqarxiyaya əsaslanırdı. Hökmdarlar müharibə vaxtı orduya rəhbərlik edirdi. **Ağsaqqallar şurası** qərarları hazırlayır və səsvermə üçün vətəndaşlardan ibarət **xalq yığıncağına** təqdim edirdi.

Dövlətin sabitliyini qoruyub saxlamaq üçün yadellilərin Spartaya gəlməsinə və hərbi səbəblər istisna olmaqla, spartalıların xaricə getməsinə icazə verilmirdi. Spartalılara fəlsəfə, ədəbiyyat və ya incəsənəti öyrənmək qadağan idi.

**S** **Sparta cəmiyyətində qoyulan məhdudiyyətlər onun inkişafına necə təsir göstərə bilərdi?**




# Yunan-Əhəməni müharibəsi

Kiçik Asiyanın qərbindəki yunan şəhərləri Əhəməni imperiyasına tabe edilmişdi. E.ə. V yüzilliyin əvvəllərində burada yunan şəhər-dövlətləri üsyan qaldırdı. Afinanın üsyançılara kömək etməsi Əhəməni hökmdarı I Daranın Yunanıstana hücumuna səbəb oldu. E.ə. 490-cı ildə Afina yaxınlığında **Marafon** düzənliyindəki döyüşdə yunanlar Əhəməni ordusunu məğlub etdilər.

Əhəmənilər Yunanıstanı işğal etmək siyasətini davam etdirdilər. Lakin düşmənə qarşı birləşən yunanlar uzun sürən müharibədə qalib gəldilər.

**T** **Yunanların qalib gəlməsinin səbəbini dəyərləndirin.**

# Perikl

Yunan-Əhəməni müharibəsində yoxsul vətəndaşların orduda fəal iştirakı onların ictimai mövqeyinə müsbət təsir göstərdi. E.ə. V yüzilliyin ikinci yarısında **Periklin** hakimiyyət dövründə bütün Afina vətəndaşlarının idarəetmədə iştirakı genişləndi. Hər bir vətəndaş dövlət idarəçiliyində istənilən vəzifəni tutmaq hüququ qazandı. Periklin dövrü quldarlıq demokratiyasının (xalq hakimiyyəti) çiçəklənmə dövrü adlanır.

**T** **Yunan şəhər-dövlətlərində istifadə edilən idarəetmə növlərini dəyərləndirin.**

| İdarəetmə növü | Müsbət cəhəti | Mənfi cəhəti |
|---|---|---|
| Demokratiya | | |
| Oliqarxiya | | |
| Tiranlıq | | |

LAYİHƏ

**S** Solonun və Periklin islahatlarını müqayisə edin.




**Periklin dövründə tədbirlər**

- Yoxsul vətəndaşlara taxıl və pul yardımı edildi.
- Vətən uğrunda həlak olanların ailələri, yetim uşaqlar, qocalar və əlillər dövlət tərəfindən himayə olunurdu.
- Yoxsulların dövlət vəzifələrində çalışa bilmələri üçün əmək haqqı verilirdi.

## Afina-Sparta müharibəsi

Əhəmənilər üzərində qələbədən sonra yunan şəhər-dövlətləri Afina və Spartanın rəhbərliyi ilə iki rəqib düşərgəyə bölündü. Onlar arasında mübarizənin səbəblərindən biri siyasi sistemlər – Afina demokratiyası ilə Sparta oliqarxiyası arasında ziddiyyətlər idi. **E.ə. 431–404-cü illərdə** baş vermiş müharibə Afina və müttəfiqlərinin məğlubiyyəti ilə başa çatdı.

Yunan şəhər-dövlətləri arasındakı müharibələr onları zəiflətdi və daxili ziddiyyətlərin dərinləşməsinə səbəb oldu. Bu zaman Yunanıstanın şimalında **Makedoniya** dövləti güclənirdi.

**S** **Yunan şəhər-dövlətləri arasındakı müharibələr onların tarixi inkişafına necə təsir göstərdi?**

## Yunanıstan mədəniyyəti

Qədim Yunanıstanda din həyatın bütün sahələrinə təsir etmişdi. Tanrıların Olimp dağında yaşadığı düşünülürdü. Baş tanrı **Zevs** idi.

Tanrıların şərəfinə çoxsaylı tədbirlər, o cümlədən idman oyunları keçirilirdi. **Olimpiya oyunları** adlanan ilk yarışlar e.ə. 776-cı ildə keçirilmişdi.

Dini bayramlar zamanı açıq havada tamaşalar nümayiş etdirilirdi. İlk yunan pyesinin müəllifi **Esxil** olmuşdur.

Yunan elminin ilk mərkəzi Kiçik Asiyadakı **Milet** şəhəri idi. **E.ə. V** yüzillikdən Afinada demokratiyanın bərqərar olması onun elm mərkəzinə çevrilməsinə səbəb oldu. Burada **Pifaqor, Sokrat, Platon və Aristotel** kimi böyük alimlər yaşamışdılar. **Hippokrat** tibb elminin yaradıcılarından hesab edilirdi.

Keçmişdə baş vermiş hadisələrin sistemli təhlili kimi Tarix elmi yunanlar tərəfindən yaradılmışdır. Qərb sivilizasiyasında tarix elminin banisi kimi qəbul edilən **Herodot** məlumatlar əldə etmək üçün səyahətlər edirdi.

Memarlıqda məbədlərin inşası mühüm yer tuturdu. Afinada inşa edilmiş **Parfenon məbədi** ilahə Afinaya ithaf edilmişdir.

**T** **Elm və mədəniyyətin inkişafı ilə sosial-iqtisadi inkişafın qarşılıqlı əlaqələrini dəyərləndirin.**

**T** **Yunanıstan sivilizasiyasının dünya mədəniyyətinə verdiyi töhfələri müəyyən edin.**

## Makedoniya imperiyası

**E.ə. IV yüzillikdə** Yunanıstandan şimalda yerləşən Makedoniya güclü bir dövlətə çevrildi. Bu dövrdə Makedoniya hökmdarı **II Filipp** Yunanıstana hücum etdi. E.ə. 338-ci ildə **Xeroneya döyüşündə** yunanlar Makedoniya ordusuna məğlub oldular. Nəticədə Spartadan başqa, bütün yunan şəhər-dövlətlərinin müstəqilliyinə son qoyuldu. Lakin onlar daxili özünüidarəni saxladılar. II Filippin sui-qəsd nəticəsində öldürülməsindən sonra hakimiyyətə onun 20 yaşlı oğlu **İsgəndər** gəldi.

LAYİHƏ

O, Əhəməni dövlətinə hücuma başladı. Tezliklə Suriya, Fələstin və Misir onun nəzarətinə keçdi. E.ə. 331-ci ildə İsgəndər **Qavqamela döyüşündə** əhəmənilərə qalib gəldi. Şərqə doğru yürüşü davam etdirən İsgəndər Hindistana çatdı. O, burada güclü müqavimətlə qarşılaşdı. Sərkərdələr yürüşü davam etdirməkdən imtina etdiyi üçün geri dönməyə məcbur oldu.

İsgəndərin fəthləri sayəsində yunan mədəniyyəti Asiya ölkələrində yayıldı. Yunanlar isə, öz növbəsində, Şərq ölkələrinin mədəni nailiyyətlərindən bəhrələndilər. E.ə. 323-cü ildə İsgəndər vəfat etdikdən sonra onun imperiyası parçalandı.

# Qədim Roma. Padşahlıqdan Respublikaya

Qədim Romanın siyasi tarixi 3 dövrə bölünür: **padşahlıq, respublika** və **imperiya**. E.ə. 753–509-cu illər Roma tarixində Padşahlıq dövrü adlanır. E.ə. 509-cu ildə romalılar sonuncu hökmdarı devirib **Respublika** (ümumxalq işi) qurdular. Respublika seçkili orqanları olan idarəetmə formasıdır. E.ə. III yüzilliyin əvvəllərində romalılar bütün İtaliyanın işğalını başa çatdırdılar.

Erkən dövrdə Roma əhalisi iki qrupa: **patrisilər** və **plebeylərə** bölünürdü. Romanın hakim təbəqəsi olan patrisilər böyük torpaq sahibləri idi. Vəzifələrə yalnız patrisilər seçilə bilərdi. Respublika dövründə Romanı bir il müddətinə seçilən və orduya başçılıq edən 2 **konsul** idarə edirdi. **Senat** adlanan Ağsaqqallar şurası xarici və daxili siyasətə, o cümlədən maliyyə işlərinə nəzarət edirdi.

Respublika dövrünün əvvəllərindən patrisilər və plebeylər arasında mübarizə başlandı. Plebeylər əvvəlcə onların hüquqlarını qoruyan **xalq tribunu** seçmək hüququ qazandı. Artıq e.ə. III yüzilliyin əvvəllərində bütün Roma vətəndaşları qanun qarşısında bərabər idi. Əslində isə, hakimiyyət bir neçə varlı patrisi və plebey ailələrinin əlində idi. Ona görə də Roma Respublikası demokratik dövlətə çevrilə bilmədi.

**S** **Plebeylər və patrisilər arasındakı fərqlər Romada demokratiyanın inkişafına necə mane oldu?**



Senatın iclası

# Romada hüquq

Romanın ən qiymətli miraslarından biri onun hüquq sistemidir. Romanın ilk yazılı qanunlar toplusu e.ə. V əsrin ortalarında qəbul edilmiş **12 lövhə qanunları** idi. Sonralar bu qanunlar təkmilləşdirildi. Bəzi Roma qanunları hazırda dünyada və Azərbaycanda müasir dövrə uyğunlaşdırılaraq istifadə edilir.

**Roma hüquq sisteminin müasir dövrdə mövcud prinsipləri**

- əksi sübuta yetirilməyənə qədər insanların təqsirsiz sayılması
- təqsirləndirilən şəxslərə hakim qarşısında özlərini müdafiə etməyə icazə verilməsi
- hakimlərin qərar qəbul edərkən sübutlara əsaslanması

# Romanın işğalları

Romalılar İtaliyanı tabe etdikdən sonra Siciliya adasını ələ keçirmək üçün Karfagen dövləti ilə müharibəyə başladı. E.ə. 264-cü ildə iki dövlət arasında Aralıq dənizinin qərbinə nəzarət etmək üçün uzun sürən **Pun** (latın dilindəki "punicus"

LAYİHƏ

sözündən götürülüb "finikiyalı" deməkdir) müharibələri başladı. E.ə. 146-cı ildə Karfagen məğlub oldu və dağıdıldı, ərazisi isə Roma əyalətinə çevrildi.

E.ə. II yüzillikdə Roma Aralıq dənizinin şərq sahilləri uğrunda da mübarizə aparırdı. Bu mübarizə nəticəsində **Makedoniya** və **Yunanıstan** Roma tərəfindən işğal edildi.

İşğallar nəticəsində Romaya gətirilən qulların sayı durmadan artırdı. Ağır yaşayış səviyyəsi qulların üsyanlarına səbəb olurdu.

## İmperiyanın yaradılması

Aramsız müharibələr Roma ordusunda da dəyişikliyə səbəb oldu. Əvvəllər kəndlilərdən ibarət olan Roma ordusu muzdlulardan təşkil edilməyə başlandı. Yeni üsulla toplanan ordu Roma dövlətinə deyil, sərkərdələrə sədaqət andı içirdi. Bu isə e.ə. I yüzillikdə Romada hakimiyyətə gəlmək istəyən sərkərdələr arasında **vətəndaş müharibələrinə** səbəb oldu.

Bu sərkərdələrdən biri **Qay Yuli Sezar** Qalliyadan Romaya yürüş edərək əsas rəqibi **Pompeyin** qüvvələrini məğlub etdi. Nəticədə Sezar rəsmi olaraq mütləq hökmdar – diktator oldu. Respublikanı monarxiya ilə əvəz etmək istəyi e.ə. 44-cü ildə onun Senatda öldürülməsinə səbəb oldu. Bundan sonra hakimiyyət uğrunda yeni mübarizə başladı. Bu mübarizədə qalib gələn **Oktavian** Senatın



Yuli Sezar

səlahiyyətlərini məhdudlaşdıraraq ilk Roma imperatoru oldu. Senat onu Avqust (müqəddəs) adlandırdı.

## Tənəzzül və süqut

I–II yüzilliklərdə imperiya öz qüdrətinin zirvəsində idi. III yüzillikdən başlayan daxili iğtişaşlar və xarici hücumlar iqtisadiyyata mənfi təsir etdi. Müharibələr və epidemiya nəticəsində əhalinin sayının azalması vergi gəlirlərinə mənfi təsir göstərdi.

IV yüzilliyin ikinci yarısında **hunlar** tərəfindən məğlub edilən **germanlar** Roma imperiyasının ərazilərinə daxil oldular. **395-ci ildə** Roma imperiyası rəsmi olaraq Qərb və Şərq hissələrinə bölündü. V yüzillikdə german tayfalarının Qərbi Romaya yürüşləri genişləndi. Əvvəlcə **vestqotlar**, daha sonra **vandallar** Romanı talan etdilər. **476-cı ildə** sonuncu Qərbi Roma imperatoru taxtdan salındı və imperiya süqut etdi. Avropada qədim dövr başa çatdı.

## Roma mədəniyyəti

Romalılar yunanlardan çox şey mənimsəmişdilər. Onlar memarlıqda sütunlar və düzbucaqlı binalar kimi yunan üslubları ilə yanaşı, tağ, sərdabə və günbəz kimi əyri xətlərə əsaslanan formalardan da istifadə edirdilər. **Betondan** istifadə yeni memarlıq formaları ilə birlikdə nəhəng binalar tikməyə imkan verdi. Romalıların mühəndislik bacarıqları yolların, körpülərin və su kəmərlərinin tikintisinə imkan verdi. Romalılar imperiya ərazisində geniş yol şəbəkəsi qurmuşdular.

**Niyə romalılar yunanlardan daha böyük binalar inşa edə bildilər?**

Romanın ən məşhur tarixçilərindən biri **Tit Livi** olmuşdur. O, tarixi keçmişin təcrübəsini, əxlaq dərsləri baxımından görürdü.

> Tarixin öyrənilməsi xəstə ağıl üçün ən yaxşı dərmandır. Çünki tarixdə hamının görməsi üçün müxtəlif insan təcrübəsi açıq şəkildə yazılmışdır. Tarixdə özünüz və ölkəniz üçün həm gözəl nümunələr, həm də pis işlərin qarşısını almaq üçün xəbərdarlıqlar tapa bilərsiniz.
>
> *Tit Livi*

LAYİHƏ




# TÜRK DÖVLƏTLƏRİ

Hunlar, Attila, "Turan taktikası", göytürklər, Xəzər xaqanlığı, qaraxanlılar, Sultan Mahmud Qəznəli

## Avropa hun dövləti

Hunlar hələ qədim dövrlərdən Azərbaycan ərazisi də daxil olmaqla Ön Asiyadan Sakit okean sahillərinə qədər uzanan böyük bir ərazidə məskunlaşmışdılar. Hunların adlarına təkcə Çin mənbələrində deyil, eyni zamanda, miladdan əvvəl IV yüzillikdən başlayaraq Şiz yazılarında, o dövrdən bəhs edən gürcü mənbələrində, antik dövr xəritələrində də rast gəlinir.

Eramızın ilk yüzilliklərində Mərkəzi Asiyadakı hunlar Çin əsarətinə düşməmək üçün müxtəlif istiqamətlərdə köç etməyə başladılar. Onların cənub-qərbə doğru hərəkət edən hissəsi Ağ hunlar, şimal-qərbə doğru köçən hissəsi isə Qərb və ya Avropa hunları adlandırıldı.

Midiya Hun torpaqlarından uzaq deyildi. Hunlar qədim dövrlərdən Midiyanın romalıların bilmədikləri giriş yollarına bələd idilər. İskit hökmdar nəslinə mənsub olan, sonralar Roma sarayındakı danışıqlarda iştirak etmiş iki hun sərkərdəsi Vasix və Kursix Qara dəniz sahillərindən keçib Midiyaya girdi... Onlar düşmənlər tərəfindən təqib edildiklərindən yaxınlığındakı dənizin içərisindən alov çıxan qayalıqların yanından keçib, şimala doğru gedərək yenidən hunlarla birləşdilər.

*V yüzillikdə yaşamış Bizans diplomatı və tarixçisi*

**S** **Mənbə əsasında hansı nəticələrə gəlmək olar?**




II yüzillikdə yaşamış Dionisi Periegetin xəritəsi




Qərb hunlarının ilk başçısı Tanrı xan hesab edilir. II–III yüzilliklərdə hun-barsil tayfaları Tanrı xanın başçılığı altında Azərbaycanın şimalında möhkəmləndikdən sonra Anadoluya da yürüş etdilər. 374-cü ildə Balamir Qərb hunlarının başçısı oldu. Alanları qərbə doğru sıxışdıran Balamir xan ostqot kralını məğlub etdi.

Hunların bir hissəsi Cənubi Qafqaza və Anadolu yarımadasının şərqinə yürüş etdilər. Onlar daha sonra Xəzər dənizinin qərb sahillərindən keçib, yenidən şimaldakı hunlarla birləşdilər. Şimali Qafqazı və Qara dənizin şimal sahillərini ələ keçirən hunlar Dunay çayı istiqamətində hərəkətə keçdilər.

LAYİHƏ

Avropa Hun dövlətinin hansı tarixi prosesin gedişində yarandığını yadınıza salın.

Getdikcə güclənən Avropa Hun dövlətinin ərazisi şərqdə Ural dağlarından qərbdə Dunay çayı sahillərinə qədər uzanırdı.

434-cü ildə hakimiyyətə Attila və Bleda qardaşları gəldi. 445-ci ildən Attila ölkəni tək idarə etməyə başladı. Onun dövründə Avropa Hun dövləti özünün qüdrətli zirvəsinə çatdı.

Attilanın sarayı öz möhtəşəmliyi ilə digər tikililərdən fərqlənir. Saray şalbanlardan və taxtalardan inşa edilmiş, məharətlə yonulmuş qülləli hasarlarla əhatə olunmuşdu. Bu hasarın içindəki çoxsaylı mənzillər oyma naxışlı şalbanlardan inşa edilmişdir. Binaların arasında ağ daşlardan hörülmüş böyük hamam vardır.

Hökmdarın sarayı digər evlərdən daha böyük idi və hündür təpədə yerləşirdi. Sarayın içində bir neçə nəfərin əyləşməsi üçün oturacaqlar düzəldilmişdi. Attilanın taxtı sarayın ortasında bir neçə pillə hündürdə yerləşirdi. Taxtın qabağında nazik və rəngli gərdək qurulmuşdu.

Attilanın ziyafətlərində qonaqlara gümüş qablarda ləziz yeməklər verilir, onun özü isə taxta boşqabda yemək yeyir, hər şeydə nümunəvi sayılacaq təvazökarlıq nümayiş etdirirdi. Qonaqlara içkilər qızıl və gümüş qədəhlərdə təklif olunur, onun özü isə taxta kasada içirdi.

*V yüzillikdə yaşamış Bizans diplomatı və tarixçisi*

Mənbə əsasında Attilanı xarakterizə edin.




"Dünyanı titrətmək üçün doğulan", "Tanrı qırmancı" Attilanın hakimiyyəti illərində Avropanın xeyli hissəsi Avropa Hun dövlətinin tərkibinə qatılmışdı.

451-ci ildə Katalaun düzənliyində Qərbi Roma imperatorluğunun müxtəlif xalqlardan topladığı qoşunla Attilanın ordusu üz-üzə gəldi.



Attilanın Roma elçilərini qəbul etməsi

LAYİHƏ

Döyüşdən əvvəl Attila öz döyüşçülərinə müraciət etdi: "Biz döyüşdə romalıların nə qədər aciz olduqlarını bilirik. Onlar nəinki ilk yara aldıqda, hətta döyüş meydanından qalxan tozu gördükdə də öz cəsarətlərini itirirlər. Onlar qalxanları arxasında gizlənməmiş, alanları dəf edərək vestqotları cinahdan vurun. Qəlbləriniz cəsarətlə dolsun! Hunları heç vaxt tərk etməyən qeyrətinizi göstərin! Yaralananlar düşməni məhv etməmiş büdrəyib yıxılmasın. Hunların indiyə qədər tayfalar və xalqlar üzərində qazandıqları qələbələr bu mühüm döyüş üçün hazırlıq deyildimi? Azov bataqlıqlarından bu döyüş meydanına bizləri ulularımız gətirmədimi? Bizi bu meydanda şərəf gözləyir. Buraya toplanmış qoşundakı saysız-hesabsız əsgərlər hunların gözlərinə baxmağa belə cəsarət etmirlər. Düşmən üstünə əlimdə qılınc birinci mən yeriyəcəyəm".

**S** **Attilanın müraciətindən hansı nəticələrə gəlmək olar?**


Katalaun döyüşü

Döyüş heç bir tərəfə tam uğur gətirmədi. Bundan sonra Roma şəhəri üzərinə yeriyən Attila Roma papasının yalvarışlarını və İtaliyada yoluxucu xəstəliyin geniş yayılmasını nəzərə alıb, şəhərə toxunmadı.

453-cü ildə Avropa tarixçilərinin Makedoniyalı İsgəndər və Qay Yuli Sezarla eyniləşdirdikləri Attila vəfat etdi. Onun qurduğu geniş ərazili dövlətin yerində yeni türk dövlətləri yarandı.

Attilanın ölümündən sonra hakimiyyətə gəlmiş böyük oğlu qiyam qaldırmış alman tayfaları ilə döyüşdə qəhrəmancasına həlak oldu. Bu hadisədən sonra hunlar Qara dəniz sahilləri, Qafqaz və indiki Macarıstan ərazisində məskunlaşdılar. Attilanın kiçik oğlu Caba Macarıstanda yeni dövlətin əsasını qoydu. Macarlar Caba haqqında çoxsaylı əfsanələr yaratmış və onun şərəfinə ölkənin paytaxtı Budapeştdə heykəl qoymuşlar.

**T** **Attila haqqında təqdimat hazırlayın.**


Attila və Roma papası

LAYİHƏ



Macarıstanın paytaxtı Budapeştdə Attilanın kiçik oğlu Cabaya qoyulmuş heykəl

Cabanın ölümündən sonra hunlardan onu əvəz edən kimsə olmadı. Bundan istifadə edən düşmənlər Hun xanlığı üzərinə hücum etdilər. Savaş meydanında hunlarla üz-üzə gələn frank sərkərdələri onları təhdid edərək dedilər: "Caba daha yoxdur, indi sizi kim xilas edəcək?"

Bu anda göydə ulduzların işıqlandırdığı ağ bir yol göründü. Səmadan enən Caba öz ordusu ilə yerə enərək frank işğalçılarını darmadağın etdi. Hunlar yenə xilas oldu.

Bundan sonra da o, üç dəfə "Döyüşçülərin səma yolu" ilə yerə enərək öz xalqını qorudu.

*VI yüzillikdə yaşamış frank tarixçisi*

**S** **Caba haqqında əfsanəvi məlumatların verilməsi nəyi sübut edir?**

Hunlar Avrasiyanın təkcə siyasi xəritəsinin və xalqların yaşadıqları ərazilərin deyil, həm də siyasi quruluşunun dəyişməsinə səbəb oldu. Yeni ictimai münasibətlər – feodalizm quruluşu yaranmağa başladı.

Hunlar Avropa xalqlarının həyatında dərin iz qoydular. Qədim türk xalqlarından olan "kimmer" gürcü dilində "pəhləvan"; "iskit" sözü pəhləvi dilində "igid" mənasını verdiyi kimi, hunların adı da almanların və qərb slavyanlarının dillərində "bahadır", "igid" mənalarında işlənməyə başladı.

Hazırda türk xalqları və macarlar hunların varisləri hesab olunur. Orta əsrlərdə Göyçə gölü "Gələhun" adlandırılmışdır. Orta əsrlərdə "Hun qalası" deyilən, hazırda Tovuz rayonu ərazisində "Hun dərəsi" adlı toponim qorunub saxlanılır və buranın əhalisi özlərini hunların varisləri hesab edir.

# Ağ hunlar

Çin sərhədlərindən cənub-qərb istiqamətində hərəkət edən Ağ hunlar Qafqazdan Hindistana qədər uzanan geniş ərazilərdə məskunlaşdılar. Mənbələr Azərbaycanda qədim dövrlərdə kadusi, orta əsrlərdə isə abdallı adlandırılan tayfaları ağ hunlar hesab edirlər.

Ağ hunlar IV yüzilliyin ikinci yarısında Qobi çölündən Xəzər dənizi sahillərinə qədər uzanan geniş ərazidə öz dövlətlərini qurdular. Ağ hunların qərb qonşuları sasanilər, şimal qonşuları isə göytürklər idi.

430-cu ildə hakimiyyətə gələn Ağsuvar xan Firuz şaha Sasani taxtına çıxmaqda yaxından kömək göstərdi. Lakin bu hadisədən az sonra Firuz şah Ağsuvar xana qarşı çıxaraq Ağ hunlarla müharibəyə başladı. Düşmənə qarşı "Turan taktikası"ndan istifadə edən Ağsuvar xan Sasani ordusunu mühasirəyə aldı. Firuz şah hər iki



Ağsuvar xan

ordunun döyüşçülərinin gözləri qarşısında Ağ Hun hökmdarının qarşısında diz çöküb bağışlanması üçün yalvardı. Ağsuvar xan tərəfindən bağışlanan Firuz şah çox keçmədən yenidən Ağ hun torpaqlarına soxuldu. Ağsuvar xan döyüşdən əvvəl Sasani ordusunun hücum edəcəyi yollarda üstüörtülü xəndəklər qazdırdı. Firuz şah da daxil olmaqla bu xəndəklərə düşən düşmən ordusu məhv edildi.

LAYİHƏ




Firuz şahdan sonra Sasani taxtına çıxan oğlu I Qubad Məzdəkilər hərəkatı nəticəsində ölkədən qovularkən Ağ hun hökmdarına sığındı. Öz qızını I Qubada ərə verən Ağ hun hökmdarı Məzdəkilər hərəkatının yatırılmasında mühüm rol oynadı. I Qubaddan sonra hakimiyyətə gəlmiş Xosrov Ənuşirəvanın anası Ağ hun hökmdarının qızı idi.

VI yüzilliyin əvvəllərində Ağ hun dövləti daha da gücləndi. Onun ərazisi Hindistanın şimalından Aral gölünə, Tibet dağlarından Xəzər dənizi sahillərinə qədər uzanırdı. Ağ hun ordusunda 700-dən çox döyüş fili var idi.

Ərazisində müxtəlif dinlərin yayılması nəticəsində get-gedə zəifləyən Ağ hun dövlətinin çox hissəsi 567-ci ildə başqa bir türk dövləti olan Göytürk xaqanlığının tərkibinə qatıldı.

Antioxiyalı İohan kadusiləri Ağ hunlar hesab edir. "Pyotrun həyatı" adlı mənbədə isə ağ hunlar iverlərin (qədim gürcü tayfası) qonşusu olduğu və İver hökmdarı Farsmanın ağ hunların köməyi ilə hakimiyyətə gəldiyi qeyd olunur.

*VII əsrə aid Suriya mənbəyindən*

**Mənbədəki məlumat əsasında Ağ hunların yayıldığı ərazini göstərin.**

## Göytürk xaqanlığı

Göytürk dövlətini qurmuş Aşina sülaləsi hun mənşəli idi. V yüzilliyin ortalarında Altay dağlarının cənub ətəklərində məskunlaşan Aşina nəsli Avar dövlətinə tabe olub, dəmirçiliklə məşğul olurdu. Bu nəslin başçısı Bumın avarlara qarşı üsyan qaldıraraq 552-ci ildə paytaxtı Ötükən olan Göytürk dövlətini qurdu. Dövlətin şərq hissəsini Bumın xaqan, qərb hissəsini isə Yabqu titulunu daşıyan qardaşı idarə edirdi. Yabqu dövlətdə xaqandan sonra ikinci şəxs hesab edilir və hakim sülaləyə mənsub olurdu. "Yabqu" qədim türk dilində "yaxın" mənasını verən "yavuq" sözündən yaranmışdır.

Bumın xaqandan sonra hakimiyyətə gəlmiş Göytürk xaqanlarının dövründə dövlətin ərazisi xeyli genişləndirildi. Göytürklər Qafqaz uğrunda gedən mübarizədə həlledici qüvvəyə çevrildi.

LAYİHƏ


Bumın xaqan

Hakimiyyət uğrunda çəkişmələr I Göytürk xaqanlığını xeyli zəifləndi. Bundan istifadə edən Çin xaqanlığın xeyli hissəsini işğal etdi. Yadelli itaəti altında yaşamağa öyrəşməmiş göytürklər 639-cu ildə Kür Şadın başçılığı altında üsyan qaldırdılar.

> 40 nəfərlik döyüşçüsü ilə Çin sarayına hücum edən Kür Şadın üzərinə göy üzünü örtəcək qədər ox yağdırıldı. Savaş bitdikdən sonra imperator öz vəzirindən soruşdu: "Kür Şad öldürüldümü?" Vəzir cavab verdi: "Xeyr, hökmdarım, Kür Şad ölmədi, sadəcə, məğlub oldu".
>
> *Orta əsr Çin mənbəyi*

682-ci ildə Aşina nəslindən olan Qutluq Çinin şimalında yaşayan türkləri birləşdirərək Göytürk dövlətini bərpa etdi. Çinliləri darmadağın edən Qutluq Ötükəndə Eltəriş (eli toplayan, bir yerə yığan) xaqan adı ilə taxta çıxdı.

Ondan sonrakı xaqanların hakimiyyətləri dövründə Göytürk dövləti daha da gücləndi.

Bilgə xaqan (716–734) dövlət idarəçiliyini daha da təkmilləşdirdi. Bu işdə ona qardaşı Kül Tigin və baş məsləhətçisi Tonyukuk yaxından kömək edirdilər.

Kül Tiginin azyaşlı oğlunun taxta çıxması ilə göytürk bəyləri arasında hakimiyyət uğrunda çəkişmələr artdı. 744-cü ildə idarəçilik Uyğur türklərinin əlinə keçdi.




**Göytürk dövlətləri ilə bağlı cədvəl hazırlayın.**

LAYİHƏ

# Avar, Bulqar və Xəzər dövlətləri

Avropa Hun dövlətinin süqutundan sonra da türklər Avropada həlledici siyasi qüvvə olaraq qalırdılar. VI əsrin ikinci yarısında Mərkəzi Avropada Avar xaqanlığı quruldu. 626-cı ildə Konstantinopolun uğursuzluqla nəticələnmiş 10 günlük mühasirəsi, hakimiyyəti altında olan xalqların çıxışları, franklarla aparılan üzücü müharibələr və xristianlığın yayılması Avar xaqanlığının zəifləməsinə səbəb oldu. Avropa tarixində mühüm yer tutmuş bu dövlət IX əsrin I yarısında süqut etdi.

"Bulqar xanına əsir düşmüş avar döyüşçüsü söylədi: "Əvvəlcə xaqanımızı sadiq və doğrunu deyən məsləhətçilərdən məhrum edən didişmələr nəticəsində hakimiyyət natəmiz insanların əlinə keçməyə başladı. Sonra xalq qarşısında ədaləti müdafiə etməli olan hakimlər ikiüzlü və oğru adamlarla birləşdilər. Şərabın bolluğu ayıq düşünənlərin sayını azaltdı, fiziki cəhətdən zəifləmiş avarlar həm də sayıqlıqlarını itirdilər. Nəhayət, ticarətə meyil artdı. Avarlar alverçilərə çevrilib bir-birilərini, hətta qardaş qardaşını aldatmağa başladı. Bu bizim rüsvayçı sonumuzun başlanğıcı oldu".

*IX əsr Bizans xronikası*




**T** Avar xaqanlığının ərazisində hansı müasir dövlətlərin yerləşdiyini müəyyənləşdirin.









LAYİHƏ



Avar döyüşçüləri



Bulqar döyüşçüsü



Xəzər döyüşçüsü

Avar xaqanlığının zəifləməsi və Qərbi Göytürk xaqanlığının süqutu nəticəsində VII yüzilliyin birinci yarısında Qara dəniz sahillərində Böyük Bulqar xaqanlığı yarandı.

Qərbi Göytürk xaqanlığının süqutundan sonra onun ərazisində VII yüzilliyin ortalarında Xəzər xaqanlığı da yaranmışdı. Hakim sülalə Aşina sülaləsindən idi.

Qurd xanın vəfatından sonra zəifləmiş Böyük Bulqar dövlətinin ərazilərinin xeyli hissəsini ələ keçirən Xəzər xaqanlığı tezliklə öz sərhədlərini daha da genişləndirdi.

Xəzərlər bir tərəfdən ərəblərin Şərqi Avropaya, digər tərəfdən özlərindən şimalda yaşayan xalqların Xilafət üzərinə yürüşlərinin qarşısını aldılar.

Xaqanlıq əhalisinin əksəriyyətini xəzər türkləri təşkil edirdi. Xəzərlər, qalıqları dövrümüzə qədər gəlib çatmış böyük şəhərlər salmışdılar. VIII yüzillikdə musəvilik (yəhudilik) Xəzər xaqanlığının dövlət dini elan edilsə də, məhkəmə hakimiyyəti bütün dinləri təmsil edən nümayəndələrdən təşkil olunmuş və heç bir dini ayrı-seçkiliyə yol verilməmişdi.

200 ilə yaxın Xilafətlə aparılan müharibələr, qonşuluqdakı başqa bir türk xalqının, peçeneqlərin basqınları, dini pərakəndəlik X əsrin ortalarında Xəzər xaqanlığını zəifləməsinə gətirib çıxardı. 965-ci ildə Kiyev knyazı Svyatoslavın qarətçi yürüşü xaqanlığın süqutuna səbəb oldu.

"Biz Yafəsin oğlu Tağardan törəmişik. Əcdadlarımızın şəcərə kitabından Tağarın on oğlu olduğunu tapdıq. Onların adları belədir: Uyğur, Avar, Barsil, Bulqar, Savir, Peçeneq, Xəzər, Oğuz və s. Biz bu oğullardan 7-ci olan Xəzərin övladlarıyıq".

*Yəhudi-xəzər yazışmasından*

# Uyğur xaqanlığı

Göytürk xaqanlığının tərkibində yaşamış uyğurlar digər qohum türk xalqları ilə birlikdə çinlilərə qarşı mübarizə aparmışlar. Çin mənbələrinin yazdığına görə, Göytürk xaqanlığının ordusundakı ən mahir oxçular uyğurlar idi. 744-cü ildə karluk və basmıl türkləri ilə birləşən Qutluq Bilgə xan özünü xaqan elan etdi. Uyğurlar paytaxtı Ordu Balık şəhərinə köçürdülər.

Çindəki Tan sülaləsini himayə edən uyğur xaqanları onları qiyamçıların çıxışlarından və qonşuluqdakı tibetlilərin hücumlarından qoruyurdular. Bunun qarşılığında onlar Çin imperatorundan ipəklə xərac alırdılar. Çinin ticarət yolları da uyğurların nəzarəti altına keçmişdi. Bir tərəfdən iqlim dəyişikliyi, digər tərəfdən uyğurları döyüşməkdən çəkindirən maniçiliyin yayılması get-gedə

LAYİHƏ

dövləti zəiflətməyə başladı. IX yüzilliyin 40-cı illərində Qırğızların üsyanı nəticəsində Uyğur xaqanlığı süqut etdi.

## Qaraxanlı dövləti

Qaraxanlı dövləti Qarluq xaqanlığının varisləri hesab olunur. Onlar özlərini Turan hökmdarı Alp Ər Tunqanın (Əfrasiyabın) varisləri hesab edirdilər. IX yüzilliyin 40-cı illərində bu soydan olanlar müstəqil xanlıq yaratdılar. Dövlətin paytaxtı Balasaqun oldu.

932-ci ildə İslamı dövlət dini elan edən Qaraxanlı Satuk Buğra xan on il sonra xaqan titulunu qəbul etdi. Xaqanlığın paytaxtı Kaşğar şəhərinə köçürüldü. İslam dininin yayılması nəticəsində türk dilində İslam ədəbiyyatı yaranmağa başladı. Qədim türk yazıları ərəb qrafikalı əlifba ilə əvəz olundu. X əsrin sonlarında türk dilində ilk dəfə "Quran"ın təfsiri yazıldı. ("Təfsir" ərəb dilində "izah etmə", "şərh etmə" deməkdir)

Qaraxanlı dövründə əvvəllər birbaşa xaqan xəzinəsinə daxil olan vergilərin xaqan sülaləsindən olan ayrı-ayrı şəxslərin xeyrinə toplanılmasına başlanıldı. Bu isə feodal özbaşınalığının artmasına və mərkəzi hakimiyyətin zəifləməsinə gətirib çıxardı. XI yüzilliyin 40-cı illərində iki yerə parçalanan Qaraxanlı dövləti XIII yüzilliyin əvvəllərində öz müstəqilliyini itrdi.

**Mərkəzi Asiyada mövcüd olmuş türk dövlətləri ilə bağlı cədvəl hazırlayın.**








Satuk Buğra xan

LAYİHƏ

6 ay ərzində Türküstanı fəth edən Oğuz xaqan Qur dağlarından keçərkən güclü qar yağdı. Xaqan ordusuna irəliyə doğru yürüməyi əmr etdi. Yaz gəldikdə orduya baxış keçirən Oğuz xaqan döyüşçülərinin çatışmadığını gördü. Bir neçə gün keçdikdən sonra itkin düşmüş döyüşçülər xaqanın hüzuruna gələrək söylədilər: "Biz qoşunun arxasınca gəlirdik. Güclü qar yağdığından irəliyə doğru gələ bilmədik. Dəvələrimiz və atlarımız donvurmadan məhv olduqlarından biz buraya piyada gəlib çıxdıq". Oğuz xaqan onların "qarlıq" deyə çağırılmalarını buyurdu.

*Əbülqazi xan Xivəli. "Türkmanların şəcərəsi"*



Sultan Mahmud Qəznəli

# Qəznəli dövləti

IX yüzilliyin ortalarından başlayaraq İslam dünyasının siyasi həyatında türk sülalələri aparıcı rol oynamağa başladı. Abbasilər xilafəti zəiflədikcə onun ərazilərində türklər tərəfindən idarə olunan müsəlman-türk dövlətləri yaranmağa başladı. Belə dövlətlərdən biri də 962-ci ildə türk sərkərdəsi Alptəkin tərəfindən indiki Əfqanıstanın cənubunda qurulmuş Qəznəli dövləti idi.

Qəznəli dövləti qüdrətinin zirvəsinə Sultan Mahmud Qəznəlinin hakimiyyət illərində (998–1030) çatmışdır. O, Hindistana etdiyi yürüşlər nəticəsində dövlətin ərazisini daha da genişləndirdi. Çindən Aralıq dənizi sahillərinə gedən ticarət yollarının qəznəlilərin ərazisindən keçməsi onun iqtisadi gücünü daha da artırdı. Sultan Mahmud Qəznəli elmin inkişafına xüsusi diqqət yetirmiş, dövrünün ən məşhur alimləri olan Əl Biruni və İbn Sinanı saraya dəvət edərək onları himayə etmişdir.

XI yüzilliyin 30-cu illərində Qəznəli dövləti zəifləməyə başladı. Dövlətin ərazisi başqa türk xanədanlarının – səlcuqlar və qurluların hakimiyyəti altına keçdi.



Qəznəli dövlətinin bayrağı




**T** Qəznəli və Qaraxanlı dövlətlərini müqayisə edin.

LAYİHƏ




# ƏRƏB XİLAFƏTİ

Kəbə, İslam, Məhəmməd peyğəmbər, ərəb dövləti, xilafət


Ərəbistanda əkin sahələri


Bədəvi ərəb

Asiyanın cənub-qərbində yerləşən Ərəbistan yarımadasının ərazisinin xeyli hissəsi quru çöllərdən, yarımsəhra və səhralardan ibarətdir. Əkinçilik üçün yararlı torpaqlar yarımadanın qərb, cənub və şərq hissəsində yerləşirdi. Bu bölgələrdə yaşayan ərəblər dənli bitkilər, müxtəlif meyvələr, xurma və üzüm becərir, habelə sənətkarlıqla məşğul olurdular. Köçəri maldarlıqla məşğul olan və əhalinin əksəriyyətini təşkil edən ərəblər bədəvi adlanırdılar. Bədəvilər "səhra gəmisi" adlandırdıqları dəvə ilə yanaşı, həm də cins atlar və mal-qara saxlayırdılar. Hər qəbilənin sitayiş etdiyi bütü var idi.



**A İslamaqədərki ərəblərin yaşayış tərzi barədə araşdırma aparın.**

Kəbənin İslamdan əvvəlki dövrdəki görünüşü



LAYİHƏ



Məkkə şəhərinin İslamdan əvvəlki dövrdəki görünüşü

Yarımadanın qərb sahillərindən keçən mühüm ticarət yollarının üzərindəki vahələrdə şəhərlər salınmışdı. Belə şəhərlərdən biri Məkkə idi. Burada başqa ölkələrdən gələn tacirlər öz mallarını satır, əkinçi ərəblərlə bədəvilər mal mübadiləsi ilə məşğul olurdular. Şəhər əhalisinin çoxu qureyşilər nəslinə mənsub idi. Məkkə həm də ərəblərin dini mərkəzi sayılırdı.

Ərəblərin sitayiş etdikləri bütlər şəhərin mərkəzindəki Kəbədə toplanmışdı. Ticarət məsələlərində Məkkənin əsas rəqibi digər bir ərəb şəhəri olan Yəsrib idi.

## İslam dini və müsəlman dövləti

Ərəblər arasında nə siyasi, nə də dini birliyin olmasından istifadə edən Bizans və sasanilər VI yüzillik boyu Ərəbistandan keçən ticarət yollarını, xüsusilə də Yəməni ələ keçirmək uğrunda mübarizəyə başladılar. Bir çox ərəb qəbilələri öz doğma yurdlarını tərk edib şimala çəkildi. Artıq ərəblər xarici düşmənlərə qarşı birləşmək lazım olduğunu anlamağa başladılar.

Ərəblər arasında birliyin yaranmasında İslam dini daha böyük rol oynadı. Buna görə də ərəblər İslamdan əvvəlki tarixlərini "cahiliyyə", yəni nadanlıq, avamlıq dövrü adlandırırlar.

İslamı qəbul edən hər bir insan aşağıdakı şərtlərə əməl etməlidir:



1. Kəlmeyi-şəhadəti bilməlidir;
2. Namaz qılmalıdır;
3. Ramazan ayı boyunca oruc tutmalıdır;
4. Mülkiyyətinin həcminə görə zəkat verməlidir;
5. İmkanı səviyyəsində Məkkədəki Kəbəni ziyarətə getməlidir.

**İslamın hansı şərti insanları xeyirxahlıq göstərməyə sövq edir?**

LAYİHƏ

Məhəmməd İslam dininin peyğəmbəridir. Uşaq vaxtından yetim qalan Məhəmmədi yaxın qohumları böyütmüşdür. Yeniyetmə yaşlarından ticarət karvanları ilə müxtəlif ölkələrə səyahət edən Məhəmməd sonradan özü də ticarətlə məşğul olmuşdur.

610-cu ildə Hira mağarasında Məhəmmədə peyğəmbərlik verilmiş və üç il sonra o, İslam ("Allaha təslim olma", "salamatlığa çatma", "sülh" mənalarını verir ) dinini təbliğ etməyə başlamışdır.

İslam dininin təbliği Məkkə əyanlarının qəzəbinə səbəb olduğundan Məhəmməd peyğəmbər öz tərəfdarları ilə birlikdə 622-ci ildə Yəsribə köçmüşdür (hicrət etmişdir). Bu hadisə İslam tarixinin başlanğıcı hesab edilir.

Məhəmməd Yəsribə köçdükdən sonra şəhər "Mədinə", yəni "Peyğəmbər şəhəri" adlandırılmışdır. Müqəddəs kitabı "Quran" ("oxumaq" deməkdir) olan İslam dinini qəbul edənlər müsəlman ("Allaha təslim olmuş", "salamatlığa çatmış") adlanır.

"Quran" 114 surədən ibarətdir. Müsəlman hüquqşünasları bu surələr əsasında İslam hüququnu – "Şəriət qanunları"nı işləyib hazırlamışlar.

Mədinəlilərlə qarşıdurmalarda uğursuzluqla qarşılaşan məkkəlilər 630-cu ildə sülh müqaviləsi imzaladılar. Məhəmməd peyğəmbər Məkkəyə qayıtdı və Kəbəni bütlərdən təmizləyərək onu Allahın məbədi elan etdi. Məhəmməd yeni dinin peyğəmbəri olmaqla yanaşı, həm də Ərəb dövlətinin başçısı oldu.

Şəxsi mülkiyyət toxunulmaz elan olundu. Vərəsəlik, evlənmək, boşanmaq və digər hüquqlara aydınlıq gətirildi. Pis əməllər (qumar oynamaq, sələmçilik, fala baxmaq və s.) günah sayılaraq qadağan edildi.

S **Hansı amillər ərəb dövlətinin dini dövlət olduğunu sübut edir?**



Nadir şahın Dərbənd əhalisinə bağışladığı "Qurani-Kərim" kitabı



# Xilafətin yaranması, yüksəlişi və parçalanması

Məhəmməd peyğəmbərin vəfatından sonra yenicə yaranmış dövləti "müavin", "davamçı" mənalarını verən xəlifələr idarə etməyə başladılar. Xilafət tarixi 3 mərhələyə ayrılır:

İlk xəlifələr dövrü (632-661)

↓

Əməvilər dövrü (661-750)

↓

Abbasilər dövrü (750-1258)

LAYİHƏ






İlk 4 xəlifənin hakimiyyət illəri (632–661) **"Rəşidi xəlifələr"** ("doğru yolda olan" deməkdir) dövrü adlanır. İlk xəlifələrin hakimiyyətləri illərində çoxsaylı müsəlman orduları Ərəbistan yarımadasını tamamilə fəth etməklə yanaşı, həm də qonşu dövlətlər üzərinə yürüşlərə başladı. Əsasını yüngül silahlanmış çevik atlı dəstələr təşkil edən İslam orduları bir-biriləri ilə müharibədə zəifləmiş Bizans və sasanilər üzərində parlaq qələbələr qazandı. Bizansın əlində olan **Fələstin, Suriya** və **Misiri** fəth edən müsəlmanlar Şimali Afrikada xeyli ərazilər ələ keçirdilər.

İslam ordusuna güclü müqavimət göstərməsinə baxmayaraq, Sasani dövləti süquta uğradı. Cənubi Qafqaza yürüş edən ərəblər burada Xəzər xaqanlığının orduları ilə toqquşdular.

**S** **Sizcə, nə üçün Peyğəmbərdən sonra hakimiyyətdə olmuş xəlifələrdən yalnız ilk dördü doğru yolda olan adlanır?**

LAYİHƏ


Xilafət ordusu yürüşdə

**Xəlifə Əlinin (656–661)** hakimiyyəti illərində vergilərin azaldılması ərəb əyanları tərəfindən hiddətlə qarşılandı və daxili çəkişmələr gücləndi.

İlk xəlifələr dövründə dövlətin paytaxtı **Məkkə** və **Mədinə** şəhərləri idi.

Hakimiyyətə **Əməvilər sülaləsinin (661–750)** nümayəndəsi Müaviyə gəldi. Dövlətin paytaxtı **Dəməşq (Şam)** şəhərinə köçürüldü. Şimali Afrikanı tamamilə ələ keçirən ərəblər 711-ci ildə Cəbəllüttariq boğazını keçərək Pireney yarımadasının xeyli hissəsini tutdular. 732-ci ildə Puatye yaxınlığındakı döyüşdə qalib gələn franklar Xilafət qoşunlarının Qərbi Avropanın içərilərinə doğru yürüşlərinin qarşısını aldılar.

Şərq istiqamətində hücumlarını davam etdirən ərəblər Mərkəzi Asiyada və Hindistan yarımadasının şimal-qərbində xeyli ərazi ələ keçirdilər. Xilafətin ərazisi Atlantik okeanı sahillərindən Çinə və Hindistana qədər uzanırdı.

**Ərəb dövlətinin qısa müddətdə geniz ərazini imperiyaya çevirməsinə hansı amillər səbəb olmuşdur?**

İlk xəlifələr dövründən fərqli olaraq Əməvilər ərəb olmayan müsəlmanlara qarşı ayrı-seçkilik siyasəti yürüdürdü. Bu onlara qarşı narazılığın tədricən artmasına səbəb olurdu.

Mərkəzi Asiyada Əməvilərin bu siyasətinə qarşı üsyan qaldırmış Əbu Müslümün köməyi ilə **750-ci ildə** xilafətdə hakimiyyətə Abbasilər nəslinin nümayəndələri gəldilər. Abbasilərin hakimiyyətini qəbul etməyən Əməvilər Pireney yarımadasında **Kordova** xilafətini yaratdılar.

**Abbasilər** sülaləsinin hakimiyyəti dövründə (750–1258) paytaxt **Bağdada** köçürülmüşdü. Ona görə Abbasilər sülaləsinin idarəçiliyi dövrü bəzən Bağdad xilafəti də adlandırılır.

Xilafət torpaqları inzibati cəhətdən **əmirliklər** adlanan vilayətlərə bölünmüşdü.

**Sizcə, xilafətdə müxtəlif torpaq mülkiyyəti formalarının olması nədən irəli gəlirdi?**

LAYİHƏ

**Xilafətdə torpaq sahibkarlığının formaları**

- *dövlət torpaqları*
- *xidmət qarşılığında verilən* **iqta** *torpaqları*
- *irsən keçən* **mülk** *torpaqları*
- *müsəlman dini idarələrinə mənsub olan* **vəqf** *torpaqları*
- **icma** *torpaqları*



Qızıl dinar



Gümüş dirhəm

Kiçiyimizin halına acımayan, böyüyümüzü saymayan, ona yaxşılıq etməyən, pislikdən əl çəkməyən bizdən deyildir ...

**Məhəmməd peyğəmbər**

Nə söylədiyini, nə zaman və kimə söylədiyini gərək yaxşı biləsən ...

**Xəlifə Əbubəkr**

Ədalət olmadıqca idarəçiliyin, ədəb olmadıqca ləyaqətin, səxavət olmadıqca zənginliyin faydası olmaz...

**Xəlifə Ömər**

Keçmişdən dərs alıb, xeyirxah işlər görməyə çalışın...

**Xəlifə Osman**

Bilik heç bir sərvətlə satın alınmaz. Buna görə cahil nə qədər zəngin olursa-olsun, ən kasıb alimlə belə müqayisəyə gəlməz.

**Xəlifə Əli**

S **Sizcə, Əməvi və Abbasi xəlifələri yuxarıda deyilənlərə əməl etsə idilər, onlara qarşı üsyanlar baş verərdimi?**

Dövlət dili ərəb dili idi. Pul vahidləri kimi, əsasən, qızıl **dinardan** və gümüş **dirhəmdən** istifadə olunurdu.

Əsas vergi olan **xərac** torpaqdan istifadə müqabilində alınırdı. İslamı qəbul etməyən 15 yaşından 60 yaşına qədərki kişilərdən **cizyə** alınır və bunun müqabilində onlar hərbi xidmətdən azad edilirdilər. Hər bir müsəlman daşınan əmlakın beşdə biri qədər **xüms** və daşınmayan əmlakın dəyərinin qırxda biri qədər **zəkat** ödəməli idi.

İlk xəlifələr dövründə toplanan bu vergilər yoxsulların ehtiyacı üçün xərclənsə də, sonralar xəlifə xəzinəsinə toplanırdı.

Bölgələrdə əmirlərin hakimiyyətlərinin güclənməsi və xalqın narazılığının artması nəticəsində IX yüzillikdə **Misir, Mərkəzi Asiya, Azərbaycan, İran** və **Əfqanıstan** Bağdad xilafətindən ayrıldı.

Xilafətin dağılmasında Azərbaycanda yayılan Xürrəmilər hərəkatının da böyük rolu olmuşdur.

A **Xilafətin parçalanmasının səbəblərini araşdırın.**

LAYİHƏ



# QƏRBİ AVROPA

Hlodviq, Frank krallığı, Karl Martel, Böyük Karl, Verden müqaviləsi, Vikinq yürüşləri, feodalizm

Qərbi Roma imperiyasının süqutu Avropa tarixində Orta əsrlər dövrünün başlanğıcını qoydu. Təxminən V yüzillikdən başlayaraq yeni bir cəmiyyət yarandı. Bu cəmiyyətin əsasında Romanın klassik irsi, xristian kilsəsinin inancları və müxtəlif german tayfalarının adət-ənənələri dayanırdı.

IV yüzilliyin ikinci yarısında hunlar tərəfindən sıxışdırılan german tayfaları Roma imperiyasının torpaqlarına daxl oldu. Xalqların böyük köçünün başlanması Roma imperiyasının tənəzzülünü sürətləndirdi.


Germanlar döyüşdə


German döyüşçüləri

V yüzillikdə german tayfası olan **ostqotlar** İtaliyanı, **vestqotlar** İspaniya və İtaliyanı işğal etdilər. Qərbi Roma imperiyası ərazisində alman krallarının idarə etdiyi bir sıra dövlətlər yarandı.

Bu krallıqların sərhədləri müharibələr nəticəsində daim dəyişirdi. Avropada gedən işğallar və aramsız müharibələr iqtisadiyyatda, idarəetmədə və mədəniyyətdə bir sıra dəyişikliklərə səbəb oldu. Ticarət əlaqələrinin pozulması şəhərlərin iqtisadi mərkəzlər kimi əhəmiyyətini itirməsinə səbəb oldu.

Romaya hücum edən alman işğalçıları oxumağı və yazmağı bilmirdilər. Təhsil və mədəniyyətin digər sahələri tənəzzül etdi. Almandilli xalqlar Roma əhalisi ilə qarışdıqca latın dili dəyişdi. Hələ də rəsmi dil olmasına baxmayaraq, artıq əhalinin əksəriyyəti tərəfindən başa düşülmürdü. Yeni sözlər və ifadələr gündəlik danışığın bir hissəsinə çevrildikcə müxtəlif dialektlər inkişaf edirdi.

IX əsrə qədər latın dili əsasında fransız, ispan və digər dillər yaranmağa başladı.

LAYİHƏ




**T** Xəritə əsasında Qərbi Avropada siyasi vəziyyəti təhlil edin.

**T** İşğallar və daimi müharibələrin nəticəsində Avropada baş verən dəyişiklikləri cədvəl şəklində təsnif edin.

# Alman cəmiyyəti


Germanlar Roma sərhədində

Sərhədlərin dəyişməsi ilə birlikdə idarəetmə qaydaları da dəyişdi. Dövlət hakimiyyətinə və yazılı qanunlara sadiqlik Roma cəmiyyətinə xas idi. Ailə bağları və şəxsi sədaqət isə german cəmiyyətinin xüsusiyyətləri idi.

Romalılardan fərqli olaraq, german xalqları yazılmamış qayda və ənənələrlə idarə olunan kiçik icmalarda yaşayırdı. Zaman keçdikcə germanlar və romalılar arasında əlaqələrin dərinləşməsi nəticəsində yeni bir cəmiyyət yaranmağa başladı. German tayfalarının bəzi adətləri bu cəmiyyətdə mühüm rola malik oldu. Roma sistemində adam öldürmək cəmiyyətə və ya dövlətə qarşı cinayət hesab edildi.

LAYİHƏ



Germanlar Roma şəhərində

Məhkəmə dəlillər əsasında qərar qəbul edirdi. Alman hüququ isə şəxsi xarakter daşıyır, qan davası və qisasa əsaslanırdı. Tədricən qan tökülməsinin qarşısını almaq üçün cərimeyə əsaslanan yeni sistem yarandı. Günahkar yaraladığı və ya öldürdüyü şəxsin ailəsinə müəyyən məbləğ ödəməli idi. Bu ödəniş sosial statusa görə dəyişirdi. Zadəganların bir üzvünə qarşı edilən cinayət adi bir insana və ya qullara qarşı edilən cinayətdən xeyli baha başa gəlirdi.

# Frank krallığı

German tayfalarının yaratdığı dövlətlərdən biri indiki Fransa və Almaniyanın qərbini əhatə edən **Frank krallığı** idi. Frank krallığı V yüzilliyin sonunda tayfa başçısı **Hlodviq** tərəfindən quruldu. Hlodviq hakimiyyətini möhkəmləndirmək məqsədilə xristianlığı qəbul etdi.



Hlodviq

**S** **Hakimiyyəti möhkəmləndirmək məqsədilə dini amildən istifadəni necə dəyərləndirirsiniz?**

Vilayətləri kralın nümayəndələri olan **qraflar** idarə edirdilər.

Hlodviqin varislərinin dövründə kral hakimiyyəti tədricən zəiflədi. VIII yüzilliyin birinci yarısında kral sarayının baş məmuru olan **Karl Martel** orduya rəhbərliklə yanaşı, həm də dövləti kralın adından idarə edirdi. O, 732-ci ildə **Puatye döyüşündə** ərəb qoşunlarını məğlub etdi. Ərəblərin Avropada irəliləməsinin qarşısı alındı. Karl Martel müşahidə etmişdi ki, müsəlman süvariləri döyüşlərin gedişatını dəyişdirir. Nəticədə o, zirehli atlılardan və ya cəngavərlərdən ibarət Frank qoşunlarını təşkil etdi. Bu döyüş avropa xristianları üçün çox əhəmiyyətli idi. Ərəblər qalib gəlsə idi, Qərbi Avropa müsəlman imperiyasının bir hissəsi ola bilərdi.



Puatye döyüşü

LAYİHƏ



Böyük Karlın imperator elan edilməsi

## Böyük Karl imperator olur

Frank krallığının ən məşhur hökmdarı **Böyük Karl (768–814)** olmuşdur. Onun hakimiyyəti dövründə Frank krallığının ərazisi xeyli genişləndi. Bu ərazi Qərbi və Mərkəzi Avropanın çox hissəsini əhatə edirdi. Böyük Karl İspaniyada ərəblərlə müharibə apardı, işğal etdiyi ərazilərdə xristianlığı yaydı. Roma imperiyasından sonra ilk dəfə Qərbi Avropanı yenidən birləşdirdi.

**800-cü ildə** Böyük Karl Roma papası tərəfindən imperator elan edildi.



Böyük Karlın qızıldan büstü

Böyük Karlın tacqoyma mərasimi Roma, xristian və alman aləminin bir araya gəlməsini simvolizə edirdi. Artıq Avropada yeni sivilizasiya yaranmışdı.

S Böyük Karlın dövründə Şərqdə, o cümlədən Azərbaycanda siyasi vəziyyət necə idi?

## Verden müqaviləsi

Frank imperiyası Böyük Karlın ölümündən qısa müddət sonra parçalanmağa başladı. 843-cü ildə **Verden müqaviləsi** ilə imperiya Böyük Karlın nəvələri arasında üç böyük hissəyə bölündü. Beləliklə, sonralar **Fransa, Almaniya** və **İtaliya** adlanan dövlətlər yarandı. Nəticədə mərkəzi hakimiyyət zəiflədi. Güclü hökmdarların olmaması yeni idarəçiliyin yaranmasına və feodal dağınıqlığına gətirib çıxardı.

LAYİHƏ








Vikinqlərin yürüşü

# Vikinq yürüşləri

IX–XI yüzilliklərdə Avropada ən genişmiqyaslı hücumlar Skandinaviyadan olan **Vikinqlər** tərəfindən həyata keçirilirdi. Vikinqlərin gəmiləri dövrün ən yaxşısı idi. Vikinqlər qənimətlər və yeni ticarət yolları axtarmaq məqsədilə yürüşlər edirdilər. Vahid dövlətin olmaması müdafiəni çətinləşdirdi. Kəndlər və şəhərlər talan edilir, kilsələr dağıdılırdı. Vikinqlər təxminən 1000-ci ildə hətta Şimali Amerikaya gedib çıxmışdılar.

Bu dövrdə Avropanın iqlimində baş verən istiləşmə Skandinaviyada əkinçiliyi asanlaşdırdı. Nəticədə vikinqlər tədricən daha çox əkinçiliklə məşğul olmağa başladılar. Bu isə uzaq ərazilərə qarətçi yürüşlərin dayanmasına səbəb oldu.

S **Vikinqlərin Avropanı işğal etməsinə hansı amillər şərait yaratdı?**

LAYİHƏ



Feodalizm cəmiyyəti

**Şəkillər əsasında Orta əsrlərdə Avropada mövcud sosial təbəqələr və onların həyat tərzini şərh edin.**

# Yeni sosial nizam: Feodalizm

Kral hərbi və digər xidmətlər müqabilində yaxın adamlarına **feod** adlanan torpaqlar verirdi. Bu torpaqların sahibi isə **feodal** adlanırdı. Beləliklə, tədricən feodal münasibətləri yarandı.

Feodal quruluşu hüquq və öhdəliklərə əsaslanırdı. Feodalizm torpağa əsaslanan sosial-iqtisadi və siyasi sistem idi. Avropada əhalinin böyük əksəriyyəti **təhkimli kəndlilər** idi. Onlar yaşadıqları ərazini tərk edə bilməzdilər. Torpağa bağlı olsalar da, qul deyildilər. Onların ağaları onları sata və ya ala bilməzdi.

Malikanə sistemi əsas iqtisadi quruluş olub, feodal və kəndlilər arasında bir sıra hüquq və öhdəliklərə əsaslanırdı. Ağa kəndliləri mənzil, əkin sahələri ilə təmin etməli idi. Bunun müqabilində kəndlilər ağanın torpaqlarını əkib-becərir, heyvanlarını otarır və başqa işləri görürdülər. Qadınlar ərləri ilə birlikdə təsərrüfat işlərində iştirak edirdilər.

Malikanə, əsasən, özünü təmin edən bir icma idi. Kəndlilər özlərinin və ağalarının gündəlik həyatı üçün lazım olan hər şeyi istehsal edirdilər. Yalnız kənardan duz, dəmir və s. əşyalar alınırdı.

Ağaya ödənən vergilərdən əlavə, kəndlilər gəlirlərinin onda birini kilsəyə verməli idilər. Kəndlilər bir və ya iki otaqlı komalarda yaşayırdılar. Onların yeməyi, əsasən, tərəvəz, arpa çörəyi, taxıl, pendir və şorbadan ibarət idi. Uşaqlar erkən yaşlardan tarlada və ya evdə işləməyə başlayırdılar. Bir çox uşaqlar yetkinliyə qədər sağ qalmırdı. Xəstəlik və qida çatışmazlığı orta əsr kəndliləri üçün daimi bəlalar idi. Orta ömür uzunluğu təxminən 35 il idi.

Yaşadıqları çətinliklərə baxmayaraq, kəndlilər orta əsrlərdəki əksər xristianlar kimi, insanın cəmiyyətdəki yerinin Tanrı tərəfindən müəyyən edildiyinə inanırdılar.

Orta əsrlərdə davamlı olaraq bir-biri ilə vuruşan zadəganların ədavəti Avropanı əsrlər boyu parçalanmış vəziyyətdə saxladı.

Feodallar müharibə yolu ilə öz mülklərini müdafiə etdilər, yeni ərazilər ələ keçirdilər və sərvətlərini artırdılar.

LAYİHƏ



# BİZANS

Şərqi Roma, "Qızıl körpü", Yustinian, "Yustinian məcəlləsi"

Bizans imperiyası (Şərqi Roma) Qədim Roma imperiyasının parçalanması nəticəsində yaranmışdı. Xalqların böyük köçü nəticəsində Bizans dövləti ərazisinin çox hissəsini itirsə də, varlığını qoruyub saxlaya bildi. İmperiyanın ərazisi ilk dövrlərdə üç qitədə yerləşirdi. Əhalisinin çox hissəsini yunanlar təşkil etdiyindən yunan dili dövlət dilinə çevrilmişdi.


Konstantinopol meydanında

## Qızıl körpü

Ölkənin əlverişli coğrafi mövqedə yerləşməsi ticarətin inkişafını şərtləndirirdi. Şərqdən Qərbə, Afrikadan Avropaya gedən ticarət yolları Bizans ərazisindən keçirdi. Ölkənin paytaxtı Konstantinopol bu ticarət yollarının, eləcə də Aralıq dənizindən Qara dənizə keçən yolların kəsişməsində yerləşirdi. Çindən Avropaya gedən Böyük İpək yolu da Bizans ərazisindən keçirdi. Bizans qızıl pulu bir çox Afrika, Avropa və Asiya ölkələrində istifadə olunurdu. Ticarətin inkişafı ölkədə sənətkarlığın inkişafına şərait yaradırdı.



### Konstantinopol haqqında

*XII yüzillikdə yaşamış səyyahın gündəliyindən:*

"

Deyirlər, bazarın və dükanların icarəyə verilməsindən, quru və dəniz yolu ilə şəhərə gələn tacirlərdən alınan vergilərdən əldə edilən təkcə bu şəhərin gəliri gündəlik 20 000 qızıl pula çatır. Bu ölkənin sakinləri olan yunanlar qızıl və mirvari ilə çox zəngindirlər. Onlar knyaz övladları kimi qızılla işlənmiş bahalı ipək parçalarda at belində gəzirdilər.

**S** **Dərslikdə verilən hansı məlumatları bu mənbə əsasında təsdiq etmək olar?**

LAYİHƏ


Konstantinopol

Erkən orta əsrlərdə Bizans özünün zərgərlik məmulatları, silah, şüşə, ipək və müxtəlif ağac, sümük işləmə məmulatları ilə şöhrət qazanmışdı. Ticarətin və sənətkarlığın inkişafı şəhərlərin çiçəklənməsinə səbəb olurdu. Bizans ərazisində 1000-dən çox şəhər var idi. Ona görə də ona "şəhərlər ölkəsi" deyirdilər. Ən böyük şəhəri Konstantinopol idi. Bu şəhəri "Qızıl körpü" adlandırırdılar. İqtisadi cəhətdən ölkənin ən güclü ərazisi barbar tayfaların hücumlarına məruz qalmayan Şərq əyalətləri idi.

**S** **Konstantinopolun "Qızıl körpü" adlandırılması səbəbini necə izah edərdiniz?**


İmperator Yustinian və həyat yoldaşı Feodosiya

# Bizansın "qızıl əsri"

Dövlətin başçısı olan imperator, eyni zamanda, kilsə başçısı idi. O bütün xristian dünyasının yeganə qanuni hakimi iddiası ilə çıxış edirdi. İmperator qeyri-məhdud hakimiyyətə malik idi. Xarici dövlətlərlə əlaqələr quran imperator qanunlar verir, ali hakim rolunu oynayır və orduya rəhbərlik edirdi. Bacarıqlı diplomat olan Bizans imperatorları barbar tayfalarından olan qotları Qərbə axın etməyə yönəldə bildilər. Ölkə ərazisində məskunlaşan qotlar, slavyanlar və digərlər tayfalar isə müttəfiq mövqeyindən çıxış edərək dövlətin siyasi quruluşuna təsir etmədilər.

Bizansın ən təhlükəli rəqibi Şərqdə Sasani dövləti idi. İmperator Yustinianın (527–565) dövründə Sasani dövləti ilə aramsız müharibəyə 532-ci ildə imzalanmış sülh müqaviləsi ilə son qoyuldu.

Şərqi Roma imperiyası qüdrətli çağlarını imperator Yustinianın

LAYİHƏ

dövründə yaşadı. Onun dövründə inşa olunmuş Müqəddəs Sofiya məbədi Bizans imperiyasının "qızıl əsri"nin rəmzi hesab olunur. Onun dövründə qəbul edilən "Yustinian məcəlləsi" isə əsrlərlə Avropada Roma hüququnun əsas mənbəyi olaraq qaldı. Burada qanuna görə sosial və etnik mənşəyindən asılı olmayaraq, bütün xristian təbəələri bərabərhüquqlu idi. Hər kəsin ali məhkəmə orqanlarına müraciət etmək hüququ, torpaq üzərində xüsusi mülkiyyət hüququ var idi. Qanunda imperatorun qeyri-məhdud hakimiyyəti, dövlət və kilsənin möhkəm ittifaqı və s. məsələlər də öz əksini tapmışdı.



## İmperatorun ilahiləşdirilməsi

İmperatorun ilahiləşdirilməsi rəsmi mərasimlərdən tutmuş gündəlik həyata kimi bütün məsələlərdə öz əksini tapırdı. Onların hakimiyyəti və var-dövləti rənglərdə də simvolizə edilirdi. Qızılı və purpur rəngləri imperator ailəsinə məxsus idi. Hətta imperatorun istifadə etdiyi mürəkkəb belə purpur rəngində idi. İmperator sarayının işlənməsi zamanı qırmızı rəngdə olan nadir porfir daşından istifadə olunurdu. İmperator uşaqları sarayın porfir otaqlarında dünyaya gəldiyindən onları "porfirogenet" adlandırırdılar.



Konstantinopol küçələrindən biri

Yustinianın əsas məqsədi Qədim Roma imperiyasının sərhədlərini bərpa etmək idi. İmperator işğalçılıq siyasətinə Şimali Afrikadakı Vandal krallığının tutulması ilə başladı. Daha sonra İtaliyadakı Ostqot krallığı və İspaniyanın cənub-şərq ərazilərini ələ keçirdi.

Yustinianın hakimiyyətinin sonunadək imperiyanın ərazisi iki dəfə artdı. Lakin onun işğal edilmiş ərazilərdəki hakimiyyəti möhkəm deyildi. Quldarlığın, eləcə də Qədim Roma vergi sisteminin bərpası ölkədə böyük narazılıqlar doğururdu.

Balkan yarımadasından slavyan və türk tayfalarının yürüşləri Yustinianı onlara bəzi əraziləri məskunlaşmaları üçün güzəştə getməyə vadar etdi. VI əsrin ortalarından etibarən slavyanların imperiya ərazisində məskunlaşması Bizansda quldarlıq qaydalarının feodalizm ilə əvəz olunmasını sürətləndirdi.

**S** **Bizansın "qızıl əsri"-ni necə qiymətləndirmək olar?**



Bizans qızıl pulu



Bizans döyüşçüsü

LAYİHƏ





Bizans döyüşçüsü

**T** **Xəritə əsasında XI əsrə qədər Bizansın hansı torpaqları itirməsini müəyyənləşdirin.**

# İmperiyanın tənəzzülü

Yustinianın ölümündən sonra hakimiyyətə gələn varisləri boşalmış xəzinə, müflisləşmiş əhali, sarsıdılmış ordu ilə bir neçə düşmənin əhatəsində aciz qalmışdı. Nəticədə Qərbdə ələ keçirilən torpaqların, demək olar ki, hamısı itirildi. VII yüzillikdə ərəblərin hücumları nəticəsində Bizansın Afrikada və Asiyadakı ən varlı əyalətlərinin çoxu əlindən çıxdı. Konstantinopol şəhəri bir neçə dəfə ərəb orduları tərəfindən mühasirəyə alındı.

Zəifləyən dövlətin əlində Kiçik Asiya, Balkan yarımadasının cənubu və İtaliyada bəzi əyalətlər qaldı. X yüzilliyin ortalarında Abbasi xilafətinin dağılması və Bulqar dövlətinin zəifləməsi nəticəsində imperiyanın vəziyyəti bir qədər yaxşılaşdı. Yuxarı Mesopotamiya, Suriyanın bəzi əyalətləri, Krit və Kipr yenidən imperiyanın ərazisinə qatıldı.

XI yüzilliyin ortalarında Bizansı feodal ara müharibələri bürüdü. Belə şəraitdə Səlcuq türkləri 1071-ci ildə Malazgird döyüşündə Bizansı məğlub edərək imperiyanın Kiçik Asiyadakı mülklərini ələ keçirdilər.


Bizans-ərəb döyüşü

LAYİHƏ



10

# MƏDƏNİYYƏT

Orxon-Yenisey abidələri, Bilik evi, İbn Sina, "Paytaxt xəbərləri", Bizans memarlığı

## Təhsil və elm

Türk xalqlarının böyük əksəriyyətinin mədəniyyət tarixi, əsasən, iki dövrə bölünür:



**İslamaqədərki dövr**



**İslam dövrü**

Türk xalqlarının islamaqədərki mədəniyyətində yazının özünəməxsus yeri vardır. Qədim türk əlifbası 34 samit və 4 sait olmaqla 38 hərfdən ibarət idi. Kitabələrdəki mətnlər sağdan sola və yuxarıdan aşağıya yazılırdı. Orxon-Yenisey abidələri türk xalqlarına məxsus mühüm yazılı mənbələrdir. V-VIII yüzilliklərə aid abidələr türk xalqlarının yüksək mədəni nümunələr yaratdığını sübut edir. Bunların ən əhəmiyyətlisi Göytürk yazılarıdır. Avropaya bu yazılar barədə ilk məlumatı Sibirdə əsirlik həyatı yaşamış isveç zabiti Filipp Stralenberq vermişdir.



Filipp Stralenberq



Üzərində Göytürk yazısı olan abidə

LAYİHƏ



Türk yazılarının oxunmasında danimarkalı alim Tomsen və rus alimi Radlovun böyük xidmətləri olmuşdur. Qədim türk xaqanlığının tarixini öyrənmək baxımından bu gün də hər hansı bir türk xalqı, türk milləti üçün əhəmiyyətli olan bu abidələr yüksək kamillik zirvəsinə yetmiş türk mədəniyyətinin, dövlətçilik tarixinin və türk hərb sənətinin qan yaddaşıdır.




İslamaqədərki dövrdə türk xalqları Göy Tanrı dininə inanırdı. Orxon-Yenisey abidələrində də türkün tanrı övladı olması inamı və türklərin tanrı himayəsində yaşaması etiqadı öz əksini tapmışdır.

**S** **Orxon-Yenisey abidələrinin türk xalqlarının tarixinin öyrənilməsi baxımından nə kimi əhəmiyyəti vardır?**

Türklərin özünəməxsus təqvimləri olmuşdur. Əvvəllər vaxtı yalnız otların rəngi ilə müəyyən edən türklər sonralar "Heyvan təqvimi"ni qəbul etdilər. Bu təqvimə görə, hər il ayrı-ayrı heyvan adını (it, qoyun, ilan və s.) daşıyır və bu, on iki ildən bir təkrar olunurdu. Türklər həm də "canlı xronologiya"dan istifadə edirdilər.

Orta əsrlərdə türk xalqlarının mədəniyyətinin inkişafı İslam dini və ərəb dilinin yayılması ilə sıx bağlı idi. İslamın yayıldığı ərazilərdə ərəb dili elmi və ədəbi dilə çevrilmişdi. Dövlət işləri ərəb dilində aparılır, məktəblərdə ərəb dili tədris olunur, dini ibadətlər bu dildə yerinə yetirilirdi. Qədim Avropa və Şərq xalqlarının mədəniyyəti öyrənilir, müxtəlif dillərdə olan elmi və ədəbi əsərlər ərəb dilinə tərcümə edilirdi. Antik dövrdə yazılmış əsərlər tərcümə olunaraq geniş yayılırdı.

**S** **İslam dininin təhsilin inkişafındakı rolu nədən ibarət olmuşdur?**




LAYİHƏ


Bilik evi

Bağdadda yaradılmış "Bilik evi"ndə çoxlu əlyazmalar saxlanılırdı. O dövrün məşhur elm mərkəzlərindən biri də Kordova xilafətində fəaliyyət göstərirdi.

Buradakı təhsil ocaqlarında müsəlmanlarla yanaşı, müxtəlif Avropa ölkələrindən gəlmiş gənclər də təhsil alırdı.

**S** **Antik dövr mədəniyyətinə maraq göstərilməsi nədən irəli gəlirdi?**

Geniş ərazili xilafətdə təsərrüfatın inkişafı, böyük şəhərlərin olması və İslam dininin yayılması mədəniyyətin inkişafına təkan verdi.

Məktəb və mədrəsələrdə dini dərslər verilməklə yanaşı, dünyəvi elmlər də tədris olunurdu. Əl yazısı ilə meydana gələn kitablar mədrəsələrin zəngin kitabxanalarını bəzəyirdi. Sonralar isə Avropada mədrəsələrin nümunəsində ali məktəblər yaradılacaqdı.

Təhsilin inkişafı nəticəsində elmi biliklər sürətlə yayılırdı. Xilafətdə elmi biliklərin bir çox sahələri inkişaf edirdi. Sənətkarlıq və ticarətin inkişafı da buna təsir göstərirdi. Hind rəqəmlərindən istifadə edən ərəblər cəbr elminin əsasını qoydular.

Mədəniyyət və ticarət mərkəzləri olan iri şəhərlərdə məşhur alimlər yaşayırdı. Elmi fəaliyyətləri ilə bütün dünyada şöhrət qazanmış türk-müsəlman alimlərindən Fərabi, Əbu Reyhan əl-Biruni və Avropada Avisenna kimi tanınan İbn Sinanın adını çəkmək olar. Ərəb xilafətində astronomiya, coğrafiya, tarix, məntiq, fəlsəfə, cəbr və tibb elmləri inkişaf edirdi.Tarix elminin inkişafında Bəlazuri və Təbərinin xüsusi xidmətləri olmuşdur.

Ərəb ədəbiyyatının "qızıl dövrü" Abbasilər xilafətinin hakimiyyəti dövrünə təsadüf edir. Ərəbdilli ədəbiyyatın inkişafında xilafətə daxil olan bütün xalqların nümayəndələri iştirak edirdilər.

**A** **Türk-islam dünyasında elmi tərəqqinin səbəblərini araşdırın.**


Biruni


Fərabi


İbn Sina

LAYİHƏ

Erkən orta əsrlərdə mədəniyyətin inkişafında Çinin özünəməxsus yeri olmuşdur. Burada ixtira olunmuş kağız istehsalı ərəblərin vasitəsilə Avropaya yayılmışdı. VIII yüzillikdə Pekində "Paytaxt xəbərləri" adlı gündəlik qəzet nəşr olunurdu. Qəzeti taxta lövhələrdə kəsmə üsulu ilə yazılmış mətnlər vasitəsilə çoxaldırdılar. Çində "Alimlər palatası"nın yaradılması burada elmi biliklərin yüksək inkişafından xəbər verirdi. Bu palata sonralar Xan akademiyasına çevrildi.

Hind riyaziyyatçıları kəsrlərlə əməliyyatlar aparmağı, ədədin faizini almağı, fiqurun sahəsini və cismin həcmini hesablamağı bacarırdılar.

Astronomiya sahəsində hindli alimlər yüksək nailiyyətlər əldə etmişdilər. Böyük şəhərlərin hamısında rəsədxanalar fəaliyyət göstərirdi. Hind həkimləri xəstəliyi bədənin hərarətinə, nəbzin vurmasına, dəri və ya dilin rənginə görə müəyyən edirdilər. Xəstəliklərin müalicəsində müxtəlif maye dərmanlardan və məlhəmlərdən istifadə edilir, həkimlər mürəkkəb cərrahi əməliyyatlar aparırdılar.

Qərbi Avropa ölkələrindən fərqli olaraq erkən orta əsrlərdə Bizans mədəniyyəti inkişafda idi. Bizans mədəniyyəti, əsasən, qədim Roma və ellin ənənələrindən bəhrələnmişdi. Bizans şəhərləri yalnız sənətkarlıq və ticarət mərkəzləri deyil, həmçinin mədəniyyət ocaqları idi. Buradakı savadlı adamların sayı Qərbi Avropada olduğundan daha çox idi.



Çində kağız istehsalı



Hindistanda rəsədxana



Hind həkiminin xəstəni müalicə etməsi

LAYİHƏ

IX yüzillikdə Konstantinopolda məşhur alim Lev Matematikin dərs dediyi ali məktəb bütün Avropada məşhur idi. Bu alim imperator sarayında su mühərriki ilə işləyən lift düzəltmişdi. 1045-ci ildə Konstantinopolda universitet açıldı. Burada hüquq və fəlsəfə fakültələri fəaliyyət göstərirdi.

VII yüzillikdə ixtira edilən "Yunan alovu" Bizans ordusunun qüdrətini xeyli artırmışdı.


Yunan alovu


Kilsə məktəbi


Alkuin Böyük Karlın qəbulunda

**T** **Bizans və İslam mədəniyyətlərini müqayisə edin.**

Antik dünyadan orta əsrlərə keçid dövründə Qərbi Avropada mədəniyyət tənəzzül etdi. Savadlı adamlar, əsasən, din xadimləri idilər. Kilsə məktəblərində dərs latın dilində keçirilirdi. Bu dildə isə o zaman heç bir xalq danışmırdı.

Frank imperatoru Böyük Karl təhsilə, elmə və mədəniyyətə böyük diqqət göstərir, məktəblər açdırır, müxtəlif ölkələrdən saraya savadlı adamlar dəvət edir, paytaxt Aahendə daşdan saraylar və kilsələr tikdirir, kilsə və monastırlarda müqəddəs kitabların üzünü köçürtdürürdü. Mətnlər çox zaman quş lələyi ilə perqament üzərində yazılırdı. Böyük Karl Aahen şəhərində ədəbi dərnək – "Saray akademiyası" yaratmışdı. Onun tədbirləri nəticəsində mədəniyyətdə yüksəliş baş verdi. Frank imperiyasının tənəzzülünə qədər davam etmiş bu dövrü "Karolinq oyanışı" adlandırırlar.


Böyük Karl

**A** **Orta əsrlərdə Avropada, əsasən, din xadimlərinin savadlı olmasının səbəblərini araşdırın.**

## Saray akademiyasının başçısı Alkuinin (IX əsr) Qrammatika dərsliyindən

Hərf nədir? – Tarixin keşikçisidir.

Söz nədir? – Ruhun dönüklüyüdür.

İnsan nəyə bənzəyir? – Kürəyə.

Sözü nə yaradır? – Dil.

Dil nədir? – Havadan gələn bəladır.

Hava nədir? – Həyatı qoruyandır.

Həyat nədir? – Xoşbəxtlər üçün bir sevinc, bədbəxtlər üçün kədərdir – ölümü gözləməkdir.

LAYİHƏ

# Memarlıq və incəsənət


Ulu məscid

Xilafət dövründə memarlıq çox inkişaf etmişdi. Yeni şəhərlər salınır, əsil sənət əsəri olan memarlıq abidələri inşa olunurdu. Tikililər içərisində əsas yeri məscidlər tuturdu. Samirə şəhərindəki Ulu məscid dövrün gözəl memarlıq nümunəsi idi.

Kitabların üzünün köçürülməsi nəticəsində xəttatlıq sənəti inkişaf etməkdə idi. Xilafət dövründə vahid İslam mədəniyyətinin formalaşması nəticəsində müsəlman ölkələri dünyanın ən qabaqcıl ölkələri hesab olunurdu.

**A** **İslam dininin yayıldığı ölkələrdə memarlığın yüksək inkişafının səbəblərini araşdırın.**

Orta əsrlər memarlığının inkişafında Bizansın özünəməxsus yeri vardır. İmperator Yustinianın əmri ilə Konstantinopolda tikilmiş Müqəddəs Sofiya məbədi Bizans memarlığının möhtəşəm nümunəsidir. İmperator Yustinianın əmri ilə beş il ərzində inşa olunmuş Müqəddəs Sofiya məbədinin tikintisinə on min adam cəlb olunmuşdu. İmperator buranı baş məbədə çevirmək istəyirdi. Dördkünc əsas binanın üzərində nəhəng günbəz vardır. Məbədin iç divarları və sütunlarına müxtəlif rəngli mərmərdən üz çəkilmiş və mozaikalarla bəzədilmişdir. Onu "Möcüzələr möcüzəsi" adlandırırlar. Osmanlılar Konstantinopolu ələ keçirdikdən sonra məbədi məscidə çevirdilər.

Qərbi Avropa memarlığında Böyük Karl imperiyasının paytaxtı Aahen şəhərində inşa olunan Baş kilsə xüsusi yer tuturdu.

**T** **Elm və təhsilin inkişafının müasir dövlətçiliyin formalaşmasında nə kimi təsiri olduğunu dəyərləndirin.**


Müqəddəs Sofiya məbədi



Yerəbatan su anbarı Aya Sofiyanın cənub qərbində yerləşir. Bizans imperatoru Yustinianın hakimiyyəti dövründə tamamlanan su anbarı suyun içindən yüksələn mərmər sütunlara görə xalq arasında "Yerəbatan saray" adlandırılmışdır. Anbarın uzunluğu 140 metr, eni təxminən 70 metrdir. 52 pilləli daş bir nərdivanın endiyi bu anbarın içərisində hər biri 9 metr hündürlüyündə 336 sütun vardır. Sütunlar bir-birinə 4,80 metr məsafədə inşa olunmuşdur. 12 sıranın hər birində 28 sütun yerləşir. Anbarın divarlarının qalınlığı 4 metrdən artıq olub üzü su keçirməyən materialla suvanmışdır. Ərazisi 9800 $m^2$ olan anbar 100 min tona yaxın su saxlama imkanına malik idi. Osmanlı dönəmində, demək olar ki, istifadəsiz qalan anbar hazırda muzeydir.

LAYİHƏ



# BÖYÜK SƏLCUQ DÖVLƏTİ

Qınıq boyu, Səlcuq bəy, Sultan Toğrul, Malazgird döyüşü, Məlikşah

Yaxın və Orta Şərq, eləcə də dünya tarixində böyük rol oynamış bu dövlət Oğuzların Qınıq boyundan olan Səlcuq bəyin şərəfinə belə adlandırılmışdır. Səlcuq bəyin atası Tokak (qədim türk dilində "dəmir yaylı" deməkdir) Oğuz dövlətində türklərdən ibarət qoşunun başçısı idi. Onun ölümündən sonra oğlu Səlcuq bəy bu vəzifəni daşımağa başladı. Oğuz yabqusu ilə münasibətləri pisləşən Səlcuq bəy cənuba doğru hərəkət edərək Cənd bölgəsinə yerləşdi. Daha sonra Sultan Mahmud Qəznəli səlcuqların Xorasanda məskunlaşmalarına icazə verdi.


Tokak bəy


Səlcuq bəy



"Bir dəfə Oğuz yabqusu müsəlmanlara qarşı yürüş təşkil edərkən Tokak onu bu hərəkətdən çəkindirmək istədi. Mübahisə zamanı yabqu Tokakı qılıncla yaraladı, Tokak isə onu toppuzla vurub atdan saldı. Bu hadisə yabqunu müsəlmanlar üzərinə hücumdan çəkindirdi. Kaftar kimi öz yuvasına çəkilən yabqu etdiyi hərəkətdən utanaraq Tokakdan üzr istədi.

Tokakın oğlu Səlcuq yetkinlik yaşına çatdıqda yabqu türklərə başçılığı ona tapşırdı. Yabqunun arvadı tez-tez öz ərinə Tokakoğlu Səlcuqdan çəkinməyi, ona möhkəmlənməyi qadağan etməyi təlqin edirdi. Bu fikrini Səlcuqdan da gizlətməyən qadın onun yanında yenə ərinə dedi: "Mülk elə anamdır ki, onu bölmək olmaz. Səlcuğu məhv etməsən, hakimiyyət bulağın təmizlənməyəcək".

Bunu eşidən Səlcuq 935-ci ilin mayında öz atını yəhərlədi və ordusu ilə İslam ölkəsinə gəldi. 962-ci ildə Səlcuq bəy Cənd vilayətinə yerləşdi. Bir gecə o, yuxusunda gördü ki, tonqalından qopan qığılcımlar həm Şərqə, həm də Qərbə doğru uçur. O, səhərisi günü münəccimlərdən bu yuxusunu yozmağı xahiş etdi. Münəccim dedi: "Sənin nəslindən olanlar çox uzaq ölkələrə hökmran olacaqlar".

*Sədrəddin əl-Hüseyni. "Səlcuq əmirləri və hökmdarları haqqında"*

**S** **Mənbəyə əsasən Səlcuq türklərinin həyatında hansı amili dönüş nöqtəsi hesab etmək olar?**

LAYİHƏ



Dəndənəkan döyüşü

Sultan Mahmud Qəznəlinin ölümündən sonra Xorasanda yerləşdiyi bölgələrdə daha ədalətli idarə sistemi qurmuş Səlcuq bəyin nəvələri Toğrul bəy və Çağrı bəy ilə qəznəlilər arasındakı münasibətlər gərginləşdi.

"Nişapur əhalisini var-yoxdan çıxaran Qəznəvi subaşısı sultan xəzinəsinə çatacaq vergini ödəyə bilməməsinin günahını Səlcuqoğullarının boynuna qoydu. O, sultana yazdığı məktubda bildirirdi: "Bu səlcuqların qılıncları da dilləri kimi itidir. Onlar iti qılıncları ilə torpaqlar tutur... Səlcuqlular ürəkləri döyüşlərdə möhkəmlənmiş adamlardır. Onlar ölümə fikir vermir, təhlükədən qorxmurlar. Onların əllərindəki ox və nizələrin çoxluğundan onlara gedən yol çox daralmışdır. Səlcuqlar içərisində qəhrəmanlar vardır ki, ölümü elə salamlayırlar, sanki insan nəslindən deyillər".

*Sədrəddin əl-Hüseyni. "Səlcuq əmirləri və hökmdarları haqqında"*

**Mənbə əsasında Səlcuq türklərini xarakterizə edin.**



Sultan Toğrulun Bağdada daxil olması

Xorasandakı şəhərlərin əhalisi Səlcuqoğullarından onları da himayə etmələrini istədi. 1038-ci ilin yayında Nişapura daxil olan Səlcuqlu döyüşçüləri şəhəri qarət etmək istədikdə Toğrul bəy bunu onlara qadağan etdi.

23 may 1040-cı ildə Dəndənəkan yaxınlığında Səlcuqlular qəznəliləri ağır məğlubiyyətə uğratdılar. Xorasan bütünlükdə səlcuqluların hakimiyyəti altına düşdü.

Sultan Toğrul Bağdad xəlifəsinə göndərdiyi məktubda bildirirdi: "... biz Səlcuqoğulları daim qəzavat və cihad yolunun öndərlərindənik. Bizim ilk başçımız və öndərimiz olan əmimiz İsrail və bir çox digər qohumlarımız həbsdə qaldı... Sultan Mahmud öləndən sonra hakimiyyətə onun oğlu Məsud gəldi. O, dövlət işi ilə deyil, əyləncə və istirahətlə məşğul idi. Nəhayət, Xorasanın əyanları bizdən onları öz himayələrinə almalarını xahiş etdilər. Məsudun orduları bir neçə dəfə bizə hücumlar etdi... Sonda Uca Allahın və Peyğəmbərimizin mərhəməti sayəsində biz qalib gəldik... İndi xalq arasında ədalətli quruluş yaratmaqdayıq... Bizim hakimiyyətimizin qanuni olması üçün biz onun xəlifə tərəfindən təsdiqini istəyirik".

---

*Sədrəddin əl-Hüseyni. "Səlcuq əmirləri və hökmdarları haqqında"*

S **Sizcə, Sultan Toğrula hakimiyyətinin xəlifə tərəfindən təsdiq olunması nə üçün lazım idi?**

Səlcuqlar üçün Azərbaycan, İran və İraqa gedən yol açılmış oldu. Bu qələbədən sonra Mərvdə çağırılan böyük qurultayda sultan elan edilən Toğrul yaradılan dövlət üçün bütün məsuliyyətin Səlcuq nəslinin üzərinə düşdüyünü bildirdi.

T **Dəndənəkan döyüşünün Səlcuq dövlətinə siyasi təsirlərini izah edin.**



Səlcuq ordusunun sərkərdəsi

1043-cü ildə Səlcuq dövlətinin paytaxtı Rey şəhərinə köçürüldü. 1054-cü ildə Rəvvadiləri, Şəddadiləri və Tiflis müsəlman əmirliyini tabe edən səlcuqlar 1055-ci ildə Abbasilər xilafətinin paytaxtı Bağdada daxil oldular. Sultan I Toğrulun uğurları Bağdad xəlifəsi tərəfindən tanındı və xəlifə şəxsən onun belinə iki qılınc bağlayaraq onu "Şərqin və Qərbin hökmdarı" elan etdi.

Sultan I Toğruldan sonra hakimiyyətə gələn Alp Arslanın (1063–1072) əsas məqsədi Anadoluya yiyələnmək idi. O, əvvəlcə Qafqazın Bizansla müttəfiq olan xristian hakimlərini darmadağın edib Tiflis, Ani, Qars şəhərlərini ələ keçirdi.

1071-ci il avqustun 26-da Bizans imperatorunun orduları ilə Sultan Alp Arslanın qoşunları Malazgird yaxınlığında üz-üzə gəldi. Bizans imperatorunun ordusunda 300 min nəfərdən çox döyüşçü var idi. Onların içərisində müxtəlif ölkələrdən toplanmış muzdlularla yanaşı, xristian türklər də var idi.

Döyüşün gedişində Bizans tərəfindən vuruşan oğuzlar və peçeneqlər sultanın tərəfinə keçdilər. Bizans imperatoru yaralanaraq əsir düşdü. Bizans ordusunda olan ermənilər döyüş meydanından qaçdılar.



Sultan Alp Arslan

LAYİHƏ




Bu döyüşün nəticəsində Anadolunun böyük bir hissəsi Səlcuqların hakimiyyəti altına keçdi. Alp Arslan Bizans imperatoru ilə ədalətli davranaraq onunla müqavilə bağladı. Müqaviləyə görə Bizans hər il səlcuqlara xərac verməli və lazım olduqda hərbi yardım göstərməli idi .

Sultan Alp Arslanın oğlu Məlikşahın hakimiyyəti dövründə (1072–1092) Böyük Səlcuq dövləti özünün qüdrətli zirvəsinə çatdı.

**Malazgird döyüşünün Anadolunun türk torpağına çevrilməsindəki rolunu dəyərləndirin.**

Onun hakimiyyəti dövründə Konya və Ankara şəhərləri tutuldu, Suriya və Fələstin fəth edildi. Paytaxt Reydən İsfahana köçürüldü.



Sultan Məlikşah

Sultan Məlikşah Qara dənizin cənub-qərb sahilləri boyu irəliləyib Bizansdan ağır xərac aldı.

O öz qılıncını Qara dənizə atmış, bununla da bu ərazilərin daimi türklərin olacağını bildirmişdi. Məlikşah Qara dənizin sahillərindən götürdüyü bir ovuc qumu atası Alp Arslanın Mərvdəki məzarı üstünə səpərək demişdi : "Ata, müjdələr olsun! Oğlun dünyanın sonuna qədər hakim oldu".

*İbrahim Kafesoğlu. "Sultan Melikşah"*

**Məlikşahin atasının məzar yanında dediyi sözlərə münasibət bildirin.**

LAYİHƏ

**Sultan Məlikşahın dövründə dövlətin qüdrətinin daha da artmasının səbəblərini müəyyən edin.**

Sultan I Məlikşahın keçirdiyi hərbi islahat nəticəsində tayfa prinsipinə əsaslanan qeyri-nizami qoşunun əvəzinə, nizami ordu yaradıldı. Ticarəti canlandırmaq üçün vahid çəki, ölçü və pul sistemi tətbiq olundu, tacirlər bəzi rüsumlardan azad edildi. Səlcuq dövlətinin sərhədlərində yerləşən torpaqlar uc, onların sahibləri isə ucbəyi adlanırdılar.


Səlcuq ordusunun atlı döyüşçüləri

Sultan Məlikşahın ölümündən sonra hakimiyyət uğrunda başlayan saray çəkişmələri və uzunsürən ara müharibələri Böyük Səlcuq dövlətini zəiflətdi.

Bu dövlət artıq avropalıların qarətçi yürüşlərinin qarşısını ala bilmirdi. Birinci xaçlı yürüşü (1096–1099) sultanlığa xüsusilə böyük zərbə vurdu. Xaçlı orduları Suriyanın, Fələstinin dənizsahili ərazilərini və Qüdsü ələ keçirdilər.

Sonuncu Böyük Səlcuq sultanı Səncərin (1118–1157) hakimiyyəti dövründə dövlətin ərazi bütövlüyü pozularaq iki yerə parçalandı.


Səlcuq ordusu ilə xaçlılar arasında döyüş

LAYİHƏ




1157-ci ildə Böyük Səlcuq imperiyası süqut etdi. Onun ərazisində türk sülalələri tərəfindən idarə olunan Xarəzmşahlar, Anadolu, Kirman, Suriya, İraq Səlcuq sultanlıqları, Azərbaycan atabəyləri, Kiçik Asiyada isə bir sıra əmirliklər yarandı.


Sultan Səncər

**T** **Səlcuq dövlətinin zəifləmə səbəblərini müəyyən edib cədvəli tamamlayın.**

| Səlcuq dövlətinin zəifləmə səbəbləri | |
|---|---|
| **Daxili** | **Xarici** |
| | |

LAYİHƏ




# OSMANLI İMPERİYASI

Osman qazi, Sultan I Murad, Ankara döyüşü, Qayı boyu, Konstantinopolun fəthi

Çingiz xanın Türküstana yürüşləri zamanı buradakı oğuzlar Azərbaycandakı soydaşlarının yanına gəlmiş, daha sonra Anadolunun içərilərinə doğru yerləşməyə başlamışdılar. Belə Oğuz tayfalarından biri də Qayılar idi. Bu tayfaya Süleyman şah başçılıq edirdi.


Süleyman şah

Süleyman şahın oğlu Ərtoğrul Böyük Səlcuq sultanlığı süquta uğradıqdan sonra indiki Türkiyənin qərbində yaranmış Rum (Anadolu) sultanlığı ilə əlaqələr yaratdı.



Osman qazinin babası Süleyman şah 50 min türkmənlə əvvəlcə Ərzuruma, sonra Ərzincandan Rum vilayətinə gəldi. Anadolunun dağlarında və dərələrində çətinliklərlə qarşılaşan türkmənlər təkrar Türküstana qayıtmaq istədilər. Onlar gəldikləri yolla qayıtmadılar və Hələb vilayətinə çıxdılar. Caber qalasına çatıb, Fərat çayı sahillərinə endilər. Türkmənlər Süleyman şaha dedilər: "Xan, biz bu suyu necə keçəcəyik?"

... Süleyman şah Fəratı keçərkən suda boğuldu. Onu Caber qalasının yaxınlığında dəfn etdilər. Süleyman şahın qəbrinə indi də "Türk məzarı" deyilir.

*Aşıq Paşazadə. "Osmanoğullarının tarixi"*

**T** **Türkmən tayfalarının hərəkət istiqamətlərini xəritə üzərində izləyin, onların geniş bir ərazidə fəaliyyət göstərə bilmələrinin səbəblərini müəyyən edin.**


Ərtoğrul qazi

Süleyman şahın dörd oğlu qaldı: Sunqurtəkin, Gündoğdu, Ərtoğrul və Dündar. Gündoğdu ilə Sunqurtəkin öz köhnə yurdlarına yerləşdilər. Ərtoğrul ilə Dündar isə Pasin obasında və Sürməli vadisində yurd saldı.

Ərtoğrul böyük oğlu Savcı bəyi Rum ölkəsinin (Anadolu) sultanı Səlcuqlu soyundan olan Əlaəddin Keyqubadın hüzuruna göndərdi. Sultan Əlaəddin Ankara ətrafında Qaracadağı ayıraraq onlara yaylaq və qışlaq yerləri müəyyən etdi.

*Xoca Sədəddin Əfəndi. "Tücüt-Tevarih"*

**S** **Ərtoğrul bəyin Bizans hüdudlarında möhkəmlənə bilməsinin səbəbləri nə idi?**

LAYİHƏ

Söyüd vilayəti bunlara qışlamaq, Domaniç dağının ətəyi yaylaq yeri kimi verildi. Ərtoğrul bunu qəbul edərək yurdlarına yerləşdi. Yaylaqlarında yaylaqlanıb, qışlaqlarında qışladılar. Ərtoğrul qazinin gəlişi ilə bu yerlərin kafirləri də tatarlardan qorunaraq rahat yaşamağa başladılar.

Ərtoğrul vəfat etdikdən sonra onun yerinə oğlu Osman keçdi.

*Aşıq Paşazadə. "Osmanoğullarının tarixi"*

# Uc bəyliyindən sultanlığa doğru

Ərtoğrul qazinin vəfatından sonra qayılara onun oğlu Osman başçılıq etməyə başladı. Osman qazinin qonşu Bizans feodalları ilə dinc münasibətlər qurmaq istəməsinə baxmayaraq, bizanslılar qayılara qarşı birləşərək onları bu torpaqlardan çıxartmaq istəyirdilər. Bizans feodallarının bu istəyinin qarşısını almaq üçün Anadolu Səlcuq sultanı Osman qaziyə dəstək verirdi. Qaracahisar və digər Bizans valilərinin – təkfurların qalalarını bir-birinin ardınca fəth edən Osman Anadolu səlcuq sultanı tərəfindən mükafatlandırıldı.


Osman bəy

Sultan Əlaəddin kafirlərin (bizanslıların) çoxsaylı bir ordu ilə Osman qazinin üzərinə yürüdüklərini öyrəndi. O, "tez əsgər toplansın" əmrini verdi və "Bizdə İslam qeyrəti yoxdurmu ki, o kafirlər belə bir hərəkətdə buluna bilirlər?" – dedi.

Böyük bir ordu toplandı, hücum edib Qaracahisar üzərinə yürüdülər. İki gün savaş oldu. Ancaq sultana "Baymcar Tatar (Baycu noyon) gəldi, Əriklini aldı, yıxdı, xalqını qırdı və şəhəri odlara qaladı", - deyə yardım istəyənlər gəldi. (Tatarlar üzərinə getməyə məcbur olan) Sultan Əlaəddin Osmanı yanına çağıraraq qalanın fəthi üçün gətirdiyi silahların hamısını ona verdi. Sonra da "Oğul, Osman qazi! Səndə xoşbəxtlik əlamətləri çoxdur. Sənə və sənin varislərinə qarşı dura biləcək kimsə yoxdur. Mənim duam Allahın yardımı, vəlilərin hümməti, Peyğəmbərin möcüzələri ilə sənin yanındadır", – dedi.

*Aşıq Paşazadə. "Osmanoğullarının tarixi"*

**T** **Mənbə əsasında Osman qazinin dövlət yarada bilməsinin səbəblərini müəyyən edin.**


Qayı boyunun bayrağı

**S** **Sizcə, Osman bəylə Bizans feodallarının münasibətlərinin pisləşməsinin səbəbi nə idi?**

LAYİHƏ

Elxani Qazan xanın Anadolu səlcuqluları üzərinə yürüş etməsi nəticəsində sultanlıq daha da zəiflədi. 1302-ci ildə fəth etdiyi qalaların məscidlərindəki xütbələrdə Osman qazinin adının çəkilməsi artıq onun öz bəyliyini müstəqil şəkildə idarə etməsini göstərir.


Qaracahisar qalası


Qaracahisar uğrunda döyüş

Bir müddət Rum (Anadolu) torpaqlarının idarəsini monqol bəyləri ələ keçirdiklərindən bu diyarın irəli gələnlərinin bir çoxu Osman xanın qoruyucu qanadları altında bir sığınacaq tapdı. Onun buyruğuna girməyi və qapısında qulluğun gərəkdirdiyi işləri əskiksiz etməyi uyğun görmüşdülər. Osman qazinin Oğuz törəsinə (adətinə) görə xan olduğu ilin bu tarixdə göstərilməsi gərəkdir.

*Xoca Sadəddin Əfəndi. "Tücüt-Tevarih"*

**Monqol zülmünə məruz qalan türk elləri nə üçün Anadolu Səlcuq sultanlığına deyil, Osman bəyə sığınırdılar?**

Tanrının icazəsi ilə Karacahisarın qapıları açıldı (fəth olundu). Zəfərlərlə dolu xəbər Ələddinin otağına çatdığı zaman adı çəkilən padşah Osman qaziyə müxtəlif təriflərlə birlikdə bir sancaq (bayraq), boru (şeypur) və təbil, bəzəkli gümüş kəmər, xəncər və qılınc, yəhər-yüyənli at göndərmiş, Eskişəhər və İnönünü ona verdiyi sancağın (vilayətin) mərkəzi müəyyən etmişdi.

*Xoca Sadəddin Əfəndi. "Tücüt-Tevarih"*

**Sizcə, Anadolu Səlcuq sultanlığının Osman qazinin fəthlərini dəstəkləməsi nədən irəli gəlirdi?**

Osman qazinin (1302–1326) güclənməsi qonşu Bizans feodallarının ona qarşı birlik yaratmalarına səbəb oldu.

Bizans qüvvələrini məğlub edən Osman Bursanı mühasirəyə aldı. 12 illik mühasirədən sonra Bursa şəhəri fəth edildi. Orxan qazi şəhərin tutulması ərəfəsində vəfat edən atası Osmanı onun vəsiyyətinə əməl edərək Bursada dəfn etdirdi.

LAYİHƏ



Osman qazinin oğlu Orxana onu Bursada dəfn etməsini vəsiyyət etməsi

Orxan qazinin hakimiyyəti dövründə Qayıların mərkəzi Söyüddən Bursaya köçürüldü və dövlətin ərazisi xeyli genişləndirildi.

Get-gedə dəniz dövlətinə çevrilən Osmanlının ilk donanma mərkəzi İzmit şəhəri oldu.

Orxanın ən böyük nailiyyəti Bizansın Anadolu torpaqlarından qovulması oldu. Osmanlı dövlətinin sərhədləri Egey dənizindən Konstantinopola qədər genişləndi. 1354-cü ildə Balkanlara hücum üçün böyük əhəmiyyətə malik olan Gelibolu qalası ələ keçirildi.

Dövlət üçün gərəkli olan və səltənətin möhkəmlənməsi üçün alqışlanacaq qaydalar qoyulmasının zamanı gəldi.

Öncə Səlcuqlu sultanlarının adına kəsilən para mövzusu var idi.

Orxan xanın uca və kərəmli adı minbərdə göyləri süslədiyi kimi, dinar və altunları da eləcə parıldatmalıdır. İslam dünyasında gümüş və külçə altunlar etibar qazansın.

İkinci olaraq, əsgərlər üçün özəl geyim və paltarlar tikilsin.

Üçüncü olaraq, qalaları fəth etmək üçün aparılan savaşlarda piyada əsgərlər atlılardan daha əlverişlidir.

*Xoca Sədəddin Əfəndi. "Tücüt-Tevarih"*

**S** **Mənbədə verilmiş məlumatlar nəyi təsdiq edir?**



Gənc Orxanın Bursaya daxil olması



Orxandan sonra taxta çıxan oğlu I Murad sultan titulunu qəbul etdi və Ədirnəni tutaraq paytaxtı Bursadan ora köçürdü. Sultan I Murad bütün diqqətini Balkan yarımadasının fəthinə yönəltdi. Bölgənin ən güclü dövlətləri olan Bolqarıstan və Serbiya Osmanlıdan asılılığı qəbul etdi.

## “Qızıl körpü”yə doğru

Sultan I Muradın 1389-cu ildə Osmanlı taxtına çıxan oğlu I Bəyazid Avropanın xaçlı cəngavərlərinin birləşmiş ordularını 1396-cı ildə Niqbolu döyüşündə darmadağın etdi. I Bəyazid Konstantinopolun fəthi üçün ciddi hazırlıqlara başladı.

Lakin onun 1402-ci ildə Ankara döyüşündə Əmir Teymur tərəfindən məğlub edilməsi Konstantinopolun osmanlılar tərəfindən fəthini gecikdirdi.

**S** **Sizcə, Ankara döyüşü olmasa idi, osmanlılar Konstantinopolu fəth edə bilərdimi?**


Əmir Teymur və Sultan I Bəyazid Ankara döyüşündən sonra

LAYİHƏ



Konstantinopol uğrunda döyüş

# Türklərin "Qızıl körpü"yə sahib olması

XV yüzilliyin ortalarında əvvəlki gücünü bərpa edən osmanlılar "İkinci Roma" adlanan Konstantinopola hücumlarını davam etdirdilər. Sultan II Mehmet 1453-cü il mayın 29-da iki aylıq mühasirədən sonra Konstantinopolu fəth etdi.

Sultan II Mehmet bu qələbədən sonra "Fateh" ləqəbini qazandı. II Mehmet Müqəddəs Sofiya kilsəsinə daxil oldu və burada namazını qıldı.

Osmanlı dövləti dünyanın böyük dövlətlərindən birinə çevrildi. Avropa ilə Asiyanı birləşdirən və tarixdə "Qızıl körpü" adlandırılan Konstantinopolun adı dəyişdirilərək İstanbul oldu. İstanbul Osmanlı imperiyasının paytaxtı elan edildi.

Sultan II Mehmetin əmri ilə 1476-cı ildə "Qanunnamə" adlanan qanunlar toplusu yaradıldı. Bu topluda dövlət məmurlarının vəzifələri, torpaq mülkiyyəti formaları, məhkəmə quruculuğu, ayrı-ayrı dini icmaların hüquq və vəzifələri öz əksini tapmışdı.

II Mehmet tərəfindən aparılan daxili və xarici siyasət Osmanlı sultanlığının sonrakı hökmdarları üçün nümunə oldu.



Sultan Mehmet Fateh

**Sultan II Mehmetin fəaliyyəti ilə bağlı təqdimat hazırlayın.**

LAYİHƏ




# DEHLİ SULTANLIĞI

Qütbəddin Aybək, xələclər, monqol hücumları, tuğlaqilər, dövlət torpaqları

Hələ IV yüzillikdən başlayaraq Hindistan yarımadasının şimalı, yəni Pakistan və ona bitişik bölgələr Cənubi Asiyada türklərin ən çox diqqət yetirdikləri ərazilərdən biri idi. XI yüzilliyin sonlarında bu bölgə müsəlman-türk sülaləsi olan Qəznəlilər tərəfindən fəth edildi. Şimali Hindistanda qəznəlilərin hakimiyyətini başqa bir türk sülaləsi olan qurlular davam etdirdi. Qurlular da qəznəlilər kimi ordu quruculuğunda daha çox öz soydaşlarına, yəni türklərə üstünlük verir, bölgədə İslam dininin yayılmasına xüsusi diqqət yetirirdilər.


Qütbəddin Aybək

Onların bəziləri qul bazarlarından satın alınır, hərbi təlim keçib təhsil verildikdən sonra orduya cəlb olunurdu. Bu döyüşçülər məmlük və ya qulam adlandırılırdı.

Belə məmlük döyüşçülərdən biri də Qütbəddin Aybək Türkman idi. O, doğma türk dili ilə yanaşı, ərəb və fars dillərini də gözəl bilirdi. Qurlular dövlətinin sonuncu hökmdarı Məhəmmədin bir hindli tərəfindən xaincəsinə qətlə yetirilməsindən sonra hakimiyyətə Qütbəddin Aybək Türkman gəldi.

**Türk dövlətlərinin Hindistana xüsusi diqqət yetirməsinin səbəblərini araşdırın.**

## Dehli sultanlığının qurulması

Qütbəddin Aybək tərəfindən əsası 1206-cı ildə qoyulmuş dövlət Dehli, bəzən isə Hindistan sultanlığı (1206–1526) adlanırdı.

Dehli sultanlığı biri digərini əvəz etmiş müxtəlif türk sülalələri tərəfindən idarə olunmuş, XV yüzilliyin ortalarında isə hakimiyyət əfqan mənşəli Lodilərin əlinə keçmişdi.

Məmlüklər sülaləsinin hakimiyyəti dövründə (1206–1290) indiki Pakistan və ona qonşu ərazilərdə türk dilinin və İslam dininin yayılmasına xüsusi diqqət yetirilirdi.Qütbəddin Aybək özünün saray tarixçisinə türklərin dili, tarixi, adət və ənənələrindən bəhs edən əsər yazdırmışdı.

**Qütbəddin Aybəklə Sultan Mahmud Qəznəlini fəaliyyətləri baxımından müqayisə edin.**

Qütbəddin Aybəkdən sonra hakimiyyətə onun kürəkəni Şəmsəddin Eltutmuş (1211–1236) gəldi. O, qərbdə monqol hücumlarını dəf etməklə yanaşı, şərq istiqamətində dövlətin ərazilərini daha da genişləndirdi. Eltutmuş monqol hücumlarına qarşı mübarizə aparan Xarəzmşah Cəlaləddinə öz ərazisində sığınacaq verdi, Abbasi xəlifəsi ilə sıx dostluq əlaqələri yaratdı. O, hələ sağ ikən qızı Raziyəni öz vəliəhdi elan etmişdi. Türk-islam

LAYİHƏ


Dehli


Sultan Eltutmuş


Raziyə sultan

dünyasında ilk qadın-hökmdarlardan olmuş Raziyə sultanın hakimiyyəti dövründə ölkədə daxili çəkişmələr artdı. Hərbçilərin köməyi ilə hakimiyyətə gələn Qiyasəddin Balaban dövlətin parçalanmasının qarşısını aldı, daxili iğtişaşları yatırtdı. O nəinki qiyamçı hind feodallarını, həm də ölkəyə soxulmuş monqolları darmadağın etdi.

**S** **Sizcə, monqollar Dehli sultanlığını ələ keçirsə idi, ölkədə hansı dəyişikliklər baş verərdi?**


Qiyasəddin Balaban

## Dehli sultanlığının yüksəlişi

İndiki Pakistan və ona bitişik ərazilərə soxulmaq istəyən monqollara qarşı mübarizə Dehli sultanlağında hakimiyyətə gəlmiş Xələclər sülaləsi dövründə də (1290–1320) davam etdi.

Ağ hunların varisləri olan xələclər Türkiyə, Azərbaycan, İran, Mərkəzi Asiya, Əfqanıstan, Pakistan və Hindistan ərazilərində yaşayırlar. XX yüzilliyin 30-cu illərində indiki Türkiyə ərazisində "Xələc" adını daşıyan 16 kənd vardır. Krımdakı Xalac və Rusiyanın cənubundakı Kalaç yaşayış məskənləri də bu xalqın adı ilə bağlıdır. Xələclər Azərbaycanın Təbriz, Marağa, Maku, Urmiyə, Əhər və Astara bölgələrinin qədim əhalisidir. Onlar İranın Savə bölgəsindən cənub-qərbdə də məskunlaşmışlar. İndiki İran İslam Respublikasının Mərkəz ostanlığında Xələcistan adlı böyük bir vilayət vardır. Burada xələclər 77 kənddə məskunlaşmışlar. Fars ostanlığında, Şirazın şimalında yaşayan xələclər başqa bir türk xalqı olan qaşqaylarla eyni kökdən olduqlarını söyləyirlər. "Altı bölük" qaşqaylar isə xələclərdən törədiklərini bildirirlər. Xuzistanda yaşayan xələclər özlərini Gündüzlü, Kirmandakılar Əfşar-Amuxlu adlandırırlar. Xorasanda xələclərin məskunlaşdıqları 3 böyük yaşayış məskəni vardır.

Əfqan (puştun) tayfaları içərisində seçilən gilzayların əcdadları xələclər olmuşdur.

**T** **Xələclərin yayıldığı əraziləri müasir xəritədə göstərin.**

Bu sülalənin nümayəndəsi olmuş Əlaəddin Xələc ölkəyə soxulmuş monqolları dəf etməklə yanaşı, cənub istiqamətində fəthləri davam etdirərək dövlətin ərazisini daha da genişləndirmişdi. O, hərbi xidmətə görə verilən torpaqları zəmindar adlanan feodalların əlindən alaraq hərbçilərə qulluq müqabilində pul şəklində maaş vermişdi. Ölkədə məhsul

LAYİHƏ



Əlaəddin Xələc

bolluğu yaratmaq məqsədilə zəmindarlardan alınan torpaqlar isə kəndlilərə icarəyə verildi.

**Sizcə, hərbçilərə xidmət müqabilində torpaq əvəzinə, maaş verilməsinin nə kimi əhəmiyyəti vardır?**

# Dehli sultanlığının zəifləməsi

1320-ci ildə hakimiyyətə gəlmiş Tuğlaqilər sülaləsinin hakimiyyətlərinin ilk illərində Dehli sultanlığının ərazisi xeyli genişlənsə də, istər türk-müsəlman, istərsə də hindli əhalinin bu sülalənin yeritdiyi siyasətdən narazılığı artmağa başladı. XIV yüzilliyin 80-ci illərində başlayan daxili çəkişmələr və hindli əhalinin qiyamları dövləti zəiflətdi. Bir çox türk-müsəlman feodalları mərkəzi hakimiyyətə tabe olmaqdan boyun qaçırdı. Cənubda xırda müstəqil hind dövlətləri yaranmağa başladı.

Dehli sultanlığının uzun sürən tənəzzül dövrü başlandı. XIV yüzilliyin sonlarında Əmir Teymurun Dehli sultanlığı torpaqlarına yürüşü dövləti daha da zəiflətdi və dərin iqtisadi böhrana səbəb oldu.

Lodilər sülaləsinin hakimiyyəti illərində Dehli sultanlığının ərazisi bir neçə dəfə kiçildi. Müsəlman və hindli feodallar arasında mübarizə daha da kəskinləşdi. Lakin Hindistan yarımadasının istər şimalındakı və mərkəzindəki nüfuzunu itirmiş müsəlman əmirləri, istərsə də cənubda möhkəmlənən hind racələri ölkəni birləşdirməyi bacara bilmədilər.

**Dehli sultanlığını idarə etmiş sülalələrlə bağlı sxem hazırlayın.**




LAYİHƏ


Dehli orta yüzillikdə

# İdarə edilməsi və inzibati bölgüsü

Dehli sultanlığının idarəçiliyi özündən əvvəlki türk-müsəlman dövlətləri kimi feodal monarxiyası idi. Müsəlmanlar "dövlət xalqı", hindlilər isə "himayəyə götürülmüş xalq" hesab olunurdu.

Bəzi hind racələrinə daxili idarəçilikdə müstəqillik verilmişdi. Dövləti sultan idarə edir, mülki və hərbi işlərə baş vəzir rəhbərlik edirdi. Ölkə vilayətlərə, vilayətlər dairələrə bölünürdü. Vilayətlər valilər, dairələr isə rəislər tərəfindən idarə olunurdu.

Müsəlmanlarla bağlı məhkəmə işlərini qazılar, hindli əhali ilə bağlı məhkəmə işlərini isə dövlət tərəfindən xüsusi olaraq ayrılmış məmurlar həyata keçirirdilər.

Dehli sultanları karxana adlanan sənətkarlıq müəssisələrinin artmasına xüsusi diqqət yetirirdilər.

**T** **Dehli sultanlığında və eyni dövrdə Azərbaycanda mövcud olan torpaq mülkiyyəti formalarını müqayisə edin.**

**T** **Baş vəzirin dövlət idarəçiliyində oynadığı rolu dəyərləndirin.**

| Torpaq mülkiyyəti | Xüsusiyyətləri |
|---|---|
| Dövlət torpaqları | • Bu torpaqlardan alınan vergilər sultan sarayının saxlanılmasına xərclənirdi. Vergilər icma başçısı tərəfindən toplanır, məhsulu sultan xəzinəsinə çatdırmalı olan məmurlar isə onun həcmini çox vaxt gözəyarı müəyyən edirdilər. Bəzi meşələr və çəmənlər də dövlət mülkiyyəti elan edilmişdi. |
| Xass | • Bu, sultan ailəsinə məxsus torpaqlardır. Bu torpaqları becərən kəndlilər sultan xəzinəsindən maaş alırdılar. |
| İqta | • Bu, türk mənşəli sərkərdə və məmurlara verilən torpaqlardır. Onların sahibləri zəmindar adlanırdı. |
| Mülk | • Feodalların xüsusi mülkiyyətində olan torpaqlardır. |
| Vəqf | • Sultan tərəfindən ayrılan bu torpaqlardan əldə edilən gəlir məscidlərin, müsəlman alimlərinin, şairlərin ehtiyaclarının ödənilməsi üçün xərclənirdi. |
| İcma | • Kənd icmalarına məxsus torpaqlardır. |

LAYİHƏ



# BÖYÜK MONQOL DÖVLƏTİ. QIZIL ORDU

Temuçin, monqol, bahadur, Çingiz xan, işğallar, Böyük Yasa

Qədim monqol inancına görə, monqolların ulu əcdadı Tanrının iradəsi ilə Göy Qurd və Ağ Maraldan dünyaya gələn bir insan olmuşdur. Onun 24-cü nəslində isə bir oğlan uşağı doğulmuş, adını Temuçin qoymuşlar. Temuçin və onun varisləri dünyanı heyrətə salan fəthlər edərək böyük bir imperiyanın qurucularına çevrildilər.

Jujuan dövlətinin süqutundan sonra onun tərkibində olan tayfalar Mərkəzi Asiya çöllərinə səpələndilər. Şərq xalqlarının "moğol", avropalıların isə "monqol" adlandırdığı xalq göytürklərin məğlub etdiyi jujanların varisləri hesab olunur. Monqollar Mərkəzi Asiya çöllərindən Altay dağlarının qərbinə qədər geniş ərazilərdə yaşayır, əsasən, köçəri maldarlıq və ovçuluqla məşğul olurdular.

XII yüzilliyə qədər monqol tayfaları arasında nəsli qəbilə münasibətləri hakim idi. Lakin tədricən maldar təsərrüfatları içərisində sosial bərabərsizlik yaranmağa başladı. Daha varlı təsərrüfatlar əsas tayfadan ayrılmağa və digər ərazilərə köç etməyə başladı. Ordu adlanan bu qurumlara noyon və bahadur adlanan hərbi rəislər başçılıq edirdi.

XII–XIII yüzilliklərin qovşağında monqol çölləri tayfalararası çəkişmə meydanına çevrildi. Qalib gələn tayfa və ya qəbilələr varlanır, məğlub olanlar isə güclülərə tabe olmaq məcburiyyətində qalırdı. Beləliklə, monqollar arasında nəsli qəbilə quruluşu feodal münasibətləri ilə əvəzlənməyə başladı. Yenicə yaranmağa başlayan feodal münasibətləri isə köçmə xarakteri daşıyırdı.


Monqol ulusu

## Səfalətin yetişdirdiyi şəxsiyyət

Gələcək monqol dövlətinin qurucusu olan Temuçin Kiyat qəbiləsinin başçısı Yesuqay bahadurun böyük oğlu idi. Yesuqay tatarlar tərəfindən zəhərləndirilib öldürüldükdən sonra qəbiləsi 12 yaşlı Temuçinə tabe olmayaraq onu və ailəsini tərk etdi. Gələcək xanın ağır və məşəqqətli günləri başlandı. Anası və kiçik qardaşları ilə birlikdə taleyin ümidinə buraxılan Temuçin Onon çayı sahillərində balıq tutmaq və ovçuluqla dolanmaq məcburiyyətində

LAYİHƏ




qalır. Aclıq və daimi təhlükələr bu ailəni qarabaqara izləyirdi. Temuçin sərt həyat şərtləri altında böyüyür və möhkəm iradəyə sahib şəxsiyyət kimi yetişirdi. Atasının ölümündən sonra qəbilə hakimiyyətini ələ alan Tarqutay Temuçinin çətin şərtlər altında hələ də sağ olduğunu eşidib narahat olmuş və onu əsir götürərək öldürmək üçün qandallatdırmışdı. Lakin Temuçin Sulduz qəbiləsindən olan şəxslərin köməyi ilə bu sınaqdan da qurtula bilmişdir. Onun cəsarəti və müxtəlif çətin sınaqlardan şərəflə çıxması şöhrətinin getdikcə artmasına səbəb olmuşdur.

Ətrafına cəsur və sədaqətli insanlar toplayaraq qüvvətlənən Temuçin tezliklə nayman, kerait, merkit və digər monqol tayfalarını özünə tabe etdi. Ona qarşı çıxan yaxın dostu Camuqa da məğlub edildikdən sonra artıq meydanda ciddi rəqibi qalmamışdı.

## “Tanrı tərəfindən göndərilən xan”

1206-cı ildə Onon çayı sahilində monqol tayfa başçılarının iştirakı ilə qurultay çağırıldı. Xalq arasında Teb Tenqri adı ilə tanınan bir şaman “Əzəli və Əbədi Mavi Göyün Temuçini dünya xaqanı (xanı) olaraq göndərdiyini” qurultaya bəyan etdi. Bundan sonra qurultay onu böyük xan seçdi və Çingiz xan adını verdi

Beləliklə, Monqol ulusunun əsası qoyuldu. Qaraqorum şəhəri yeni dövlətin paytaxtı oldu. Onon qurultayı monqol tarixinin dönüş nöqtəsinə çevrildi. O vaxtadək bir-biri ilə çəkişən tayfalar artıq Çingiz xanın hakimiyyəti altında vahid dövlətdə birləşdi.



Çingiz xan

Böyük xan qurduğu dövlət üçün “Böyük Yasa” adlanan qanunlar toplusu yaratdı. Hamını bu qanunlara tabe olacağına and içdirdi. Toplu yarlıklar (əmrlər), yasaqlar (qanunlar) və Çingiz xanın nəsihətlərindən ibarət idi.

“Böyük Yasa”da təsbit olunmuş hərbi-inzibati islahat böyük xanın gələcək fəthlərinə hesablanmışdı. Dövlətin ərazisi ordunun quruluşuna müvafiq

LAYİHƏ



Monqol oxçuları döyüş zamanı

olaraq onluq, yüzlük, minliklərə və tümənlərə bölünürdü. Bu addım hərbi yürüşlər və müharibələr zamanı ordunun qısa müddət ərzində səfərbər olmasına imkan verdi. Beləliklə, monqol ordusu süvari qoşunların asanlıqla idarə olunduğu "onluq sistem" adlandırılan qədim hun ənənəsini davam etdirmiş oldu. Bununla həm də ordunun tayfa prinsipləri əsasında formalaşdırılması qaydasından imtina edildi.



Monqol süvarisi

Tayfalar ərazi birlikləri ilə əvəz olundu. Orduda sərt intizam yaradılmışdı. Böyük rəislərin əmrləri sözsüz yerinə yetirilməli idi. Fərarilik isə edam ilə cəzalandırılırdı. Həyatının böyük hissəsini mübarizələrdə keçirən Çingiz xan özünü güclü strateq, bacarıqlı komandan kimi təsdiq edə bilmişdi. Onun strategiyasının əsasını kəşfiyyat, düşmənin zəif və güclü tərəflərinin diqqətlə öyrənmək və ona gözləmədiyi istiqamətlərdən qəfil zərbə endirmək təşkil edirdi. Bu məqsədlə o, hücum edəcəyi ərazilərə tacir və səyyah qiyafəsində casuslar göndərir, düşmən haqqında ətraflı məlumatlar toplayırdı.

## Monqol işğalları başlayır

Çingiz xan geniş çöllərdə yaşayan bütün monqol və türk tayfalarını birləşdirdikdən sonra işğallara başladı. Əvvəlcə Şərqi Türküstan və Cənubi Sibir tabe edildi. Bu addım onun ordusunun sıralarının genişlənməsinə səbəb oldu. Daha sonra Çingiz xan diqqətini varlı və zəngin Çinə yönəltdi. 1211–1215-ci illərdə aparılan müharibələrdən sonra Çinin şimal əraziləri fəth edildi, paytaxtı Pekin tutuldu. Monqollar işğal olunan ərazilərdə az da olsa, müqavimət göstərən şəhər və kəndləri yandırır, əhalini amansızcasına qılıncdan keçirirdilər. Sayca az olan monqollar qorxu və xof yaradaraq əhalinin müqavimətini qırmaq məqsədi güdürdülər. İşğal olunan ərazilərdə feodal dağınıqlığının hökm sürməsi, ara müharibələri və vahid dövlətin olmaması monqolların uğur qazanmasına şərait yaradırdı.

Uğurlu Çin səfərindən sonra Çingiz xan əsas hərbi qüvvələrini qərbə yönləndirdi və Xarəzmşahlar dövlətinə hücum etdi. Güclü ordusunun olma-

LAYİHƏ


Pekinin fəthi

sına baxmayaraq, Xarəzmşah Məhəmməd monqollarla açıq döyüşə girməkdən çəkinərək hər bir şəhərə ayrı-ayrılıqda müdafiə olunmaq əmri vermişdi. Rəqibini düzgün qiymətləndirməyən Xarəzmşah monqolların möhkəm qala divarlarına malik şəhərləri tuta bilməyəcəyini düşünürdü. Lakin o, monqolların şəhərləri ələ keçirmək üçün hərbi qurğulara malik ola biləcəyini nəzərə almamışdı.

Çindən divardələn, lağımatan qurğular və mancanaqlar əxz edən monqol qoşunu üçün şəhərləri ələ keçirmək artıq çətin deyildi. Çingiz xan əvvəlcə Xarəzmşahlar dövlətinin əsas mərkəzlərinə eyni vaxtda hücum etmək üçün ordunu hissələrə böldü. Şəhərlər dağıdıldı, əhalinin bir qismi qılıncdan keçirildi. Monqollara müqavimət göstərə bilməyən Xarəzmşah Məhəmməd öldü. Onun ölümündən sonra oğlu Cəlaləddin monqollarla mübarizə aparsa da, ciddi uğur qazana bilmədi. Beləliklə, Çingiz xan 1219–1221-ci illərdə Mərkəzi Asiyanın işğalını başa çatdırdı.

Xarəzmşahın oğlu Cəlaləddini təqib edən Cəbə və Subutayın orduları İrandan keçərək Cənubi Qafqaza qədər irəlilədi. Bu yürüşlər gələcəkdə Cənubi Qafqazın işğalı üçün zəmin yaratdı. Monqollar 1222-ci ildə Dərbənd keçidindən keçərək Şimali Qafqaza gəldilər. 1223-cü ildə baş verən Kalka döyüşündə birləşmiş rus-qıpçaq qoşunları da məğlub edildi. Bundan sonra monqollar ölkələrinə qayıtdılar.

Monqol tayfalarını birləşdirən və hakim xalqa çevirən Çingiz xan ölümünün yaxınlaşdığını hiss edib vəsiyyətnamə hazırlamışdı. Həmin vəsiyyətnaməyə görə Monqol dövləti oğullarının sayına uyğun olaraq dörd ulusa bölünürdü. Böyük xan qurultayda seçilməli, digər ulusların xanları ona tabe olmalı idi. Bununla Çingiz xan özündən sonra baş verə biləcək çəkişmələrin qarşısını almaq niyyəti güdürdü. Lakin bu onun ilk və son səhvi oldu.

1264-cü ildə hakimiyyətə Xubilay xan keçdi. O, paytaxtı Qaraqorumdan Pekinə köçürdü, Cənubi Çini işğal edib özünü Çin imperatoru elan etdi və Yuan sülaləsinin əsasını qoydu. Paytaxtın Pekinə köçürülməsi ulusların Böyük xan ilə əlaqələrini zəiflətdi. XIV yüzilliyin əvvəllərində Monqol imperiyası parçalandı və onun geniş ərazilərində müstəqil dövlətlər yarandı.

## Qızıl Ordu dövləti

1235-ci ildə monqol əyanları paytaxt Qaraqorumda qurultaya toplaşdılar. Qurultayda Monqol imperiyasından qərbdə yerləşən günbatan ölkələrə – Qıpçaq çölünə və Şərqi Avropaya yürüş etmək haqqında qərar qəbul olundu. Yürüşə Batı xan başçı təyin edildi. Batı Çingiz xanın nəvəsi, Qərb ulusunun xanı Cuçinin oğlu idi.


Batı xan

Layihə




Qərbdə yerləşən bütün torpaqlar vəsiyyətə görə Cuçinin əraziləri hesab edilirdi.

Batı xanın başçılıq etdiyi monqol ordusu əvvəlcə İdil bulqarlarını və rus knyazlarını tabe etdi. 1240-cı ildə Kiyevi ələ keçirən Batı xan diqqətini Polşaya yönəltdi. 1241-ci ildə baş verən Leqnits döyüşündə polşa-alman qoşunlarını darmadağın edən monqollar Mohaç döyüşündə macarlara da qalib gəldilər. Batı xan Macarıstana, oradan isə Çexiyaya daxil oldu. Lakin Böyük monqol xanının ölüm xəbəri Batı xanın yürüşlərinin dayanmasına səbəb oldu. O, geri dönüb böyük xan seçkisində iştirak etmək niyyətində idi. Lakin böyük xanın seçilməsi xəbərini alandan sonra o, İdil sahillərində dayandı. Burada öz adına Saray-Batı şəhərini saldırdı. Beləliklə, Batı xanın yürüşləri nəticəsində XIII yüzilliyin 40-cı illərində Qızıl Ordu dövləti meydana gəldi. Özünün ən qüdrətli vaxtlarında bu dövlətin sərhədləri Qərbi Sibiri, Şimali Xarəzmi, İdil boyu əraziləri, Şimali Qafqazı, Krım və Qıpçaq çölünü əhatə edirdi. Bu ərazilərdə yaşayan əhalinin böyük hissəsini türk-müsəlman əhalisi təşkil edirdi. Monqollar tədricən onlarla qaynayıb qarışır, dil və mədəniyyətlərini mənimsəyirdilər. XIV yüzilliyin birinci yarısında Özbək xan İslam dinini rəsmi dövlət dini elan etdi.

Bununla da Qızıl Ordu dövlətində türkləşmə prosesi başa çatdı.

**A** **Qızıl Ordunun yerləşdiyi ərazidə hazırda hansı dövlətlərin olduğunu araşdırın.**

# İdarəetmə

Vergiləri yığan məmur baskak adlanırdı. Bir sıra əyanlar xana xidmət müqabilində bəzi imtiyazlara malik idilər. Onların təbəələri xan fərmanı – yarlıq ilə vergi verməkdən azad edilirdi. Belə şəxslər tərxan adı daşıyırdılar.

**Qızıl Ordu dövlətinin idarə olunması "Böyük Yasa"ya və türk-müsəlman ənənələrinə əsaslanırdı. Dövlətin başında xan dayanırdı. O, qeyri-məhdud hakimiyyətə malik idi.**

↓ ↓

Ali Məclis xan yanında ali məşvərət orqanı idi. Onun tərkibinə sərkərdələr, vəzir və əyanlar, hakim sülalənin üzvləri, ulus xanları və ali ruhanilər daxil idi.

Dövlət Divanı ali icraedici orqan olub, mülki və hərbi səlahiyyətlərə malik idi. Mülki işlərə baş vəzir, hərb məsələlərinə isə bəylərbəyi rəhbərlik edirdi.

LAYİHƏ

# Dövlətin tənəzzülü

1359-cu ildə Cuçi nəslindən olan xanların hakimiyyəti başa çatdı. Bundan sonra Qızıl Ordu dövlətində hakimiyyət uğrunda mübarizələr başlandı. Məmur özbaşınalıqları, vergilərin çoxluğu da xalqın narazılığını artırırdı. Daxili çəkişmələr mərkəzi hakimiyyətin zəifləməsinə və tabe edilən ölkələrin müstəqillik meyillərinə təkan verdi.

Qızıl Ordunun zəifləməsindən istifadə edən rus knyazları Moskva knyazı ətrafında birləşərək 1380-ci ildə Kulikovo çölündə sərkərdə Mamay xanı ağır məğlubiyyətə uğratdılar. Mamay xan öldürüldü. Lakin Teymurun köməyi ilə taxta çıxan Toxtamış xan 1382-ci ildə Moskvanı tutaraq yandırdı və yenidən Qızıl Ordu dövlətinə tabe etdi. Toxtamışın Teymurdan asılı olan ölkələrə qarətçi yürüşlər təşkil etməsi teymurilərlə toqquşmalara gətirib çıxardı. 1395-ci ildə Terek çayı sahilində Toxtamış xan məğlub oldu. Qızıl Ordunun şərq vilayətləri Teymurilər dövlətinin tərkibinə qatıldı. Bu hadisələrdən sonra Qızıl Ordu bir daha özünə gələ bilmədi və parçalanmağa başladı.

Ara müharibələri nəticəsində XV yüzillikdə Qızıl Ordunun tərkibindən bir sıra ərazilər ayrıldı, Qazan, Həştərxan, Krım xanlıqları və Noqay Ordusu kimi müstəqil dövlətlər yarandı.

Qızıl Ordu dövlətinin itirilmiş qüdrətini bərpa etmək arzusuna düşən Əhməd xan 1480-ci ildə Moskva knyazlığı üzərinə yürüş etdi. Uqra çayı sahilində birləşmiş rus knyazları ilə qarşılaşan Əhməd xan onlarla toqquşmaqdan çəkindi.

Tarixdə "Uqra görüşü" kimi tanınan hadisələr nəticəsində Moskva knyazlığının Qızıl Ordudan vassal asılılığına son qoyuldu. Daxili çəkişmələrə və ara müharibələrinə məruz qalan Qızıl Ordu dövləti XVI əsrin əvvəllərində süqut etdi.

**Qızıl Ordunun tənəzzülünün səbəblərini müəyyən edin.**

**"Böyük Yasa"nın Çingiz xanın uğurlarındakı rolunu izah edin.**



Kulikovo döyüşü

LAYİHƏ



# 15 TEYMURİ DÖVLƏTİ

Cağatay ulusu, Barlas qəbiləsi, Teymur, sərbədarilər, Səmərqənd, fəthlər, Ankara döyüşü

Çingiz xanın vəsiyyətinə əsasən yaradılan monqol uluslarından biri də Cağatay ulusu idi. Mərkəzi Asiyanın bir hissəsini, Xarəzm və Mavərannəhri əhatə edən bu ulus Böyük Monqol dövlətinin parçalanmasından sonra müstəqil fəaliyyət göstərirdi. Şərqi Avropaya, Çinə və Asiyanın qərbinə doğru genişlənən digər monqol uluslarından fərqli olaraq Cağatay ulusu geniş işğallar həyata keçirməmişdi. Lakin Qızıl Ordunun zəifləməsi, Hülakülərin süqutu, Cağatay ulusunun yerində meydana gələn Teymuri dövlətinin geniş işğallarına əlverişli şərait yaratdı. XIV yüzillik türk-islam dünyası yeni fatehlə – özünü "Turan sultanı" adlandıran Əmir Teymurla tanış oldu.



Əmir Teymur

Cağatay ulusu XIV yüzilliyin ortalarında bir-biri ilə mübarizə aparan Moğolustan və Mavərannəhr dövlətlərinə parçalanmışdı. Bu mübarizələr gah bu, gah da digər tərəfdə döyüşçü olaraq iştirak edən gələcək fatehin – Teymurun sərkərdə və siyasətçi kimi yetişməsində mühüm rol oynadı.

Teymur (türkcə mənası "dəmir") 1336-cı ildə Türküstanın Keş əyalətində (indiki Özbəkistanın Şəhrisabz bölgəsində) anadan olmuşdur. Atası Taraqay bu əyalətin idarəçilərindən idi. Hələ kiçik yaşlarından hərb işinə böyük maraq göstərən Teymur üçün xüsusi tərbiyəçilər tutulmuşdu. Cağatay ulusunun türkləşmiş Barlas nəslindən olan gələcək fateh uşaqlıq illərində yaxşı təhsil almış, həmçinin türk-monqol hərb sənətinin incəliklərinə yiyələnmişdi. Məhz bu amillər onun uğur qazanmasında mühüm rol oynamış, tezliklə o həm cəsur hərbçi, həm də ağıllı və tədbirli lider kimi

LAYİHƏ

tanınmışdır. Lakin döyüşlərin birində Teymur çiynindən və ayağından yaralanır, aldığı yaralar isə izsiz ötüşmür. Axsadığına görə müasirləri onu Teymurləng adlandırır.

Cağatay ulusunda baş verən daxili çəkişmələr onun idarəçilik təcrübəsi qazanmasında mühüm rol oynamışdır. Dostları və tərəfdaşları ilə ədalətlə davranan Teymur bəzən qatı düşmənlərini belə bağışlamaqla onları dosta çevirməyi bacarırdı. O deyirdi: "Başıma gələnlərdən onu öyrəndim ki, sadiq və vəfalı dost öz dostundan inciyəndə ondan ayrılmaz, dostunun düşmənini öz düşməni hesab edər. ...Cahil və nadan dostdan ağıllı düşmən irəlidir".

**Əmir Teymuru sərkərdə və idarəedici kimi yetişdirən amilləri müəyyən edin.**

Gənc yaşlarından Səmərqənd və Bəlx hakimi Əmir Qazana xidmət edən Teymur onun vəfatından sonra oğlu Əmir Hüseyn ilə də ittifaq bağlayıb qohum oldu. Onlar birlikdə Cağatay xanı Toğluq Teymurla mübarizə aparırdılar. 1365-ci ildə müttəfiqlər Mavərannəhr üzərinə yürüş edən Toğluq Teymura məğlub oldular. Lakin Səmərqənddə əsasını sənətkarlar təşkil edən sərbədarilər* monqol ağalığı ilə barışmaq niyyətində deyildi. Şəhərə daxil olan Cağatay xanı küçə döyüşlərində onlara məğlub oldu və geri çəkilmək məcburiyyətində qaldı. Sərbədarilərin hakimiyyəti isə Mavərannəhrə yayılmağa başladı. Lakin müttəfiqlər bu hadisədən bir il sonra Səmərqəndə daxil olub sərbədariləri tabe etdilər.

*** Sərbədarilər**

*sözünün hərfi mənası "boğazdan dara çəkilənlər" deməkdir. Mərkəzi Asiyada və İranda monqol istilasına qarşı azadlıq hərəkatının iştirakçılarıdır.*

## "Əgər göy üzündə Tanrı iki olsa idi, yer üzünün nizamı pozulardı".

Əsas rəqiblərini sıradan çıxaran müttəfiqlər tezliklə bir-biri ilə qarşılaşdılar. Hakimiyyət uğrunda Əmir Hüseynlə Teymur arasında başlanan mübarizə Teymurun qələbəsi ilə başa çatdı. Sərbədarilər hərəkatından ehtiyat edən şəhər idarəçiləri, həmçinin digər xırda feodal hakimlər Teymurun hakimiyyətini tanımağa məcbur oldular. O, 1370-ci ildə qurultay çağıraraq "əmir" titulu qəbul etdi və yeni dövlətin – Teymurilər dövlətinin əsasını qoydu. Çingiz xanın soyundan olmadığı üçün Teymur özünü xan elan edə bilməzdi. Yalnız fəthlərdən sonra o, qurduğu dövlətə "Turan" adını verib, "Turan sultanı" titulunu qəbul etdi.

Düşünüb-daşındım ki, əgər Allah birdirsə, onun şəriki yoxdursa, Allah-taalanın müqəddəs mülkünə – yer üzünə sahiblik eləyən insan da bir olmalıdır! Bu vaxt övliyalardan sayılan Baba Əli Şah qarşıma gəldi və dedi: "Ey Teymur, Allah-taala buyurmuşdur ki, əgər göydə iki Tanrı olsa idi, yer üzünün nizamı pozulardı". ... bundan sonra özlərini dövlət şəriki hesab edib mənə tabe olmaq istəməyən əmirləri dürlü-dürlü fəndlərlə özümə itaət etdirmək qərarına gəldim... Mavərannəhrdəki bütün ellər, xalqlar, qoşunlar, tümənlər, eləcə də köçərilər mənim hökmranlığım altına keçdilər".

*"Əmir Teymurun Qanun kitabı"ndan*

Mərkəzi Asiyada Teymurun uğur qazanması üçün bütün şərtlər var idi. Monqol işğalından keçən iki yüz ilə yaxın dövr ərzində burada yaşayan əhali "Böyük Yasa" sayəsində hərb sənətinin tələblərinə cavab verən ordu halında formalaşdı. Çingiz xanın varisləri onun həyata keçirdiyi hərbi-inzibati islahatları burada da tətbiq etmişdilər. Sərt monqol hərbi intizamı türk gənclərinin iliklərinə qədər işləmişdi. Digər monqol uluslarının əhatəsində qalan Cağatay xanları böyük işğallar həyata keçirə bilmədiyindən parçalanma dövründə bu hərbi güc daxili çəkişmələrə sərf olunurdu. Bu böyük gücü idarə etmək və fəthlərə yönəltmək "dəmir adamın" – Teymurun missiyasına çevrilmişdi.

LAYİHƏ




XIV yüzilliyin 70-ci illərində Mərkəzi Asiyanı özünə tabe edən Əmir Teymur diqqətini İran coğrafiyasına yönəltdi. 1385–1388-ci illəri əhatə edən üç illik yürüşündə o, İran, Ərəb İraqı, Cənubi Qafqaz fəth etdi. Bir çox Anadolu hakimləri də onun hakimiyyətini qəbul etdilər. Mühüm ticarət məntəqələri olan Hələb və Şam (Dəməşq) şəhərləri ələ keçirildi. Həmin yüzilliyin 90-cı illərində Əmir Teymur artıq hakimiyyətini şərqdə Qobi səhrasından qərbdə Aralıq dənizinədək geniş ərazilərə yaya bilmişdi.

**S** **Əmir Teymurun diqqətini İrana yönəltməsinin səbəbi nə idi?**

XIV yüzilliyin 80-ci illərində Teymur Qızıl Ordu xanı Toxtamışla toqquşmalı oldu. Toxtamış Teymurun köməyi ilə hakimiyyətə gəlmişdi.

Lakin Cənubi Qafqazın və indiki Qazaxıstanın bir hissəsinin Teymura tabe edilməsi onu narazı salmışdı. Qızıl Ordu xanı bu ərazilərin tabe edilməsini Çingiz xanın vəsiyyətinin pozulması kimi qiymətləndirirdi. Buna görə o, Cənubi Qafqaz və Mərkəzi Asiyaya yürüşlər təşkil etdi. Onun bu addımı Teymur ilə müharibələrə səbəb oldu. Tərəflər arasında həlledici döyüş 1395-ci ildə Terek çayı sahilində baş verdi. Toxtamışın ordusu darmadağın edildi, özü isə döyüş meydanından qaçdı.


Toxtamış xan

Geri çəkilən düşməni təqib edən Əmir Teymur Saray-Bərkəni tutub dağıtdı. Bu hadisə sonralar Qızıl Ordudan asılı olan Moskva knyazlığının yüksəlişinə şərait yaratdı. Əmir Teymur Moskvaya doğru yönəlsə də, Mərkəzi Asiyada qarışıqlıqların baş verməsi xəbərini alıb geri döndü.

1398-ci ildə uğurlu Hindistan səfəri nəticəsində Dehli sultanlığı tabe edildi. Hindistandan böyük qənimətlərlə dönən Əmir Teymur diqqətini Osmanlı dövlətinə yönəltdi. Osmanlı sultanı I Bəyazid onun rəqibləri olan Qara Yusifi və Cəlairi sultanı Əhmədi himayə edirdi. Bu isə Əmir Teymuru narazı salmışdı. Osmanlı sultanı əsas diqqətini Konstantinopolun fəthinə yönəltsə də, Ön Asiyanın ticarət məntəqələrinin Teymurun nəzarətinə keçməsindən narahat idi.

LAYİHƏ

1402-ci ildə baş verən Ankara döyüşündə I Bəyazid ilə Əmir Teymurun qüvvələri üz-üzə gəldi. Sayca üstün olan və döyüş fillərindən istifadə edən Teymur qələbə qazandı. Artıq türk-müsəlman dünyasında onun ciddi rəqibi qalmamışdı.

Növbəti hədəf Çin idi. Lakin 1405-ci ildə Çinə yürüş ərəfəsində böyük fateh qəflətən vəfat etdi və bu səfər baş tutmadı.

## “Ölkələr qılıncla alınar, ancaq ədalətlə idarə olunar”

**Bu fikirlə razısınızmı? Fikri şərh edin.**

Teymuri dövləti XIV–XV yüzilliklərin qovşağında şərqdə Çin sərhədlərindən qərbdə Anadoluya və Aralıq dənizinə, şimalda isə Qafqaz dağlarından cənubda Hindistana və İran körfəzinədək geniş əraziləri əhatə edirdi. Dövlət türk-monqol ənənəsinə uyğun olaraq uluslara bölünmüşdü. Onun tərkibində müxtəlif dilə və dinə malik xalqlar yaşayırdı. Bu xalqları itaətdə saxlamaq üçün hamının qəbul və əməl edəcəyi vahid qanunlara zərurət yaranmışdı. Buna görə Əmir Teymur özünün “Teymurun qanunları” adlı qanunlar toplusunu yaratdı. Qanunların əsas ideyası qanunun aliliyi prinsipinin qəbul etdirilməsi idi.



Əmir Teymur taxtda

O bu qanunlar toplusunda “ölkələrin qılıncla alınıb, ancaq ədalətlə idarə olunmasını” bəyan edirdi. Lakin onun varisləri bu şüara əməl etmədilər.

Teymurun fəthləri İpək yolunun daha da canlanmasına şərait yaratmışdı. O, Asiyadan Avropaya gedən yolları nəzarətdə saxlayırdı. Əmir Teymur Avropa ölkələri ilə birbaşa ticarət əlaqələri yaratmaq siyasəti yeridirdi. Bu addımla o həm də Avropa-Asiya ticarətində Səmərqəndin rolunu artırmaq niyyəti güdürdü. Böyük fateh elm və mədəniyyətin də qayğısına qalır, paytaxt Səmərqəndi türk-islam dünyasının mədəniyyət mərkəzinə çevirməyə çalışırdı. Bunun üçün o, fəth edilən ölkələrdən böyük alimləri, həmçinin müxtəlif sənət adamlarını Səmərqəndə gətirmişdi. Nəticədə onun varislərinin dövründə “Teymurlu intibahı” adlandırılan mədəni cərəyanın əsası qoyulmuşdu.

## Dövlətin tənəzzülü

Əmir Teymurun ölümündən sonra varisləri arasında baş verən çəkişmələr dövləti zəiflətdi. Ayrı-ayrı hökmdarlar (Şahrux, Hüseyn Bayqara) dövlətin qüdrətini bərpa etməyə çalışsalar da, Qərbdə oğuzların yeni siyasi dirçəlişi, Mərkəzi Asiyada isə Şeybanilər dövlətinin yaranması Teymurilər dövlətini çətin sınaq qarşısında qoymuşdu. 1507-ci ildə Şeybani xan Xorasanı və Teymurilərin son sığınacağı olan Heratı ələ keçirərək bu dövlətin varlığına son qoydu. Hüseyn Bayqaranın oğlanlarının Səfəvi şahı I İsmayıla sığınması Şeybanilərlə Səfəvilər arasında gələcək müharibələrə səbəb oldu.

LAYİHƏ




# XAÇLI YÜRÜŞLƏRİ

II Urban, Xaçlı dövlətləri, Səlahəddin Əyyubi, Latın imperiyası, Rekonkista

## Xaçlı yürüşlərinin səbəbləri

Frank imperiyasının parçalanması ilə Qərbi Avropa feodalların öz aralarında hökmranlıq uğrunda mübarizə apardığı bir məkana çevrildi. Bu mübarizədə Roma papaları da iştirak edirdi. Onların məqsədi Avropadakı bütün bu gücləri ram etmək, öz üstünlüyünü onlara qəbul etdirmək və xristian dünyasında hakim mövqeyə malik olmaq idi. Papalar arasında dünya dövləti qurmaq və dünya hökmdarı olmaq ideyası Frank imperiyasının parçalanması nəticəsində yaranmış bir fikir deyildi. Bu ideya erkən xristianlıq dövründə irəli sürülmüş Teokratik tarix anlayışına əsaslanırdı: "Dünya tarixi Tanrı ilə şeytan arasındakı mübarizədən ibarətdir. Bu mübarizənin sonunda Tanrı qalib gələcək və Tanrının dövləti qurulacaq. Tanrını təmsil edən papalar bu dövlətin başçısı olacaq".

Məqsədlərini həyata keçirməyə çalışan papaların ixtiyarında silahlı qüvvələr olmasa da, onların keşişlərdən ibarət böyük bir təbliğat ordusu var idi. Bu təbliğat ordusundan istifadə edərək papalar Qərb xristian dünyasının bütün siyasi və hərbi qüvvələrini, xüsusən də xalq kütlələrini özlərinə bağlamağa və onlara hakim olmağa çalışırdılar.

Hökmranlıq uğrunda gedən bu mübarizədən ən çox əziyyət çəkən sadə camaat idi. Qərbi Avropa ölkələrində asayiş yox idi. İstehsal dayanmışdı və iqtisadi həyat tamamilə iflic olmuşdu. Cəmiyyətdə aclıq və səfalət yayılmağa başlamışdı.

Papalıq əvvəlcə sülh çağırışı edərək bütün Avropanı bürümüş bu qarışıqlıq və özbaşınalığın qarşısını almağa çalışdı. Amma bu çağırışlar döyüşçü ünsürlərə o qədər də təsir etmədi. Bu zaman Qüdsə olan sevgini canlandıran və din uğrunda mübarizəni alovlandıran ideyalar ön plana çıxmağa başladı. Roma papaları daxili təcavüz və zorakılığı xarici hədəflərə yönəltməyə çalışırdılar.



Papa II Urbanın çıxışı

S Xaçlı yürüşlərinin səbəbləri nə idi?

S Xaçlı yürüşlərindən papaların gözləntisi nə idi?

LAYİHƏ

Bunun üçün ağla gələn ən uyğun yer o dövrdə müsəlmanların əlində olan müqəddəs torpaq, yəni Qüds idi. Beləliklə, papalığın əsas hədəfi məlum oldu. Bundan sonra bütün ruhanilər dini motivlərdən güclü təbliğat materialı kimi səmərəli istifadə etdilər. Xüsusən İsanın qəbrinin "kafirlərin" əlində olmasından xəcalət çəkdiklərini bildirirdilər. Günahları yumaq üçün Xaçlı yürüşünə qoşulmağın ən böyük savab olacağı təbliğ olunurdu.

Şüurlarda və düşüncələrdə "küçələrində süd və bal axan Qüds" əfsanəsi yaratmaq üçün səy göstərilirdi. Bu təbliğatlarda feodalları valeh edən "Şərqdə hakimiyyət, hökmdarlıq, şöhrət, var-dövlət və torpaq sahibliyi" xəyalı idi. Göründüyü kimi, din xadimlərinin təbliğatlarında vəd etdikləri imkanlar o dövrdəki insanların ehtiyac və tələblərinə uyğun olduğu üçün bu şişirdilmiş və xəyali vədlərin mülki və hərbi kütlələrə son dərəcə böyük təsiri oldu. Onlar təbliğatlarında dini motivlərdən bir vasitə kimi istifadə etsələr də, əsas məqsədləri dini yox, siyasi idi.

**T** **Dini təbliğatın siyasi məqsədlərə xidmət etdiyini faktlarla əsaslandırın.**

Katolik kilsəsinin Provaslav kilsəsi üzərində hakim olmaq istəyi xaç yürüşləri başlamazdan əvvəl meydana çıxmışdı. Hələ 1054-cü ildə xristian kilsəsinin böləndüyü katolik (Qərb) və pravoslav (Şərq) məzhəblər bir-birinin amansız rəqibi və əleyhdarı oldu.

Papanın başçılıq etdiyi katolik kilsəsi Qərb xristian dünyasını xaç yürüşlərinə hazırlayarkən türk axınlarına qarşı dura bilməyən pravoslav kilsəsinə bağlı Bizans imperatorları Papadan davamlı olaraq hərbi yardım istəyirdilər. Papalar bu yardım xahişini latın (katolik) kilsəsinin üstünlüyünü yunan (pravoslav) kilsəsinə qəbul etdirmək üçün bir fürsət kimi gördülər və bunu öz xeyirlərinə dəyərləndirməyə başladılar. 1091-ci ildə peçeneqlər Konstantinopolu ələ keçirmək üçün Bizansa hücum edəndə imperator Roma papasına müraciət etdi. Bu yardım tələbi Papanın xristian dünyasını səfərbər etmək üçün istifadə etdiyi ən mühüm bəhanələrdən biri oldu.

**T** **Xaçlı yürüşlərinin siyasi-iqtisadi səbəblərini müəyyən edin.**

Avropada bir-birinin ardınca baş verən böyük təbii fəlakətlər və epidemiyalar Xaçlı yürüşlərinin başqa bir səbəbini formalaşdırdı.



Xaçlı döyüşçü

Aclıq, xəstəlik, səfalət və özbaşınalıq cəmiyyəti məhv edirdi. Məhz buna görə də kilsənin təbliğatı xilas yolu axtaran insanlara böyük təsir göstərirdi. Bizansın təkidlə kömək istəməsi də katolik kilsəsini hərəkətə gətirdi. Papa II Urbanın 1095-ci ildə Klermonda etdiyi çağırış xaçlı yürüşlərinin başlanmasına səbəb oldu.

# Şərqə doğru xaçlı yürüşləri

Şərqə doğru yürüşə çıxmazdan əvvəl Avropada yaşayan yəhudilər xaçlıların əsas hədəfinə çevrildi.

Hücuma məruz qalmış yəhudilərdən biri şahid olduğu hadisələr barədə yazırdı: "Şəhərdəki yəhudilər qətllərdən qorunmaq ümidi ilə yepiskopa müraciət etdi. Yepiskop onları öz evində yerləşdirdikdən sonra qətləri törədən dəstəyə xəbər verdi. Onlar qapının kilidini qırıb ox və mizraqlarla evdə gizlənən yəhudilərə hücum etdilər. Xeyli yəhudi öldürüldü. Qadınlara və körpə uşaqlara da rəhm edilmədi".

*İbrahim Edhem Polat. "Doğu ve Batı kaynaklarında Haçlı seferlerinde yaşanan insanlık ihlalleri". Uluslararası suçlar ve tarih dergisi*

**S** **Sizcə, Avropada yəhudilərə qarşı zorakı münasibətin səbəbi nə idi?**

Layihə

1096-cı ilin yazında Pyotr adlı bir rahibin rəhbərliyi ilə kəndlilərdən ibarət böyük bir dəstə Şərqə doğru xaç yürüşünə başladı. Bu talançılar kütləsi keçdikləri hər yeri qarət edib dağıdırdı. Bir Qərb tarixçisinin dediyi kimi, onlar "ağıldan və insanlıqdan məhrum vəhşi heyvanlar" kimi idi. Konstantinopola çatan bu dəstəni gördükdə Bizans imperatoru çox məyus oldu. Tələsik Anadoluya ötürülən bu başıpozuq dəstələr Səlcuq ordusu tərəfindən darmadağın edildi.

1096-cı ilin sonlarına doğru qrafların və hersoqların rəhbərliyi altında cəngavərlərdən ibarət əsas xaçlı qoşunları qruplar halında Konstantinopola gəlməyə başladı. İmperator xaçlı başçılarının Şərqdə öz dövlətlərini qurmaq niyyətini elə ilk görüşdən başa düşdü. Buna görə də sahib olduğu üstünlüklərdən istifadə edərək xaçlı liderləri nəzarətdə saxlamaq istəyirdi. İmperator türklərdən alınacaq yerlərin onun ixtiyarına verilməsi, əvəzində xaçlılara ərzaq verilməsi və hərbi yardım göstərilməsi şərti ilə onlarla müqavilə bağladı. Xaçlı ordusunun baş komandanı yox idi. Bütün qərarlar xaçlı komandirlərin iştirak etdiyi məclisdə birgə qəbul edilirdi.

Anadoludakı Səlcuq türklərinin hərbi qüvvələrini məğlub edən xaçlılar Aralıq dənizinin Şərq sahillərindəki müsəlman torpaqlarını ələ keçirib, burada xaçlı dövlətləri yaratdılar. 1099-cu ildə başa çatan I Xaçlı yürüşü nəticəsində Qüds ələ keçirildi. Şəhərdəki müsəlman və yəhudi




əhaliyə qarşı dəhşətli qətliam törədildi. Xaçlı dövlətlərin ən böyüyü Qüds krallığı idi. Antioxiya knyazlığı, Edessa və Tripoli qraflıqları ondan vassal asılılığında idi.

**Birinci xaçlı yürüşü nəticəsində Yaxın Şərqdə baş vermiş siyasi dəyişiklikləri xəritədə göstərin.**

Mosul hakiminin Edessanı tutmasına cavab olaraq 1147–1149-cu illərdə II Xaçlı yürüşü baş verdi. Lakin yürüş iştirakçıları arasındakı ziddiyyətlər, Bizansın onlara dəstək verməməsi və səlcuqların mübarizəsi nəticəsində xaçlı ordusu məğlubiyyətə uğradı.

1187-ci ildə Təbəriyyə gölü yaxınlığındakı döyüşdə Misir hökmdarı Səlahəddin Əyyubinin ordusu Qüds krallığının qoşunlarını darmadağın edib Qüdsü azad etdi. Bu xəbər Avropanı sarsıtdı. 1189–1192-ci illərdə Müqəddəs Roma imperatorunun, İngiltərə və Fransa krallarının iştirakı ilə III Xaçlı yürüşü başlandı.

LAYİHƏ

**T** **Səlahəddin Əyyubinin həyatı və fəaliyyəti haqqında təqdimat hazırlayın.**

"Bu yürüş zamanı Səlcuq ordusunun göstərdiyi davranış hər cür tərifə layiqdir: Səlcuqlar zərbə vura-vura fransız ordusunu Dənizlidən Antalyaya qədər izlədi. Burada son zərbəni vurmaq üçün hərəkətə keçəndə dəhşətli mənzərə ilə qarşılaşdı: xaçlılar artıq döyüşə bilməyəcək qədər ac, xəstə və yorğun idi. Xaçlı ordusunun bu vəziyyətini görən türklər rəhmə gəlib birdən-birə döyüşü dayandırdılar. Onlar acları yedizdirib, xəstələri müalicə etdilər, onlara pul payladılar. Bu vəziyyətdən son dərəcə təsirlənən 3 min fransız gənc səlcuqların himayəsinə sığınaraq müsəlman oldu. Yürüşdə iştirak edən kralın keşişi bu vəziyyəti belə ifadə etmişdi: "Ey xəyanətdən daha qəddar olan rəhmət! Müsəlmanlar çörək verməklə xristianlardan dinini satın aldılar. Halbuki türklər onları müsəlman etmək üçün heç bir zor tətbiq etmədilər".

*Osman Turan. "Səlcuqlular zamanında Türkiyə"*

**S** **Türklərin xaçlı ordusuna göstərdiyi münasibəti müzakirə edin. Bu hadisə sizə hansı müharibəni xatırladır?**

İngiltərə və Fransa kralları Qüdsə getmək üçün dəniz yolundan istifadə edərkən Almaniya imperatoru Fridrix Barbarossa quru yoluna üstünlük verdi. Anadoluda qırğınlar törədən alman ordusu Konya şəhərini ələ keçirib dağıntılara məruz qoydu. Göysu çayını keçərkən alman imperatorunun suda boğulub ölməsi nəticəsində ordu dağıldı. Suriya və Fələstin əhalisi böyük bir fəlakətdən xilas oldu. İngilis və fransız krallarının da Qüdsü ələ keçirmək istəyi baş tutmadı.


Fridrix Barbarossa

Ərəb tarixçisi İbn əl-Əsir öz əsərində imperatorun ölüm xəbərini belə qələmə alır: "Alman imperatoru yuyunmaq üçün çaya girdi və suyun belinə belə çatmadığı bir yerdə boğuldu. Beləcə, Allah müsəlmanları onun şərindən qorudu".

*Öndər Kaya. "Avropa tarixi"*

**S** **Sizcə, mənbə müəllifinin istehzalı münasibətinin səbəbi nədir?**

Romanın xristianlığın tək mərkəzi olmasını istəyən Papa III İnnokenti növbəti xaçlı yürüşünün təşkilatçılığını öz üzərinə götürdü. O, yürüşün məsrəflərini qarşılamaq üçün yeni vergi təyin etdi. Səfərin Misir üzərinə olması qərarlaşdırıldığından çoxlu gəmiyə ehtiyac var idi. Aparılan danışıqlar nəticəsində Venesiya lazım olan köməyi verəcəyini bildirdi.


Səlahəddin Əyyubi

1202–1204-cü illərdə IV Xaçlı yürüşü baş verdi. Venesiyanın təkidi ilə xaçlı ordusu marşrutu dəyişib Konstantinopola hücum etdi. 1204-cü ildə Konstantinopolu ələ keçirən xaçlılar burada Latın imperiyasını yaratdılar (1204–1261). Yalnız 57 il sonra latınlar buradan qovuldu və Bizans imperiyası bərpa edildi. Konstantinopolda törədilən vəhşiliklər xaç yürüşlərinin siyasi məqsədlərini daha qabarıq şəkildə büruzə verdi. Müqəddəs Sofiya kilsəsinin qarət olunması isə özlərini "din uğrunda müqəddəs müharibənin iştirakçıları" kimi təqdim edən xaçlıların əsil simasını açıb göstərdi.

XIII yüzilliyin sonlarınadək Şərqə doğru daha dörd yürüş təşkil olunsa da, sonda xaçlılar müsəlman ölkələrində əldə etdikləri bütün torpaqlardan qovuldular.

**S** **Müsəlman ölkələri üzərinə baş vermiş daha hansı yürüşləri xaçlı yürüşlərinə bənzətmək olar?**

LAYİHƏ

# Avropada müsəlmanlara qarşı xaçlı yürüşləri

VIII yüzilliyin əvvəllərində ərəblərin Pireney yarımadasını işğal etməsi nəticəsində burada Kordova əmirliyi yaradıldı. Abbasilər sülaləsi hakimiyyətə gəldikdən sonra onlardan asılılığı qəbul etməyən əmirlik bir müddət sonra Kordova xilafəti adlandırılmağa başladı. Ərəblərin hakimiyyəti dövründə İspaniyada sənətkarlıq və ticarət tərəqqi etmiş, şəhərlər yüksəliş dövrü keçirmişdir. Bu da, öz növbəsində, mədəniyyətin inkişafına təsir göstərmişdir. Avropa ölkələri Kordova xilafəti vasitəsilə müsəlman alimlərinin müxtəlif elm sahələrinə dair əsərləri ilə tanış olmuşlar.

Roma papaları xristian əhalini buradakı müsəlman və yəhudilər üzərinə xaçlı yürüşünə təşviq edirdilər. Pireney yarımadasında başlayan **rekonkista** (ərəblərin hakimiyyəti altında olan ərazilərin geri alınması) hərəkatının nəticəsində Kordova xilafəti XI yüzilliyin əvvəllərində bir sıra əmirliklərə parçalandı.

Yarımadanın müxtəlif ərazilərində Kastiliya, Araqon kimi ispan dövlətləri və Portuqaliya krallığı meydana gəldi. Papalıq rekonkista hərəkatını "xaçlı yürüşü" elan edərək Avropa cəngavərlərini "aypara"ya qarşı "müqəddəs" müharibədə igidlik göstərməyə çağırırdı.

Aralarında birlik olmayan müsəlman əmirlikləri bir-birinin ardınca xristian dövlətlər tərəfindən ələ keçirildi. Ərəblərin əlində yalnız Qranada əmirliyi qaldı. 1479-cu ildə Araqon və Kastiliya krallıqları vahid dövlətdə birləşdi. Bu hadisə İspaniyada kral hakimiyyətinin güclənməsində mühüm addım oldu. Ölkə daxilində mövqelərini möhkəmləndirən ispan kralları əsas zərbəni Qranada əmirliyinə qarşı yönəltdilər. Uzun sürən müharibədən sonra 1492-ci ildə Qranada təslim oldu. Ərəblər Qranadanı onların və yəhudilərin mülkiyyətləri ilə yanaşı, dini azadlıqlarının saxlanılması şərtilə təslim etsələr də, ispanlar verdikləri vədlərə əməl etmədilər. Müsəlmanlar və yəhudilər ya xristianlığı qəbul etməli, ya da ki İspaniyanı tərk etməli idilər. Onların böyük hissəsi Afrikaya köçdü. Qranadanın süqut etməsi ilə bütün Pireney yarımadası, Portuqaliya istisna olmaqla, ispan krallarının əlinə keçdi.

**T** **Rekonkista hərəkatı ilə bağlı cədvəli tamamlayın.**

REKONKİSTA

SƏBƏBLƏRİ | NƏTİCƏLƏRİ

# Xaçlı yürüşlərinin nəticələri

XI–XIII yüzilliklərdə baş vermiş xaçlı yürüşləri Şərq ölkələrinə böyük dağıntılar və fəlakətlər gətirdi. Hər yerdə talançılıq və qətliamlarla müşahidə olunan bu yürüşlər zamanı kənd təsərrüfatına, şəhər həyatına, mədəniyyətə, sənətkarlıq və ticarətə sarsıdıcı zərbə vuruldu. Müsəlmanların, yəhudilərin və Şərq xristianlarının amansızlıqla qətl edilməsi bölgə əhalisinə qorxu hissi aşılamaqla yanaşı, burada yaradılan xaçlı dövlətlərin təhlükəsizliyini təmin etmək məqsədinə xidmət edirdi. Xaçlıların törətdikləri vəhşiliklər, verdikləri vədlərə əməl etməmələri və bağladıqları sazişləri birtərəfli qaydada pozmaları şərqlilərdə avropalılara qarşı inamsızlıq yaratdı. Bizanslıların və müsəlmanların "frank" adlandırdıqları katoliklərin nümayiş etdirdiyi qeyri-insani davranışlar, Qərbdən kömək istəyən Bizans imperatorlarını məyus etdi.
IV Xaçlı yürüşündən sonra Bizans Aralıq dənizində ticarət üstünlüyünü itirdi. Bundan sonra o, Venesiya və Genuya kimi İtaliya şəhər-dövlətləri ilə rəqabət apara bilmədi.

Xaçlı yürüşlərindən daha çox faydalanan papalıq Qərbi Avropanın ən zəngin sərvət sahibinə çevrildi. Birinci xaçlı yürüşündən sonra nüfuzu artan Roma papaları bu gücdən və sərvətdən düzgün istifadə edə bilmədilər. Xaçlı yürüşlərində

LAYİHƏ




iştirak edə bilməyənlərdən "peşmanlıqdan təmizlənmək üçün pul", "pulla günahların bağışlanması" kimi dindən sui-istifadəni sübut edən vergilərin yığılması papaları gözdən saldı. Onlara olan inam və etibar azaldı. Bu da gələcəkdə Avropada dini islahat tərəfdarlarının meydana çıxmasına səbəb oldu.

Xaçlı dövlətlərin qurulması Şərqdə xristianlığın yayılması üçün missionerlik fəaliyyətinə təkan verdi. Xristian Qərb dünyası müsəlman türklərlə apardığı savaşlarda onları yaxından tanımaq imkanı əldə etdi. Türklərin döyüşkənliyini yüksək qiymətləndirən xaçlı salnamələrinin birində "türklərdən və franklardan başqa heç kəsin cəngavər ola bilməyəcəyi" iddia edilir və göstərilirdi ki, "türklər xristian olsa idilər, qüdrət, igidlik və savaş elmində heç kim onlara bərabər ola bilməzdi".

Avropa xalqlarının xarici aləmi tanımalarında xaç yürüşlərinin böyük rolu oldu. Şərq ölkələri ilə ticarət canlandı, burada istehsal olunan mallara tələbat artdı. Bu vəziyyət Avropada nəqliyyat, gəmiçilik və bankçılıq kimi sahələrin inkişafını təmin etməklə yanaşı, həm də coğrafi kəşflərin əsas şərtlərini hazırladı.

Xaçlı yürüşləri İslam dünyasının elm, texnika və mədəniyyət sahələrindəki nailiyyətlərinin Qərbə ötürülməsində əsas vasitə oldu. Avropalıların məişət həyatında və gündəlik gigiyena qaydalarında dəyişikliklərə gətirib çıxardı. Bir sözlə, xaçlı yürüşlərinin Şərq ölkələrinə bəxş etdiyi bədbəxtliklər üzərində avropalıların gələcək firavan həyatının təməli qoyuldu.

**T** **Xaçlı yürüşlərinin nəticələri ilə bağlı sxem hazırlayın.**

"Papa II İohan Pavel(1978–2005) müsəlmanlardan, yəhudilərdən və Şərq xristianlarından katolik kilsəsinin keçmişdə işlədiyi günahlara görə üzr istəmiş, inkvizisiya məhkəmələrində və xaç yürüşlərində din adına işlənən işgəncə və cinayətlərdən ötrü bağışlanmaq məqsədilə: "Biz bağışladıq və sizin də bağışlamağınızı istəyirik", – demişdir.

---

*İbrahim Edhem Polat "Doğu və Batı kaynaklarında Haçlı səfərlərində yaşanan insanlık ihlalleri". Uluslararsı suçlar və tarih dergisi.*

**S** **Papanın sözləri nəyi sübut edir?**

**T** **Roma papaları II Urbanla II İohan Paveli müqayisə edin.**

LAYİHƏ



# QƏRBİ AVROPADA MƏRKƏZLƏŞDİRİLMİŞ DÖVLƏTLƏRİN YARANMASI

Norman işğalı, Vilhelm, Böyük azadlıqlar xartiyası, Parlament, IV Filipp, Baş ştatlar, Yüzillik müharibə, "qara ölüm"

## Norman işğalı

X yüzillikdə vikinqlərin bir hissəsi olan **normanlar** (ingiliscə – şimal adamı) Fransanın şimalında məskunlaşmışdı. Fransa kralının onların başçısına burada mülk verməsi ilə Normandiya hersoqluğu yarandı.

1066-cı ildə Normandiya hersoqu **Vilhelmin** başçılığı ilə ağır silahlı cəngavərlər ordusu İngiltərə sahillərinə çıxdı və **Hastinqs döyüşündə** İngiltərə kralının piyadalardan ibarət ordusunu məğlub etdi. Vilhelm özünü İngiltərə kralı elan etdi. Yeni kral norman cəngavərlərinə torpaq sahələri payladı və bütün zadəganları İngiltərənin yeganə hökmdarı kimi ona sadiqlik andı içməyə məcbur etdi.

Norman hakim təbəqəsi fransızca danışırdı. Lakin normanların anqlo-sakson zadəganları ilə qohumluq əlaqələri onları tədricən yeni ingilis mədəniyyətində birləşdirdi.

**S** **Norman işğalını İngiltərə tarixinin dönüş nöqtəsi hesab etmək olarmı? Mülahizələrinizi əsaslandırın.**


Hastinqs döyüşü

V yüzilliyin əvvəllərində Şimali Avropada yaşayan alman tayfaları: anql və sakslar Britaniyanı işğal etdilər. Burada yeddi krallıq meydana gəldi. IX yüzilliyin sonlarında isə vahid krallıqda birləşdilər. Anqlların adı ilə bağlı olaraq bu krallıq İngiltərə adlandırıldı.

Vilhelm əhali və əmlakın siyahıya alınmasını apardı. Bu, Roma dövründən bəri Avropada aparılan ilk siyahıyaalınma idi. Angl-saks krallarının tətbiq etdiyi vergi sistemi və kral məhkəməsi təkmilləşdirildi.

XII yüzilliyin ikinci yarısında **II Henrixin** dövründə kral hakimiyyəti genişləndirildi. Kral məhkəməsinin səlahiyyətləri artırıldı. Bu məhkəmələr bütün İngiltərəni əhatə etdiyindən ölkə üçün ümumi olan qanunlar yerli qanun məcəllələrini əvəz etməyə başladı.

II Henrixin kilsə üzərində kral nəzarəti tətbiq etmək niyyəti ictimai narazılıq nəticəsində çox da uğurlu olmadı.


II Henrix

LAYİHƏ

# Böyük azadlıqlar xartiyası və ilk Parlament

XIII yüzilliyin əvvəllərində Fransa ilə aparılan müharibələr böyük vəsait tələb edirdi. Ona görə də kral tez-tez feodallardan, kilsədən və əhalinin digər təbəqələrindən alınan vergiləri artırırdı. Kilsə işlərinə qarışması kral ilə Roma papası arasında münaqişəyə səbəb oldu. Papa kralın taxt-tacdan məhrum edilməsi haqqında fərman verdi. Təbəələrinin ona qarşı üsyana qalxacağından ehtiyat edən kral özünü papanın vassalı elan etdi. Bu hadisə ölkədə iri feodallar, cəngavərlər və şəhərlilərin üsyanına səbəb oldu. Kral üsyançıların tələblərini qəbul etməyə məcbur oldu və 1215-ci ildə **Böyük azadlıqlar xartiyasını** imzaladı. Sənəddə iri feodallara geniş, cəngavər, şəhərli və azad kəndlilərə məhdud hüquqlar verilirdi. Kral vassallarından və təbəələrindən müəyyən ediləndən artıq vergi ala bilməzdi. Bütün azad adamlar kral məmurlarının özbaşınalığından və hədsiz cərimələrdən qorunmalı idi. Şəhərlərin mövcud azadlıqları təsdiq edildi. Lakin kral bu sənəddə təsbit edilən hüquqlara əməl etmədi və üsyançılara qarşı müharibəyə başladı. Kral və üsyançılar arasında münaqişə uzun müddət davam etdi. Bu münaqişənin gedişində 1265-ci ildə İngiltərə tarixində ilk dəfə olaraq iri feodallar, ali ruhanilər, cəngavər və şəhərlərin nümayəndələrinin təmsil olunduğu **parlament** çağırıldı. Kral vergiləri parlamentlə razılaşdırdıqdan sonra təyin edə bilirdi. XIV yüzillikdə parlament vergi təyin etmək hüququ ilə yanaşı, qanunların verilməsində də iştirak etmək hüququ qazandı.

**S** **Böyük azadlıqlar xartiyası və parlament kral hakimiyyətini məhdudlaşdırdımı? Fikirlərinizi əsaslandırın.**


İngiltərə parlamenti


Böyük azadlıqlar xartiyasının imzalanması

LAYİHƏ

# Fransada Baş ştatlar

**XI yüzilliyin ikinci yarısında** İngiltərəni işğal edərək özünü bu ölkənin kralı elan edən Normandiya hersoqu Fransadakı mülklərini də öz nəzarətində saxlayırdı. XII yüzilliyin sonu – XIII yüzilliyin əvvəllərində Fransada kral hakimiyyəti güclənməyə başladı. Fransa ərazilərinin bir hissəsini öz nəzarətində saxlayan İngiltərə kralına qarşı müharibə nəticəsində Normandiya və Akvitaniya geri qaytarıldı.

**IV Filippin (1285–1314)** hakimiyyəti dövründə Fransada kral hakimiyyəti daha da gücləndi.

IV Filippin kilsə torpaqlarından vergilər almağa başlaması Roma papası ilə münaqişəyə səbəb oldu. O, ölkənin bütün təbəqələrinin dəstəyini qazanmaq üçün 1302-ci ildə **Baş ştatlar** adlanan məclis çağırdı. Nəticədə Papaya qarşı mübarizədə IV Filipp qalib gəldi.


IV Filipp


Fransada ilk Baş ştatlar (Fransa Tarix Muzeyi)

# Yüzillik müharibə

XIII yüzilliyin əvvəllərində İngiltərə kralı hələ də Fransada kiçik bir mülkə sahib idi. **1337-ci ildə** Fransa kralının bu ərazini ələ keçirməsi İngiltərə ilə müharibəyə səbəb oldu. Beləliklə, İngiltərə ilə Fransa arasında 1453-cü ilə qədər davam edən **Yüzillik müharibə** başlandı. Müharibəyə bəhanə İngiltərə kralının Fransa taxtına iddiası oldu.

Yüzillik müharibənin əsas döyüşlərində atlı cəngavərlər deyil, kəndli piyadaları qalib gəldi. Fransa ordusunun əsasında ağır silahlanmış süvari cəngavərlər dayanırdı. Bu cəngavərlər aşağı sosial təbəqələrə məxsus piyada əsgərlərə nifrətlə baxırdılar. İngilislər ağır silahlanmış süvarilərdən istifadə etsələr də, onlar daha çox kəndlilərdən ibarət piyada qoşuna güvənirdilər. Onlar nizələrlə yanaşı, həm də uzun yaya malik oxlarla silahlanmışdılar. Belə yaylarla oxu sürətlə daha uzun məsafəyə atmaq mümkün idi.

1346-cı ildə **Kresi döyüşündə** sayca çox olan fransız ordusu nizamsız şəkildə ingilis cərgələrinə hücum etdi. İngilis oxatanları fransız süvarilərini darmadağın etdi. Sonrakı döyüşlərdə də ingilislər qalib gəldi.

YÜZİLLİK MÜHARİBƏNİN SƏBƏBLƏRİ

- İngiltərə kralının hakimiyyəti altında olan cənub-qərbi Fransa əraziləri uğrunda mübarizə
- Flandriya uğrunda rəqabət

LAYİHƏ




1429-cu ildə fransız kəndli qızı – **Janna d'Ark** qorxaq kralı xilas etdi. O, Fransız ordularında qələbəyə inam yaratdı. Janna d'Arkın başçılığı ilə fransız ordusu müharibədə dönüş yaratdı. Lakin o, 1430-cu ildə həbs olunaraq cadugərlik ittihamı ilə ingilislər tərəfindən ölümə məhkum edildi.

**1453-cü ildə** Yüzillik müharibə Fransanın qələbəsi ilə başa çatdı. Fransanın qalib gəlməsində kral tərəfindən daimi qoşunun yaradılması və yeni silah olan toplardan istifadə də mühüm rol oynadı. Yüzillik müharibə döyüş usullarında mühüm dönüş nöqtəsi oldu. Toplardan istifadə edilməyə başlanması cəngavər süvari qoşunlarının tədricən əhəmiyyətini itirməsinə təsir göstərdi.

## "Qara ölüm"

XIV yüzillik **"Qara ölüm"** adlanan vəba epidemiyası Avropanın əhalisini xeyli azaltdı. Bu isə orta əsrlərin sonlarında əhəmiyyətli iqtisadi və sosial dəyişikliklərə səbəb oldu. Qara siçovullar tərəfindən yayılan "Qara ölüm" Avropa tarixindəki ən dağıdıcı təbii fəlakət idi. Ticarət əlaqələri bu epidemiyanın yayılmasına şərait yaratdı. Avropa əhalisinin yarıdan çoxu vəbadan öldü.

O dövrdə insanlar vəbanın nədən qaynaqlandığını bilmirdilər. Çoxları bunun Tanrı tərəfindən günahlarının cəzası olaraq göndərildiyinə, ya da şeytan tərəfindən törədildiyinə inanırdı. Bəziləri isə yəhudiləri su

LAYİHƏ

quyularını zəhərləməklə vaba xəstəliyini yaymaqda ittiham etdilər. Bu isə yəhudilərə qarşı düşmənçiliyin alovlanmasına səbəb oldu. Yəhudilərə qarşı ən dəhşətli hücumlar Almaniyada baş verdi. İnsan ölümünün çoxluğunun ağır iqtisadi nəticələri oldu. Ticarət azaldı və işçi qıtlığı əməkhaqqının kəskin artmasına səbəb oldu. Eyni zamanda, əhalinin sayının azalması ərzağa tələbatı azaltdı. Nəticədə qiymətlər aşağı düşdü. Yaranmış vəziyyət kəndlilərin təhkimçilikdən azad edilməsinə də təsir göstərdi.

**Epidemiyanın hansı sosial-iqtisadi nəticələri oldu? Müasir dövrdə epidemiya insanların həyatına necə təsir göstərə bilər?**

# Mərkəzləşdirilmiş dövlətlərin yaranması

Yüzillik müharibə Fransanı gücdən salsa da, eyni zamanda ümumi düşmənə qarşı fransız xalqının birliyini inkişaf etdirdi. Kral bu birlik duyğusundan mərkəzləşdirilmiş dövlətin yaradılmasında istifadə etdi.

Kral **XI Lüdovikin (1461–1483)** hakimiyyəti dövründə mərkəzləşdirmə prosesi gücləndi. Yeni tətbiq edilən illik vergi kral xəzinəsinin müntəzəm gəlir mənbəyinə çevrildi.



Kral XI Lüdovik

Bu da Fransada kral hakimiyyətinin güclənməsinə şərait yaratdı.

Yüzillik müharibə İngiltərənin tarixi inkişafına da təsirsiz qalmadı. Müharibə xərcləri və işçi qüvvəsinin itkisi iqtisadiyyata mənfi təsir göstərdi. Bu müharibədən az sonra ölkədə daxili münaqişə başlandı. İki feodal qrupu arasında hakimiyyət uğrunda baş verən bu hadisə onların bayraqlarındakı təsvirlərə görə **Al qızılgül və Ağ qızılgül müharibəsi (1455–1485)** adlanırdı.

Müharibə nəticəsində **VII Henrix Tüdor** qalib gəldi. Beləliklə, İngiltərədə yeni sülalə – **Tüdorlar** hakimiyyətə gəldi.

VII Henrix kral hakimiyyətini gücləndirmək üçün tədbirlər gördü. Feodalların hərbi dəstələrini ləğv etməklə ara müharibələrinə son qoydu. Zadəganlar və orta təbəqə üzərinə az vergi qoymaqla onların dəstəyini qazandı.

Məlum olduğu kimi, rekonkista hərəkatının gedişində Pireney yarımadasında bir neçə müstəqil xristian krallığı yaranmışdı. XV yüzilliyin ikinci yarısında burada ən güclü krallıqlardan olan **Araqon** və **Kastiliya** birləşdi. Bu, **İspaniyada** mərkəzləşdirilmiş dövlətin yaranması prosesində mühüm addım oldu.

1492-ci ildə İspaniyada son müsəlman dövləti olan **Qranada əmirliyi** süqut etdi. Beləliklə, Pireney yarımadasında **İspaniya** və **Portuqaliya** krallıqlarının hakimiyyəti quruldu. Bundan sonra burada yaşayan müsəlmanlara və yəhudilərə qarşı cəza tədbirləri həyata keçirdilər.

**Mərkəzləşdirilmiş dövlətlərin yaranma xüsusiyyətlərini təhlil edərək cədvəli tamamlayın.**

| | |
|---|---|
| İngiltərə | |
| Fransa | |
| İspaniya | |

LAYİHƏ



Qranadanın süqutu. Rəssam Fransisko Pradilla. Senat sarayı, İspaniya.

# Müqəddəs Roma imperiyası

Almaniya kralı **I Otto** Papanın müdafiəsi müqabilində 962-ci ildə Roma imperatoru elan edilmişdi. Sonralar bu dövlət **Müqəddəs Roma imperiyası** adlandırıldı. XII yüzillikdə imperiyanın İtaliyanın şimalını işğal etmək cəhdi uğursuz oldu. İtaliyanın şimal şəhərləri ilə Papanın ittifaqı imperatoru məğlub etdi.

Papa ilə mübarizə Müqəddəs Roma imperiyası üçün ağır nəticələrə səbəb oldu. Almaniyada mərkəzi hakimiyyət zəiflədi və müstəqil knyazlıqlara parçalandı. Müqəddəs Roma imperatoru Almaniya və İtaliya üzərində nüfuzunu itirdi. Fransa və İngiltərədən fərqli olaraq **Almaniya** və **İtaliyada** orta əsrlərdə mərkəzləşdirilmiş dövlət yaranmadı. Həm Almaniya, həm də İtaliya çoxlu kiçik, müstəqil dövlətlərdən ibarət idi. XIX yüzilliyə qədər bu ölkələrdə siyasi dağınıqlıq davam etdi.

**Orta əsrlərin ikinci mərhələsində Almaniya və İtaliyada tarixi inkişafın Fransa və İngiltərədən fərqli cəhətlərini təhlil edin.**

**Zaman oxunda verilmiş tarixlərə aid mühüm hadisələri müəyyən edin.**

1066 → 1215 → 1265 → 1302 → 1337 → 1453 → 1492

LAYİHƏ




# MƏDƏNİYYƏT

“Nizamiyyə”, universitet, Mahmud Kaşğari, Yunis Əmrə, Gur Əmir türbəsi, humanistlər, Leonardo da Vinçi

## Təhsil və elm

Şərqin elm və mədəniyyət sahəsində yüksək nailiyyətlər əldə etməsi daha çox İslam intibahı dövrünə aiddir. Ümumdünya mədəniyyətinə bənzərsiz incilər bəxş etmiş türk xalqları əvvəllər yaratmış olduqları möhtəşəm mədəniyyət nümunələrini klassik feodalizm dövründə daha da zənginləşdirmişdir. Bu dövrdə təhsil və elm inkişaf etmişdir.


Uluqbəy mədrəsəsi

Böyük Səlcuq sultanı Alp Arslanın göstərişi ilə vəzir Nizamülmülk tərəfindən XI yüzilliyin 60-cı illərində Bağdadda açılan “Nizamiyyə” mədrəsəsi dünyanın ilk universitetlərindən biri hesab olunur. Bu ali mədrəsədə dini biliklərlə yanaşı, hüquq, filologiya, riyaziyyat, astronomiya elmləri də tədris edilirdi. Böyük azərbaycanlı alim Xətib Təbrizi "Nizamiyyə" mədrəsəsində dərs demişdir.


Uluqbəy

XIV yüzilliyin əvvəllərində Təbrizdə yaradılan mədrəsə müsəlman Şərqinin ikinci ali təhsil ocağı idi. Teymuri hökmdarı Uluqbəy də ölkədə mədrəsələrin tikilməsinə xüsusi diqqət yetirirdi.

**Şərq ölkələrində təhsilin inkişaf xüsusiyyətlərini izah edin.**

Astronomiya elminin inkişafında mühüm nailiyyətlər əldə edilmişdi. İsfahan rəsədxanasına rəhbərlik etmiş, dövrünün dahi şairi, riyaziyyatçısı, astronomu


Ömər Xəyyam

LAYİHƏ

və filosofu hesab edilən Ömər Xəyyam Səlcuq hökmdarı Məlikşahın şərəfinə "Cəlali təqvimi"ni tərtib etmiş, orada Yerin Günəş ətrafında fırlanması fikrini irəli sürmüşdür. Burada o, Miladi təqvimindən daha dəqiq hesablamalar aparmağa nail olmuşdu. Astronomiya ilə bağlı tərtib etdiyi 100-dən artıq ulduzun adının verildiyi "Məlikşah cədvəli" kataloqunun ancaq müəyyən hissəsi müasir dövrə gəlib çatmışdır.

Ulduz bürclərinin dövri adının (sıçan, öküz, bəbir, dovşan, timsah, ilan, at, qoyun, meymun, toyuq, it, donuz) türk dilində verilməsi digər türk astronomu Mahmud Qaşğarinin adı ilə bağlıdır.

Teymuri hökmdarı Uluqbəyin astronomiyanın inkişafında xidmətləri daha çox olmuşdur. O, Səmərqənddə yaratdığı və hündürlüyü 55 m olan məşhur rəsədxanada səma cisimlərinin hərəkətini göstərən cədvəl düzəldərək Ay və Günəşin orbitlərini müəyyənləşdirmişdi. Uluqbəyin adı Ayın xəritəsinə daxil edilmişdir.

S **Hansı təqvimlər haqqında məlumatınız var? Təqvimlərin tərtib olunması hansı zərurətdən irəli gəlirdi?**

Coğrafiya elminin inkişafında Çin dənizçilərinin rolu danılmazdır. Çin alimləri Hindistandan Afrikayadək bütün ölkələri öyrənmiş və bu barədə qiymətli tədqiqat əsərləri yazmışdılar. Osmanlı dövlətinin fəthləri artdıqca coğrafiyaya dair biliklər də inkişaf edirdi.

Tibb elminin inkişafına xüsusi diqqət yetirilirdi. Osmanlı dövlətinin Ədirnə və Azərbaycanın Təbriz şəhərlərində "Darüşşəfa" adlı xəstəxanalar açılmışdı. Görkəmli Azərbaycan alimi Fəzlüllah Rəşidəddinin tibbə aid əsərləri ona böyük şöhrət qazandırmışdı. İlk "Farmakologiya" kitabı Çində yazılmış və müxtəlif müalicə üsulları müəyyən olunmuşdu. XIII-XIV yüzilliklərdə Çində barıt və metal top ixtira edilmişdi.


Şərqdə mədrəsə

T **Şərq ölkələrində elmin inkişafına təsir göstərən amilləri müəyyən edin.**

LAYİHƏ

Qərbi Avropada erkən orta əsrlərə nisbətən XI-XV yüzilliklərdə təhsil, elm və incəsənət xeyli inkişaf etmişdi. Kilsə məktəbləri artıq şəhər özünüidarə orqanlarının və kral sarayının savadlı adamlara olan tələbatını ödəmək iqtidarında deyildi. Ona görə də dünyəvi məktəblər açılır, ali məktəblər meydana gəlirdi.

XII yüzillikdə Avropada ilk ali məktəblər olan universitetlər meydana gəldi. Dərslər hər yerdə latın dilində tədris olunurdu. Ona görə də avropalılar istədikləri universitetlərdə oxuya bilirdilər. Avropada ilk universitet 1158-ci ildə İtaliyada, Boloniya şəhərində açılmışdı. Sonralar Fransa, İngiltərə və digər Avropa ölkələrində də belə təhsil müəssisələri yaradılmağa başlandı. Bu universitetdə, əsasən, hüquq, təbabət və incəsənət elmləri tədris olunurdu. Bir müddət sonra Parisdə, Oksfordda, Praqada və Krakovda belə universitetlər fəaliyyətə başladı.

**İqtisadi tərəqqinin elm və təhsilin inkişafına təsirini izah edin.**

**Orta əsrlərdə Avropada yaranmış hansı universitetlər bu gün də öz əhəmiyyətini saxlayır?**

Sürətlə böyüyən və abadlaşan şəhərlər üçün daha çox savadlı adamlar tələb olunurdu. Bunun da nəticəsində şəhərlərdə zehni əməklə məşğul olan xüsusi adamlar qrupu – ziyalılar meydana gəlirdi. Kilsə təlimi ilə bağlı olmayan biliklərin meydana gəlməsi təsərrüfatın inkişafı ilə bağlı idi.



Boloniya Universiteti

XIII yüzillikdə İngiltərədə yaşamış Oksford Universitetinin professoru Rocer Bekon biliyin müşahidə və təcrübənin köməyi ilə əldə edildiyini bildirirdi. Rocer Bekonun "Böyük əmək" əsərini o dövrün ensiklopediyası adlandırmaq olar.




Rocer Bekon

Qərbi Avropada mədəniyyət sahəsində baş verən böyük irəliləyişlərin səbəblərindən biri də avropalıların xaçlı yürüşləri zamanı Şərq – İslam sivilizasiyası ilə təmasda olmaları və xeyli yeni məlumatlar əldə etmələri idi. Bu yürüşlər başa çatdıqdan sonra da avropalıların Şərq ölkələrinə marağı azalmırdı. XIII yüzillikdə venesiyalı tacir və səyyah Marko Polo Uzaq Şərqə səyahət edərək uzun illər Çində yaşamışdır. Onun Asiya ölkələrindən bəhs edən əsərləri uzun müddət avropalıların həmin ölkələr haqqında təsəvvürünü müəyyən etməsinə, coğrafiya xəritələrinin çəkilməsinə zəmin yaratmışdı.



Marko Polo

Bu dövrdə İtaliyada mədəni yüksəliş baş verirdi. Yeni mədəniyyətin nümayəndələrinin diqqətini daha çox insan və onun fəaliyyəti cəlb edirdi. Onları humanistlər adlandırırdılar. Müşahidə və təcrübələr aparan alimlər hadisələri izah etməyə, onların səbəblərini öyrənməyə çalışırdılar. Humanistlər Qədim Yunanıstan və Roma mədəniyyətinə böyük maraq göstərirdilər. Humanistlər öz əsərlərini

LAYİHƏ



Rafaelin "Afina məktəbi" rəsmi

latın dilində deyil, ana dilində yazmağa üstünlük verirdilər. Onlar belə hesab edirdilər ki, insanı ictimai həyatda nəslinin qədimliyi, yaxud adı-sanı deyil, öz əməyi və xidmətləri daha çox məşhurlaşdırır.

Yeni mədəniyyətin yarandığı dövr İntibah dövrü adlanır. İtaliyanın Florensiya şəhəri intibah mədəniyyətinin mərkəzinə çevrilmişdi.

Bu dövrdə elmi biliklər kağız üzərində əl ilə yazılaraq çoxaldılırdı. Bu, kitaba olan tələbatı ödəmirdi. Elmi biliklərin çoxalması, savadlı insanlara ehtiyacın olması kitablara qarşı tələbatı artırırdı.

Alman alimi Quttenberq 1445-ci ildə çap üsulu ilə ilk kitabını buraxdı. Onun çap etdiyi ilk kitab "İncil" idi. Bəşəriyyət tarixində ən böyük ixtiralardan biri olan kitab çapı tədricən bütün Avropaya yayıldı, biliklərin daha sürətli və geniş şəkildə inkişafına şərait yaratdı, təhsilin, elmin və ədəbiyyatın inkişafına təkan verdi.

**T** **Avropa intibahını İslam intibahı ilə müqayisə edin.**

**T** **"Qərbi Avropada elmin inkişafında Şərq alimlərinin rolu" adlı məruzə hazırlayın.**



Quttenberqin kitab çapı

LAYİHƏ

# Ədəbiyyat

Dövrün görkəmli türk alimi, ədəbiyyatşünası və folklorçusu Mahmud Kaşğari idi. O, 1077-ci ildə yazılmış "Divanü lüğat-it-türk" ("Türk dillərinin divanı") əsərinin müəllifidir. Lüğətdə türk dillərinin zənginliklərini əks etdirən misallar, xalq şeiri nümunələri, atalar sözləri və məsəllərə yer verilmiş, əsərin sonuna o dövrdə türk xalqlarının yaşadıqları ərazilərin təsvirini verən ilk xəritə əlavə olunmuşdur. Burada Balasaqun şəhəri dünyanın mərkəzi olaraq göstərilmişdir.

Tanrının inayəti ilə günəş türk bürclərində doğdu və göylərin bütün dairələri onların mülkləri üzərində döndü. Tanrı onlara türk adını verdi və onları yer üzünə hakim qıldı. ...onları hamıdan üstün etdi, onları haqq üzrə qüvvətləndirdi. Tükrlərlə əlbir olanları və tərəfdarlarını əziz tutdu, türklərin sayəsində bütün arzularına çatdırdı, pislərin, qaragüruhun şərindən qorudu. Türklərin oxlarından qoruna bilmək üçün onların yolunu tutmaq hər bir ağıllı adama layiq və münasibdir. Dərdini söyləmək və türklərin könlünü fəth etmək üçün onların dilində danışmaqdan başqa yol yoxdur.

---

*Mahmud Kaşğari. "Divanü lüğat-it-türk"*

**Mənbədə verilmiş məlumatları müzakirə edin.**



Mahmud Kaşğari

Mövlanə Cəlaləddin Rumi, Yunis Əmrə, İmadəddin Nəsimi və Əlişir Nəvai dövrün ən məşhur türk-müsəlman şairləri olmuşdur.



Mahmud Kaşğarinin türklərin yayıldığı ərazini göstərən xəritəsi



Cəlaləddin Rumi



Yunis Əmrə



İmadəddin Nəsimi



Əlişir Nəvai

LAYİHƏ

**Türk ədəbiyyatının inkişafında Yunis Əmrənin rolu mövzusunda referat hazırlayın.**

Şifahi xalq yaradıcılığının ən böyük nümayəndəsi, türk hazırcavablığının, zəkasının parlaq timsalı Xoca (Molla) Nəsrəddindir. Molla Nəsrəddinin adı ilə bağlı Azərbaycanda da maraqlı lətifələr yaranmışdır.

Çində bədii ədəbiyyatın əsas mövzusu işğalçılara qarşı mübarizə və xalq həyatının təsviri idi.Orta əsr şəhərlərində şairlər xalq mahnıları və rəvayətləri toplayır, ədəbi əsərlər yaradırdılar. Avropada cəsur və alicənab cəngavərlərin vəsf edilməsi geniş yayılmışdı.



Molla Nəsrəddin

Orta əsr ədəbiyyatının ən böyük əsəri Dantenin "İlahi komediya"sı idi. Dante öz fəaliyyətinin ilk dövrlərində doğma şəhəri Florensiyada siyasi işlərdə çalışmışdı. O, dünyəvi şəxs olsa da, yaxşı dini, fəlsəfi və ədəbi təhsil almışdı. "İncil"i bilməklə yanaşı, ilahiyyat elmlərinin çoxunu mənimsəmiş  Dante Vergilinin və bir çox Antik dövr mütəfəkkirlərinin əsərləri ilə yaxından tanış olmuşdu. O, Florensiyadan sürgün edilmiş və ömrünün qalan hissəsini sürgündə keçirmişdi. "İlahi komediya"da şairin cəhənnəmə, Ərafa və cənnətə olan səyahəti təsvir edilir.



Dante

# Memarlıq və incəsənət

Şərq ölkələrində incəsənət növlərindən ən çox memarlıq inkişaf etmişdi. Bu dövr türk memarlığı öz zənginliyi və çoxcəhətliliyi ilə seçilirdi.

Səlcuq dövlətində yaşamış memarlar çoxlu saray, karvansara, məscid, mədrəsə, türbə və günbəzlər inşa etmişdilər. Memarlığın inkişafı baxımından Səmərqənd, İstanbul, Təbriz kimi şəhərlər daha çox fərqlənirdi. Əmir Teymurun Səmərqənddə tikdirdiyi binalar öz möhtəşəmliyi ilə baxanı valeh edirdi.

LAYİHƏ



Gur Əmir türbəsi

Teymurun qəbri üzərində inşa edilən "Gur Əmir" türbəsi Səmərqənd memarlığının şah əsəri hesab olunur. Əmir Teymurun və onun varislərinin hakimiyyəti dövründə tikilmiş Səmərqənddəki Şahi-Zində məqbərə ansamblı Şərq memarlığının ən gözəl nümunələrindən biri sayılır. Səmərqənd rəsədxanasının tikilməsinə rəhbərlik etmiş Uluqbəy dövlət xadimi, astronom olmaqla yanaşı, həm də dövrünün görkəmli memarı sayılırdı.

S **Nə üçün Uluqbəy dövrünün ən böyük alimlərindən biri hesab edilir? Fikrinizi əsaslandırın.**

Hindistanda yaranmış türk dövlətlərinin mövcudluğu dövründə hind-müsəlman mədəniyyəti yüksəlişdə idi. Hind-islam memarlıq abidələri içərisində XII yüzillikdə Dehlidə inşa edilmiş Qüvvətül-islam məscidi, XIII yüzillikdə isə Dehli sultanı Qütbəddin Aybəkin əmri ilə inşa edilmiş və bu gün də möhtəşəmliyini saxlayan Qütb Minar minarəsi xüsusilə seçilir. Hündürlüyü 73 metr olan minarə dördsütunlu olub, qırmızı qum daşı və ağ mərmərdən tikilmişdir.

İspaniyada Qranada əmirliyində hökmranlıq edən ərəblər XIII–XIV yüzillikdə müsəlman memarlığının ən gözəl incilərindən biri sayılan Əlhambra sarayını inşa etdirmişdilər.

Osmanlı memarlığının əsas mərkəzlərindən biri İstanbul şəhəri idi. Burada türk memarları tərəfindən inşa edilən Çinili köşk, Topqapı və başqa saraylar bu gün də möhtəşəmliyi ilə şəhərə yaraşıq verir.

Bu dövrdə Çin memarları gözəl saraylar, evlər inşa edir, yuxarıya doğru qatlanmış, yan çıxıntılı tağları olan məbədlər – paqodalar tikirdilər.



Çinili köşk



Paqoda

LAYİHƏ



Əlhambra sarayı



Leonardo da Vinçi

Çində bir sıra əhəmiyyətli mədəni və texniki nailiyyətlər qazanılmışdı. İlk dəfə not yazısı ilə musiqi əsərləri yazılmış, balet meydana gəlmişdi. Çində xüsusi gil növündən hazırlanmış möhkəm, yarımşəffaf, cingiltili qablar başqa ölkələrdə həvəslə alınırdı. Onlara çini qablar deyilirdi.

XI yüzillikdən başlayaraq Avropada böyük tikinti işləri aparılırdı. O dövrün inşaatçıları qədim Roma və Bizans memarlıq ənənələrinə əsaslanırdılar. Belə tikililərə Roma üslublu tikililər deyilirdi. XII yüzillikin sonlarında Avropada qot memarlığı deyilən memarlıq meydana gəldi. Şəhərlərdə, əsasən, bələdiyyə binaları, ticarət binaları, qonaq evləri və baş kilsələr qot üslubunda tikilirdi.



Çini qab

İtaliya intibahının ən böyük xadimlərindən biri olan florensiyalı Leonardo da Vinçi dahi rəssam, ixtiraçı mühəndis, memar, heykəltaraş, musiqiçi və şair olmuşdur. Onun gənc şəhərli qadının portreti olan "Mona Liza" ("Cokonda") əsəri bütün dünyada məşhurdur. Leonardo da Vinçi dövrünü bir neçə əsr qabaqlayaraq paraşütün, vertolyotun, dalğıc kostyumlarının və sualtı qayığın maketini işləyib-hazırlamışdı.



"Mona Liza"

İntibah dövrünün dahi sənətkarları bəşəriyyəti bu gün də valeh edən nadir incilər yaratmışlar. İtaliya mədəniyyətinin təsiri altında Almaniya, İspaniya və Hollandiya rəssamları dünya incəsənətinə bir çox yeniliklər gətirmişlər.

Amerikada yaşayan xalqlar içərisində mayyalılar, asteklər və inklər mədəni inkişaf səviyyəsinə görə digərlərindən daha inkişaf etmişdilər.



Topqapı sarayı

**T** **Qərbi Avropaya nisbətən müsəlman Şərqində rəssamlığın inkişafının geri qalmasının səbəbini müəyyən edin.**

LAYİHƏ



# 19 AVROPADA REFORMASİYA. OTUZİLLİK MÜHARİBƏ

Reformasiya, indulgensiya, Martin Lüter, Jan Kalvin, əks-reformasiya, Otuzillik müharibə, Vestfaliya sülhü

Avropada XVI yüzilliyin əvvəllərində iqtisadi vəziyyətin pisləşməsi sosial gərginliyin yaranmasına səbəb oldu. Bu isə Qərbi Avropada orta əsrlərin başlanğıcından mövcud olan inanc birliyini və kilsənin hökmranlığını sarsıtdı. Reformasiya adlanan bu hərəkat nəticəsində yeni kilsə və təriqətlərlə yanaşı, yeni siyasi güclər yarandı. Bu gücləri hökmdarlar artıq öz mənafeləri üçün Roma papasına qarşı istifadə etdilər. Bəzən bu yeni güclər hökmdarlara qarşı da çıxırdı. Beləliklə, Reformasiya hərəkatı başlandı. Bu hərəkat Avropada orta əsrlərin hakim ideologiyasına zərbə vurdu. Dövlətin dinə tabeliliyinə son qoyuldu və hər ikisi öz sahəsi ilə məşğul olmağa başladı.




**XVI yüzilliyin əvvəllərində Almaniyanın siyasi vəziyyətini digər Avropa ölkələri ilə müqayisə edin.**

XVI yüzilliyin əvvəllərində əhalinin ağır vəziyyətinə baxmayaraq, katolik kilsəsi böyük sərvətə malik idi. Papa və onun məmurları cah-calal içərisində yaşayırdı. Romadakı papalıq sarayının israfçılığı əhalinin vəziyyətini daha da ağırlaşdırırdı. Buna baxmayaraq, papa gəlirlərini artırmaq üçün məhkəmə və dini gücündən istifadə edirdi. Cəhalət bu sui-istifadə hallarının artmasına səbəb olurdu. Kilsəni tənqid edənlər **"bidətçi"** (dindən dönən) adlandıraraq cəzalandırılırdılar.

Bu dövrdə Almaniya zəifləmiş Müqəddəs Roma imperiyasının tərkibində idi. Feodal dağınıqlığı şəraitində katolik kilsəsinin zülmü və özbaşınalığı daha güclü idi. Papaya qarşı nifrətin genişləndiyi ölkə barıt çəlləyinə bənzəyirdi.

Alman rahibi və universitet professoru **Martin Lüter** Romada olarkən Papanın bütün xristianları aldatdığını, çox zəngin yaşadığını gördü. Buna görə də Papanın hakimiyyətinə qarşı mübarizəyə başladı.

LAYİHƏ

Almaniyada ***indulgensiya*** alverinin genişlənməsi etiraza təkan verdi.



İndulgensiya alveri

### *İndulgensiya




*İndulgensiya onu satın alan şəxsin işlədiyi günahlara görə ölümdən sonrakı cəzasının bağışlanmasını "təmin edən" sənəd idi.*

Papanın xəzinəsinə gedən sərvət alman knyazlarının da narazılığına səbəb oldu. 1517-ci ildə M.Lüter katolik kilsəsinin özbaşınalığını tənqid edən fikirlərini kilsənin qapısından asdı. Bu, orta əsrlərdə alimlərin müzakirə ənənələrinə əsaslanan üsul idi. Lüterin fikirləri XV yüzilliyin ortalarında Almaniyada tətbiq edilən yeni texnologiya – kitab çapı sayəsində ölkənin hər yerində yayıldı. **"95 tezis"** adı ilə tanınan bu fikirlər Almaniyada vətənpərvərlik şüurunu dirçəltdi.

XVI yüzilliyin əvvəllərində Almaniyada başlayan və Avropanın digər ölkələrinə yayılan dini hərəkat **reformasiya** adlandı. Reformasiya latın sözü olub "yeniləmək, düzəltmək və islahat" mənasını verir.

M.Lüterin fikirləri dini vergilərdən narazı olan sadə xalq, həmçinin kilsənin sərvətlərinə sahib olmaq istəyən knyazlar və digər feodallar tərəfindən rəğbətlə qarşılandı. Knyazlar tezliklə öz ərazilərindəki katolik kilsələrinə nəzarəti ələ keçirdilər. Bu kilsələr **lüteran** kilsələri kimi tanınmağa başladı.

1524-cü ildə alman kəndliləri feodallara qarşı üsyan edəndə



Martin Lüter

S **Reformasiyanın Almaniyada başlamasının səbəbləri nə idi?**



"95 tezis"in kilsə qapısına yapışdırılması

LAYİHƏ

Lüter feodalları dəstəklədi. O, fikrini dövlət və hökmdarlara tanrı tərəfindən sülhü qorumaq missiyasının verilməsi ilə əsaslandırdı. Üsyan feodallar tərəfindən yatırıldı.


Almaniyada kəndli üsyanı

Müqəddəs Roma imperatoru **V Karl** katolikliyi müdafiə etməklə imperiyasının birliyini qoruyub saxlamağa ümid edirdi. Ona görə də reformasiyaya qarşı mübarizəyə başladı. Alman knyazları isə Lüterin fikirlərindən imperatordan nisbi asılılıqlarına son qoymaq üçün istifadə etdilər. Lüterin tərəfdarları imperatorun reformasiyanın yayılmasına qarşı fərmanına etiraz etdikləri üçün **protestant** adlandırıldılar. Bununla da Almaniyada katolik kilsəsinə qarşı olanlar və tərəfdarları arasında mübarizə başlandı. 1555-ci ildə imperator və protestant knyazlar arasında imzalanan **Auqsburq sülhü** ilə Almaniyada dini müharibəyə son qoyuldu. Bu müqavilə ilə Almaniyada katolik kilsəsinin bölünməsi rəsmi olaraq qəbul edildi. Alman dövlətləri artıq katoliklik və lüteranlıq arasında seçim etməkdə sərbəst idi. Hər bir alman dövlətinin hökmdarının məzhəbi həmin dövlətin rəsmi məzhəbi olmalı idi. Hökmdarlardan fərqli olaraq təbəələrə öz dinini seçmək hüququ verilmədi. Reformasiya Almaniyada vətənpərvərlik duyğularına təkan versə də, ölkənin siyasi parçalanmasını gücləndirdi.


V Karl

**S** **Auqsburq sülhü Almaniyanın siyasi və sosial tarixinə necə təsir göstərdi?**


Auqsburq sülhünün imzalanması

# Avropada Reformasiya

XVI yüzillikdə reformasiya Avropanın digər ölkələrində də yayılmağa başladı. İngiltərədə reformasiya kral və papa arasında narazılıq əsasında baş verdi. Parlamentin köməyi ilə kral İngiltərədə kilsənin başçısı elan edildi. Katoliklik və protestantlığın birləşməsi nəticəsində anqlikan kilsəsi yarandı. Bundan sonra monastır mülklərinin zadəganlara satılması nəticəsində kral hakimiyyəti daha da gücləndi. Reformasiya hərəkatı nəticəsində bəzi ölkələrdə orta əsrlərin təmsilçi orqanları kral hakimiyyətinin güclənməsi ilə əhəmiyyətini itirsə də, İngiltərədə parlament saxlanmışdı.

LAYİHƏ

**S** İngiltərədə reformasiyanın hansı özünəməxsus cəhətləri olmuşdur?

Fransada reformasiya keşiş **Jan Kalvinin** adı ilə bağlı idi. Protestantlığın ən geniş yayılmış etiqadlarından birini yaradan Kalvin dövlət-kilsə, əxlaq və dinlə bağlı özünəməxsus fikirlər yaratmışdı. O, insanın bütün zövq və təmtəraqlı işlərdən uzaq olmasını; rəqs, yaxşı geyim, oyun və əyləncələrin məhdudlaşdırılmasını təbliğ edirdi.

**Kalvinizm** dövlət siyasətindən çox yeni yaranmaqda olan ***burjuaziyanın*** (şəhər varlıları) mənafeyinə uyğun idi. XVI yüzilliyin sonunda Fransa kralı etiqad azadlığı haqqında fərman verdikdən sonra katolikliklə yanaşı, kalvinizm də rəsmiləşdirildi.


Jan Kalvin

## Əks-reformasiya

Katolik kilsəsi reformasiyaya qarşı mübarizəyə başladı. Bu mübarizə xüsusilə İtaliya və İspaniyada uğurlu oldu. Dinin siyasətdə istifadə edilməsi Avropa ölkələrində daxili münaqişələrə və müharibələrə səbəb oldu. Bu və ya digər təriqətin üzvləri öldürülür, müxtəlif cəzalara məruz qalır, qadağan edilmiş kitablar siyahıya alınır və yandırılırdı. 1572-ci ildə Parisdə protestantlara qarşı kütləvi qətliam törədildi.


1572-ci ildə Parisdə protestantların cəzalandırılması

Katolik kilsəsi tərəfindən Reformasiyaya qarşı **İsa cəmiyyəti** adlı təşkilat yaradıldı. Yezuitlər adlanan bu təşkilatın üzvləri gizli xəfiyyə kimi də fəaliyyət göstərirdilər. Onların öz fikirlərini yaymaq üçün açdığı məktəblər uzun müddət Avropada ən yaxşı məktəblər kimi tanınmışdır. Katolik təhsilini dəyişdirən yezuitlər missionerlik fəaliyyətini genişləndirərək dünyanın hər yerinə yayılmışdılar. Onlar intellektual və siyasi bacarıqları nəticəsində Avropada kral saraylarında yüksək vəzifələr və nüfuz sahibi oldular. Protestantlıq sosial-iqtisadi sahədə də dəyişikliyə səbəb oldu. Yeni sosial-iqtisadi münasibətlərin – **kapitalizmin*** yaranmasına da təkan verdi. Protestantlıq Avropada xristian kimliyindən fərqli etnik kimliklərə keçidə şərait yaratdı. Bu isə gələcək milli dövlətlərin yaranmasına əlverişli zəmin hazırladı. Lakin protestant islahatı qadınların cəmiyyətdəki yerini dəyişmədi. Belə ki kişilərə itaət etməyə məcbur edilən qadınların dövlət və ailə işlərini idarə etmək qabiliyyətinə malik olmadıqlarını hesab edirdilər.

*** Kapitalizm**

*Xüsusi mülkiyyətə və muzdlu əməyə əsaslanan iqtisadi sistemdir.*

LAYİHƏ

**REFORMASİYANIN NƏTİCƏLƏRİ**

- Kapitalist iqtisadi sistemin əsasını qoydu.
- Təhsil kilsənin nəzarətindən çıxıb dünyəvi mahiyyət daşımağa başladı.
- Elmi araşdırmalar dinin təsirindən azad oldu.
- Milli şüurun yaranmasına və milli dövlətlər dövrünə keçidə zəmin hazırlandı.




# Otuzillik müharibə

Katoliklərlə protestantlar arasında mübarizə tezliklə Avropada **Otuzillik müharibəyə** səbəb oldu.

Müqəddəs Roma imperatoru ilə protestant knyazlar arasında başlayan dini müharibə Avropanın bir sıra dövlətlərinin qoşulması ilə genişləndi. "Dini müharibələrin sonuncusu" adlandırılan Otuzillik müharibənin başlanmasında din mühüm rol oynasa da, siyasi və ərazi motivləri də güclü idi.

Müharibə 1618-ci ildə Müqəddəs Roma imperiyasının torpaqlarında başladı. Xüsusilə Fransa ilə İspaniya və Müqəddəs Roma imperiyası hökmdarları arasında Avropa liderliyi uğrunda mübarizə mühüm əhəmiyyət kəsb edirdi. Katolik Fransanın eyni etiqada malik Müqəddəs Roma imperiyasına qarşı protestantları müdafiə etməsi baş nazir və kilsənin kardinalı **Rişelyenin** dövlət mənafeyi prinsipi ilə bağlı idi. Bununla da, dövlət mənafeyi prinsipinin başlanğıcı qoyuldu.

LAYİHƏ




Rişelye dövlətlərarası sistem sahəsində radikal yanaşmanı inkişaf etdirmişdir. Dövlətin öz-özünə mövcud olan mücərrəd və daimi bir qurum olması fikrini irəli sürmüşdür. Dövlətin ehtiyaclarını hökmdarın şəxsiyyəti, ailə mənafeyi və ya dinin unversal tələbləri müəyyən edə bilməz. Əsas yol göstərici milli mənafe olmalıdır.

*H.Kissencer "Dünya düzəni"*




**T** **Dövlət mənafeyi prinsipini müasir dövrlə əlaqələndirərək şərh edin.**

Otuzillik müharibə Avropada o dövrə qədər baş vermiş ən dağıdıcı münaqişə idi. Döyüşlər, əsasən, alman torpaqlarında getsə də, İngiltərədən başqa, bütün böyük Avropa dövlətləri müharibədə iştirak edirdi. Müharibə Avropada əhalisinin böyük tələfatına səbəb oldu. Almaniya talan edildi və dağıdıldı. Ticarətin tamamilə dayanması, qarətçilik, aclıq, xəstəlik və sosial qarışıqlıq Almaniyada knyazlıqların yenidən feodal qaydalarını gücləndirməsinə səbəb oldu.

1648-ci ildə **Vestfaliya sülhü** müharibəni rəsmən başa çatdırdı. Vestfaliya sülhü ilə Müqəddəs Roma imperiyasını təşkil edən üç yüzdən çox alman dövlətinin müstəqilliyi və öz dinlərini təyinetmə hüququ tanındı. Bu, Almaniyanın siyasi dağınıqlığının rəsmiləşdirilməsi idi. Kiçik knyazlıqlara parçalanması rəsmiləşən Almaniyanın geosiyasi və geostrateji əhəmiyyəti sarsıldı. Otuzillik müharibə Qərbi Avropada üstünlüyün İspaniyadan Fransaya keçməsi ilə nəticələndi. Müharibənin fəsadları digər Avropa dövlətlərinə də təsir göstərdi. İngiltərədə vətəndaş müharibəsi, İspaniyada üsyanlar baş verdi.

Vestfaliya sülhü ilə ilk dəfə olaraq Avropada dövlətlər arasında müqavilədə Papanın imzasına ehtiyac duyulmadı. Bu, kilsənin gücünün məhdudlaşdırılması demək idi. Sülh Avropada dünyəviliyin güclənməsinə təkan verməklə yanaşı, burada dini müharibələr dövrünü sonlandırdı.

Vestfaliya Avropanın ilk ən böyük sülh konfransı olmuşdur. Müəyyən qaydalara əsaslanan dövlətlərarası münasibətlər sistemi Vestfaliya sülhü ilə yaranmışdı. Vestfaliya konfransı "suveren dövlətlərin bərabərliyi" yanaşmasının dövlətlərarası münasibətlərdə ilk dəfə tətbiq edilməsi ilə səciyyəvidir. Buna görə, müasir dövr də dövlətlərarası münasibətlərdə mövcud olan bütün dövlətlərin bərabər hüquqlu olması və başqasının daxili işlərə qarışmanın qadağan edilməsi "Vestfaliya sistemi" adlanır.

**T** **Zaman oxunda verilmiş tarixlərə aid mühüm hadisələri müəyyən edin.**

1517 → 1524 → 1555 → 1618 → 1648

LAYİHƏ



# 20 İNGİLTƏRƏ VƏ FRANSA

"Məğlubedilməz Armada", Oliver Kromvel, Stüartlar, Puritanlar, aqrar inqilab, sənayə çevrilişi, 1789-cu il Fransa inqilabı, İnsan və Vətəndaş Hüquqları Bəyannaməsi, direktoriya

## İqtisadi və sosial böhranlar

XVI yüzilliyin ikinci yarısı – XVII yüzilliyin birinci yarısında Avropa ağır iqtisadi və sosial böhranlara məruz qaldı. Əsas iqtisadi problemlərdən biri **inflyasiya** (pulun dəyərdən düşməsi) və ya qiymətlər artımı idi. Qiymətlər artımının əsas səbəblərindən biri coğrafi kəşflər nəticəsində Amerikadan qızıl və gümüş axını idi. Həmçinin əhalinin sayının artması nəticəsində torpaq və ərzaq tələbatının yüksəlməsi də qiymətlərin artmasına səbəb oldu. Müharibələr, vəba və aclıq nəticəsində iqtisadi inkişaf zəiflədi və sosial gərginlik kəskinləşdi.

XVI yüzildə İngiltərədə kral tərəfindən həyata keçirilən reformasiya nəticəsində kilsə dövlətə tabe edildi. Kralın başçılıq etdiyi **Anqlikan kilsəsi** yarandı. Bu, İngiltərədə kral hakimiyyətinin möhkəmlənməsində mühüm amillərdən oldu.

**S** **Sizcə, Anqlikan kilsəsinin yaranması Avropada baş verən hansı hadisə ilə bağlı idi?**



I Yelizaveta

**I Yelizavetanın (1558–1603)** hakimiyyət illəri İngiltərənin "qızıl dövrü" adlandırılır.

Yelizavetanın iqtisadi siyasəti **proteksionizm** prinsiplərinə, yəni yerli istehsalı və ticarəti himayə etməyə əsaslanırdı. İngilis mallarının ixracına əlverişli şərait yaradılırdı. Bu isə ingilis gəmiçiliyini və toxuculuq sənayesini inkişaf etdirirdi. Dəniz ticarəti və müstəmləkələr uğrunda mübarizədə İngiltərənin əsas rəqibi **İspaniya** idi. 1588-ci ildə Britaniyanı işğal etmək istəyən İspaniya donanması – "Məğlubedilməz Armada" darmadağın edildi. Bununla da İngiltərə Avropanın ən güclü dövlətlərindən birinə çevrildi.



"Məğlubedilməz Armada"nın məğlub edilməsi

LAYİHƏ

# Stüartlar sülaləsinin hakimiyyətə gəlməsi. İngiltərədə vətəndaş müharibəsi.

I Yelizavetanın varisi olmadığı üçün 1603-cü ildə İngiltərədə yeni sülalə – Stüartlar hakimiyyətə gəldi. Stüartlar sülaləsinin nümayəndələri hakimiyyətin tanrı tərəfindən verildiyini və yalnız ona hesab verməli olduqlarını iddia edirdilər. Bu, parlament və kral arasında münaqişə yaratdı. Sosial ziddiyyətləri kəskinləşdirən amillərdən biri – reformasiya nəticəsində meydana gələn **Puritanların** (lat. "purus" – "təmiz") fəaliyyəti idi. Onlar Anqlikan kilsəsinin katolik ehkamlardan təmizlənməsini istəyirdilər. Təqib edilən Puritanların bir hissəsi Amerikaya getməyə məcbur oldu.

XVII yüzilliyin birinci yarısında Otuzillik müharibə Avropada mürəkkəb siyasi vəziyyət yaratdı. Bir sıra ölkələrdə üsyanlar və vətəndaş müharibələri baş verdi. Bunlardan ən məşhuru **İngiltərə inqilabı** kimi də tanınan vətəndaş müharibəsi idi. Bu hadisənin əsasında İngiltərənin idarə olunması sahəsində kral və parlament arasında ziddiyyətlər dayanırdı.

Ziddiyyətlərin tədricən kəskinləşməsi nəticəsində kral parlamenti buraxsa da, 1640-cı ildə yeni vergilər təyin etmək məqsədilə onu bərpa etməyə məcbur oldu. Lakin kral və parlament arasındakı ziddiyyətlər **vətəndaş müharibələrinə** səbəb oldu. Parlamentin üzvü **Oliver Kromvel** yeni tipli ordu quraraq kral ordusunu məğlub etdi.



Oliver Kromvel

1649-cu ildə kral edam edildi və İngiltərə respublika elan olundu. Lakin Kromvel 1653-cü ildə hərbi çevriliş edərək parlamenti buraxdı. Beləliklə, ölkədə hərbi diktatura quruldu. Kromvel katoliklərdən başqa, bütün xristianlar üçün dini dözümlülüyün tərəfdarı idi. Puritan əxlaqına görə, günah hesab edilən teatr, rəqs və idman fəaliyyətləri qadağan edildi.



London küçələrində kral ordusu ilə vətəndaşların toqquşması

LAYİHƏ

# Restavrasiya və Şanlı inqilab

Kromvelin ölümündən sonra diktatura rejimi zəiflədi. 1660-cı ildə Parlament səlahiyyətlərin bölüşdürülməsi və digər şərtlərlə Stüartlar sülaləsinin hakimiyyətini **restavrasiya** (bərpa) etdi. Lakin Stüartların katolik təriqətini yaymağa çalışması yenidən parlamentlə münaqişəyə səbəb oldu. 1688-ci ildə bir qrup ingilis zadəganı dinc yolla çevriliş edərək kralın protestant kürəkəni hollandiyalı Vilhelmi hakimiyyətə gətirdilər. Dinc yolla baş verdiyi üçün bu çevrilişə İngiltərə tarixində **"Şanlı inqilab"** da deyilir.

1689-cu ildə qəbul edilən **Hüquqlar haqqında Bill** ilə qanunlar qəbul etmək və vergi toplamaq hüququ parlamentə verildi. Kral yalnız parlamentin razılığı ilə ordudan istifadə edə bilərdi. Beləliklə, kral hakimiyyəti parlament tərəfindən məhdudlaşdırıldı. Qanunun aliliyinə əsaslanan **hüquqi dövlətin** əsasları qoyuldu. Hakimiyyətin tanrı tərəfindən verilməsi prinsipinə zərbə vuruldu. Tədricən İngiltərənin idarəetmə sistemi təkmilləşdi.

Parlamentdə çoxluq təşkil edən partiyanın lideri hökumətə rəhbərlik etməyə başladı. Bu idarəetmə sistemi müasir dövrdə də davam edir.

*Hüquqi dövlət

*vətəndaşların hüquq və azadlıqlarının təmin olunduğu dövlətdir.*

# Sənaye çevrilişi

Hələ XVI yüzillikdə İngiltərədə torpaqların çəpərlənmələri nəticəsində **aqrar inqilab** başlanmışdı. Əkin sahələri və otlaqların çəpərlənməsi kəndlilərin torpaqsızlaşmasına və manufakturalarda ucuz işçi qüvvəsinə çevrilməsinə səbəb oldu.

XVII yüzillik İngiltərədə mütləqiyyətin məhdudlaşması və hüquqi dövlətin əsaslarının qoyulması ölkənin sosial-iqtisadi inkişafına səbəb oldu. Mülkiyyət həmçinin digər hüquq və azadlıqlarının qorunması xüsusilə önəmli rol oynadı. İngiltərə müstəmləkə ərazilərinin ələ keçirilməsi nəticəsində geniş xammal mənbəyi və satış bazarına sahib olmuşdu. Dəniz ticarəti və müstəmləkələrin qarət edilməsi sərvət yığımını gücləndirmişdi. Həmçinin ölkənin əlverişli coğrafi mövqeyi, yəni onun adada yerləşməsi nəticəsində uzun müddət daxili və xarici müharibələrin olmaması da bu inkişafın səbəblərindən idi. Beləliklə, bu və digər amillər İngiltərədə XVIII yüzilliyin ikinci yarısında **sənaye çevrilişinin** başlanmasına şərait yaratdı. Əl əməyini maşınlı istehsal əvəz etdi.



Buxar mühərriki

1784-cü ildə **buxar mühərrikinin** kəşf edilməsi sənaye çevrilişinə təkan verdi. Sənaye çevrilişi ilk olaraq toxuculuq sənayesində başlandı. Bu həmin sahənin daha az kapital tələbatı ilə bağlı idi. Buxar mühərrikindən istifadə istehsalın üsulunu dəyişərək məhsuldarlığı artırmışdı. Sənaye çevrilişi nəticəsində **burjuaziya** və **fəhlələr** cəmiyyətdə əsas təbəqələrə çevrildilər.




Şanlı inqilab

LAYİHƏ

# “Dövlət mənəm!”

XVI yüzillikdə artıq Fransada **mütləqiyyət** yaranmışdı. Kral bütün hakimiyyəti öz əlində cəmləşdirmişdi. 1530-cu ildə latın dilini rəsmi dil olaraq fransız dili əvəz etdi. Reformasiyadan sonra Fransanı dini müharibələr bürüdü. Dini və siyasi mübarizə nəticəsində XVI yüzilliyin sonunda Fransada **Burbonlar sülaləsi** hakimiyyətə gəldi.

*Mütləqiyyət

*Hökmdarın qeyri-məhdud hakimiyyətə malik olduğu mərkəzləşdirilmiş dövlətdir.*

XVII yüzillik Fransada mütləqiyyətin möhkəmlənməsi ilə səciyyəvi idi. Baş ştatlar uzun müddət çağırılmadı. Birinci nazir və kardinal Rişelyenin siyasəti nəticəsində Fransa Avropanın ən güclü dövlətlərindən birinə çevrildi. Mütləqiyyət möhkəmləndirildi.

Kral **XIV Lüdoviqin (1643–1715)** “Dövlət mənəm!” ifadəsi mütləqiyyətin mahiyyətini göstərirdi. O, zadəganların müqavimətini qırmaq üçün bəzən güc tətbiq etmək, bəzən isə sarayda vəzifələr verməklə mərkəzi hakimiyyəti möhkəmləndirdi. Saray xərcləri və işğalçı müharibələrin aparılması tədricən dövlətin iqtisadi cəhətdən vəziyyətinə mənfi təsir göstərirdi.



Fransada Baş Ştatlar

# 1789-cu il Fransa inqilabı

1789-cu ildə başlayan fransız inqilabının həm uzun müddətli, həm də yaxın səbəbləri olmuşdu. Uzunmüddətli səbəblərindən biri Fransa cəmiyyətinin bərabərsizliyə əsaslanması idi. Belə ki Fransada əhali 3 əsas sosial təbəqəyə bölünürdü. Ruhanilər və zadəganlardan ibarət ilk iki təbəqə torpaqların böyük hissəsinə sahib olmaqla yanaşı, vergilərdən azad idi. Vergilərin bütün ağırlığı kəndlilər, burjuaziya, tacirlər, sənətkarlar və muzdlu işçilərdən ibarət üçüncü təbəqənin üzərinə düşürdü.



**S** **Sizcə, karikaturda nə ifadə edilmişdir?**

XVIII yüzillik istehlak qiymətlərinin artması üçüncü təbəqəyə mənfi təsir göstərdi və əhalinin narazılığının artmasına səbəb oldu. XVIII yüzilliyin 80-ci illərində istehsalın azalması ərzaq qıtlığına, qiymətlərin artmasına və işsizliyə səbəb oldu. İqtisadi problemlərə baxmayaraq, kral hakimiyyəti müharibələrə və saray dəbdəbələrinə böyük vəsaitlər xərcləməyə davam etdi.

İngiltərəyə qarşı ABŞ-ın İstiqlaliyyət müharibəsinə kömək etmək üçün böyük məbləğdə vəsait xərcləməsi Fransanın iqtisadi vəziyyətini daha da pisləşdirdi. 1789-cu ildə Kral **XVI Lüdoviq** yeni vergilərin artırılması üçün Baş ştatları çağırmağa məcbur oldu. Baş ştatlar üç sosial təbəqənin nümayəndələrindən ibarət idi.

Maliyyə problemlərini həll etmək üçün üçüncü təbəqənin üzvləri ruhanilərin və zadəganların vergidən azad edilməsinin ləğv edilməsini və konstitusiya qəbul edilməsini təklif etdilər. Buna nail olmadıqda özlərini Milli Məclis

LAYİHƏ



Bastiliyanın alınması

adlandırdılar və konstitusiya layihəsi hazırlamaq qərarına gəldilər.

Kral onlara qarşı güc tətbiq etməyə hazırlaşırdı. Lakin xalq Parisdəki silah anbarı və həbsxana olan Bastiliya qalasına hücum edərək onu ələ keçirdi. Bütün Fransanı inqilab və kəndli üsyanları bürüdü. Milli Məclis feodal qaydalarını, zadəganların və ruhanilərin imtiyazlarını ləğv etdi, **İnsan və Vətəndaş Hüquqları Bəyannaməsini** qəbul etdi. ABŞ İstiqlaliyyət Bəyannaməsi əsasında hazırlanan bu sənəddə insanların azad və bərabərhüquqlu doğulması qəbul edildi. Xalq hakimiyyətin mənbəyi elan olundu. Fikir və düşüncələrin azad şəkildə ifadə edilməsi insanın ən qiymətli hüquqlarından biri kimi tanındı. Söz və mətbuat azadlığı verildi. Qanunsuz həbslər qadağan edildi.

1792-ci ildə monarxiya ləğv edilərək Fransa respublika elan edildi. Qonşu ölkələrin kralları inqilabın ölkələrinə yayılacağından qorxmağa başladılar.

1793-cü ildə XVI Lüdoviqin edam edilməsi Avropanın bir çox krallarını qəzəbləndirdi. **Avstriya, Prussiya, İspaniya** və **İngiltərə** Fransaya qarşı müharibəyə başladı. İşğal təhlükəsi ilə üzləşən ölkə daxilində müxtəlif siyasi qruplar arasında mübarizə gedirdi.

Geniş səlahiyyətlərə malik İctimai Təhlükəsizlik Komitəsi yaradıldı. Siyasi rəqiblərinə qarşı tətbiq edilən sərt cəzalandırma tədbirlərinə görə bu komitənin hakimiyyətdə olduğu dövr **Terror dövrü** adlandırılır. Həkim Gilyotin tərəfindən yaradılan xüsusi edam qurğusu – gilyotin bu terrorun rəmzinə çevrilmişdi.

Zəruri ərzaq məhsullarına qiymət məhdudiyyətləri qoyuldu. Hamı üçün ibtidai təhsili nəzərdə tutan qanun qəbul edildi, lakin geniş tətbiq olunmadı. İnqilabda qadınlar da fəal iştirak edirdilər.

Respublikanı xarici düşmənlərindən xilas etmək üçün 1793-cü ildə xalqın **ümumi səfərbərliyi haqqında** fərman verildi. Bu o dövrə qədər möv-




İnsan və Vətəndaş Hüquqları Bəyannaməsi

XVIII yüzillikdə siyasi ifadə kimi "inqilab" yeni bir məna qazandı. Bu ifadə əvvəllər, sadəcə, hökumət quruluşunda baş verən bir dəyişiklik kimi istifadə edilirdi. Hər hansı bir sarayda bir nazirin dəyişdirilməsindən "inqilab" kimi bəhs edilə bilirdi. Lakin 1789-cu ildən sonra bu vəziyyət dəyişdi. Keçmişlə əlaqələrin qoparıldığı, açıq və ya gizli şiddətin damğa vurduğu sosial, siyasi və iqtisadi sahədə köklü dəyişikliklərin olduğu bir hərəkat düşünülürdü.

*J.M.Roberts. "Avropa tarixi".*

**T** **Mənbə əsasında inqilab anlayışına tərif verin və onu əsaslandırın.**

LAYİHƏ

cud müharibələrin xarakterini dəyişdirdi. Əvvəllər müharibələr hökumətlər və ya hakim sülalələr arasında peşəkar əsgərlərdən ibarət nisbətən kiçik ordular tərəfindən aparılırdı. İndi isə bütün xalq müharibədə iştirak etməyə başladı. Fransız inqilabi ordusu müasir millətçiliyin yaradılmasında mühüm addım idi.

1794-cü ildə Fransa ərazisi xarici düşmənlərdən azad edildikdən sonra Terror rejimi çevriliş nəticəsində ləğv edildi. Bir vaxtlar rəqiblərini gilyotinlə cəzalandıran rejimin rəhbərləri də eyni üsulla cəzalandırıldı.

1795-ci ildə qəbul edilən yeni konstitusiyaya görə icra hakimiyyəti **direktoriya** adlanan quruma verildi. Direktoriyanın hakimiyyəti (1795–1799) dövründə iqtisadi və siyasi problemlər həll edilmədi. Eyni zamanda, Fransaya qarşı yaranmış koalisiya ilə müharibələr davam edirdi. Bu müharibələrdə fərqlənən gənc general **Napoleon Bonapart** 1799-cu ildə dövlət çevrilişi edərək Direktoriyanı devirdi və hakimiyyəti ələ keçirdi.



Napoleon Bonapart, rəssam Lui David.

Fransız inqilabının başlanma vaxtı ilə bağlı bir çox tarix irəli sürülə bilər. Lakin müəyyən bir tarixi bu inqilabın sonu olaraq iddia etmək doğru olmaz. İnqilabi proses onlarla il davam etdi. Bununla birlikdə 1799-cu ili mühüm sonlandırma nöqtəsi kimi götürmək olar. Bu tarixdə baş verən çevrilişlə Direktoriya idarəsi ləğv edilərək Napoleon Bonapart hakimiyyətə gəldi.

*J.M.Roberts. "Avropa tarixi".*

**Zaman oxunda verilən mühüm tarixlərə aid hadisələri müəyyən edin.**

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **İNGİLTƏRƏ** | 1603 | 1642 | 1649 | 1660 | 1688 | 1689 |
| **FRANSA** | 1789 | 1792 | 1793 | 1794 | 1795 | 1799 |

**Fransa inqilabını XVII yüzillikdə baş vermiş İngiltərə inqilabı ilə müqayisə edin.**

LAYİHƏ




# BÖYÜK COĞRAFİ KƏŞFLƏR. ABŞ-IN YARANMASI

Bartolomey Diaş, Vasko de Qama, Xristofor Kolumb, inklər, Astek dövləti, Amerika, Yeni dünya

Böyük coğrafi kəşflər dünya tarixində mühüm dəyişikliklər yaratdı. Yeni qitələr kəşf edildi, dünya okeanı vasitəsilə yeni ticarət yolları yarandı.Ticarət dünya miqyasında aparılmağa başlandı. Avropa, Asiya və Afrika ölkələri işğal edilərək müstəmləkələrə çevrildi. Bu ölkələrin təbii sərvətləri Avropa dövlətlərinin iqtisadi, elmi, texnoloji və s. sahələrdə inkişafına təsir etdi. Nəticələri müasir dövrdə də təsirlərini göstərən dəyişikliklər baş verdi. Müasir sosial-iqtisadi və siyasi problemlərin bir çoxunun kökləri Böyük coğrafi kəşflərlə bağlıdır.

## Səbəblər və vasitələr

XIV yüzilliyin ortalarında "Qara ölüm" adlanan və bütün Avropanı bürüyən vəba epidemiyası sosial-iqtisadi vəziyyəti pisləşdirdi, əhalinin üçdə birindən çoxunun ölümünə səbəb oldu. Avropa iqtisadiyyatının yenidən canlanması üçün çoxlu qızıl və gümüş, işçi qüvvəsinə ehtiyac yarandı. XIV–XV yüzilliklərdə Osmanlı türklərinin fəthləri avropalıların ənənəvi quru yolları ilə Şərqə səyahət imkanlarını azaltdı. Bu, dəniz yolu ilə Asiyaya getmək təşəbbüslərinin yaranmasına səbəb oldu. **Böyük coğrafi kəşflər**, əsasən, iqtisadi səbəblərlə bağlı olmuşdur. Avropalı tacirlər və dövlətlər Şərqlə ticarətin (xüsusilə ədviyyat sahəsində) genişlənməsinə çalışırdılar. Yeməklərin tez xarab olmaması və dadlandırmaq üçün lazım olan ədviyyatlar ərəb tacirləri tərəfindən Avropada baha qiymətə satılırdı. Bu dövrdə Avropada mövcud olan qızıl yataqları tükənmişdi. Daxili iqtisadiyyatı təmin etmək və Şərqlə ticarətdə istifadə etmək üçün çoxlu qızıl və gümüşə ehtiyac var idi. Coğrafi kəşflərin başlaması xristianlığın yayılması pərdəsi altında aparılırdı. Bu isə siyasi və iqtisadi məqsədlərin gizlədilməsinə xidmət edirdi.

Bəs səyahətlər necə mümkün oldu? XV yüzilliyin ikinci yarısına qədər Avropa dövlətləri siyasi və iqtisadi cəhətdən güclənmişdi. Avropalılar artıq uzaq dəniz səyahətlərinə imkan verən texnologiya səviyyəsinə çatmışdılar. Bu elmi bilik və texnologiyanın inkişafında müsəlman dünyasının böyük xidməti olmuşdur. İstiqaməti müəyyən edən cihazlar müsəlman dənizçilər vasitəsilə Avropada tanınmışdı. Həmçinin gəmilər də müsəlman dənizçilərinin təcrübəsi əsasında təkmilləşdirilmişdi.


Karavela



LAYİHƏ

Kompas və gəminin olduğu yeri müəyyənləşdirən cihazlar açıq dənizə çıxmağı təmin etdi. Lazım olan istiqamətdə hərəkət etməyə imkan verən yelkənli gəmilər – **karavellalar** yaradıldı.

> Dini düşmənçiliklərə və davamlı müharibələrə baxmayaraq, xristian Avropa, İslam dünyasından çox şey öyrəndi. İstər Yunan elm və fəlsəfəsinin qorunması, istərsə elmi və iqtisadi bilik və texnologiyanın Hindistan və Çin kimi uzaq diyarlardan Avropaya çatdırılması İslam dünyasının əsəridir.
>
> *David Arnold. "Coğrafi Keşifler Tarihi".*

**T** **Böyük coğrafi kəşflərin həyata keçirilməsində müsəlman dünyasının rolunu və onların sonrakı tarixi inkişafına təsirlərini dəyərləndirin.**

## Hindistana dəniz yolunun kəşfi

**Portuqaliya** Avropada siyasi sərhədlərini müəyyənləşdirən ilk milli dövlət hesab edilir. Ancaq ölkə ərazisi kənd təsərrüfatı üçün əlverişli deyildi. Ona görə də gəmiçilik və ticarət nisbətən inkişaf etmişdi. Bu və yerləşdiyi coğrafi mövqe ilk olaraq onun Böyük coğrafi kəşflərə başlamasına səbəb olmuşdu. Onlar Afrikanın cənubundan dolanaraq Hindistana getməyin mümkün olması haqqında məlumata malik idilər. **Bartolomey Diaş** Afrikanın cənubuna qədər səyahət edə bildi və buranı **Ümid burnu** adlandırdı. 1498-ci ildə **Vasko da Qama** Hind okeanını keçərək Hindistan sahillərinə çatdı.

Portuqaliya ərəb tacirlərinin nəzarətində olan ədviyyat ticarətini ələ keçirmək üçün mübarizə apardı və XVI yüzilliyin əvvəllərində buna nail ola bildi. Lakin portuqalların Asiya bölgələrini müstəmləkəyə çevirmək üçün kifayət qədər əhalisi, iqtisadi və hərbi gücü yox idi. Ona görə də sonralar portuqallar digər Avropa dövlətləri: **İspaniya, İngiltərə, Hollandiya** və **Fransadan** geri qaldı.



Bartolomey Diaş

## Yeni dünyanın kəşfi

Portuqaliyaya nisbətən əhalisi daha çox olan və hərbi cəhətdən güclü olan **İspaniya** daha geniş müstəmləkələr ələ keçirməyə nail oldu.

İspaniya kralına xidmət edən italyan **Xristofor Kolumb** qərbə üzməklə Hindistana çata biləcəyinə inanırdı. O, 1492-ci ildə Kuba sahillərinə və Karib dənizi adalarına çatsa da, buranın Hindistan olduğunu düşünürdü. Ona görə də buranı Hindistan, əhalisini də hindular adlandırdı. Digər səyyahlar tezliklə başa düşdülər ki, Kolumb tamamilə yeni bir qitə kəşf edib.



Vasko da Qama



Xristofor Kolumb

LAYİHƏ






Xristofor Kolumb Amerika sahillərində. ABŞ Konqres kitabxanası

XV yüzilliyin sonu – XVI yüzilliyin əvvəllərində **Ameriqo Vespuççi** yeni qitəyə bir neçə səyahət etdi və bu məkan haqqında məktublar yazdı. Bu məktublar yeni qitənin onun adı ilə bağlı olaraq **Amerika** adlanmasına səbəb oldu.

Avropalıların **Yeni dünya** adlandırdıqları qitədə yerli sivilizasiyalar var idi. Tezliklə avropalı işğalçılar bu sivilizasiyaları məhv etmək siyasətinə başladılar. İspanlar Meksikada Astek dövlətini süqut etdirdilər. İndiki Peru ərazisindəki And dağlarında inklərin dövlətinə son qoyuldu. Meksika, Mərkəzi və Cənubi Amerikanın böyük hissəsi İspaniyanın nəzarəti altına keçdi. Yalnız **Braziliya** Portuqaliyanın müstəmləkəsinə çevrildi. Avropalılardan yerli əhaliyə keçən və hələ onlara qarşı təbii müqavimətləri yaranmayan  xəstəliklər: çiçək, qızılca böyük tələfata səbəb olmuşdu. Yerli əhali həmçinin avropalılar tərəfindən də kütləvi qətliamlara məruz qaldı. İşğalın ilk dövründən katolik missionerlər yüz minlərlə yerli əhaliyə xristian dinini qəbul etdirməyə başladılar.

1519-cu ildə **Fernando Magellanın** başçılığı ilə başlanan səyahət ilk dəfə olaraq dəniz yolu ilə dünya ətrafında dolanmaqla nəticələndi. Bu səyahət nəticəsində bütün okeanların bir-biri ilə əlaqəli olduğu sübut edildi.

**Avropalılar tərəfindən işğalların yerli əhalinin siyasi, sosial və iqtisadi həyatına təsirlərini dəyərləndirin.**

**Böyük coğrafi kəşflərlə bağlı cədvəl tərtib edin.**

LAYİHƏ

# İqtisadi rəqabət

Yeni qitənin kəşf edilməsi ilə beynəlxalq ticarət əlaqələri genişləndi. Bu isə kapitalizmin yaradılmasında həlledici əhəmiyyətə malik idi. Digər Avropa dövlətləri tezliklə müstəmləkələr və dəniz ticarəti uğrunda mübarizəyə başladı. XVI yüzilliyin sonunda Şərq ticarəti üçün Avropa dövlətləri arasında rəqabət genişlənməyə başladı. Tezliklə İngiltərə, Hollandiya və Fransa da müstəmləkələr ələ keçirdi. İspanlar Amerikadan talan etdikləri qızıl və gümüşü ölkələrinə daşıdılar.

Onların Amerikaya gəlişinin ifadə edilməsi son dövrlərdə əsaslı şəkildə dəyişikliyə məruz qalmışdır. Bir vaxtlar "kəşf" deyilən məsələ indi "qarşılaşma" və ya "mədəniyyətlərin görüşü" adlanır. Lakin dürüst olmaq və bunu işğal adlandırmaq daha doğrudur.

*N.Davies. "Avropa tarixi".*

Kartof, kakao, qarğıdalı və tütün kimi yeni kənd təsərrüfatı məhsulları Avropaya gətirildi. Köhnə və Yeni dünyalar arasında bitki və heyvanların geniş mübadiləsi hər iki dünyada iqtisadi fəaliyyəti dəyişdirdi. Amerikadan gətirilən çox önəmli iki ərzaq məhsulu – kartof və qarğıdalı Avropanın bir çox ölkələrində yayılaraq başlıca qidalardan birinə çevrildi. Bu, sonralar həmin ölkələrin sosial-iqtisadi inkişafında əhəmiyyətli rol oynadı. Nəticədə Avropada ilk dəfə olaraq yalnız taxıla əsaslanan qida təminatı problemi aradan qaldırıldı. Bu, əhalinin sayının artmasına və həmçinin onun ərzaq təminatına şərait yaratdı.

Qarğıdalı qida əhəmiyyəti olmaqla yanaşı, əkilən torpağın münbitləşməsinə, həmçinin növbəli əkin üsuluna və maldarlığın inkişafına təsir edirdi.

# Müstəmləkə işğalları və merkantilizm

Müstəmləkə işğalları və ticarət əlaqələrinin inkişafı XVII yüzillikdə iqtisadi sahədə **merkantilizm** siyasətinin yaranmasına təsir göstərdi. Bu siyasətə görə, bir xalqın rifahı qızıl və gümüş ehtiyatından asılıdır. Qızıl və gümüş ehtiyatını artırmaq üçün əlverişli ticarət balansına sahib olmaq lazımdır. İxrac edilən mallar idxal olunan mallardan daha çox dəyərə malik olduqda balans əlverişli olur.

İxracatı təşviq etmək üçün hökumətlər sənayeni və ticarəti himayə edir, xarici mallara yüksək tariflər, ya da vergilər qoymaqla bu malların öz ölkələrinə daxil olmasını məhdudlaşdırırdılar. Müstəmləkələr xammal mənbəyi və satış bazarı kimi mühüm hesab olunurdu.

Böyük coğrafi kəşflər dövlətlərarası münasibətlərdə də dəyişikliklərə səbəb oldu. Yeni kəşf edilən ərazilər uğrunda başlanan rəqabət mübarizələri yeni müharibələrə səbəb olurdu. Bəzən bu ərazilərin nüfuz dairələrinə bölünməsi ilə bağlı müqavilələr imzalanırdı. İlk belə müqavilə Portuqaliya və İspaniya arasında imzalanmışdı.

# ABŞ-ın yaranması

**XVII yüzilliyin əvvəllərindən** başlayaraq ingilislər Şimali Amerikanın şərq sahillərində yaşayış məntəqələri yaratmağa başladılar. Digər Avropa ölkələrindən fərqli olaraq, burada İngiltərədən köçüb gələnlərin sayı daha sürətlə artmışdı. Tədricən burada müəyyən özünüidarə hüquqlarına malik 13 ingilis **koloniyası** yarandı.

Koloniyalarda, əslində, müstəqil fəaliyyət göstərən qanunverici orqanlar var idi. Artıq XVIII yüzilin ortalarına doğru koloniyaların əhalisi özünü ayrı xalq kimi dərk edirdi. Koloniyaların hər birinin öz hökuməti var idi.

***Merkantilizm**

*İdxalı məhdudlaşdırmağa və ixracı artırmağa yönəldilən iqtisadi siyasətdir.*

***Koloniya**

*Müstəmləkə – başqa bir dövlət tərəfindən idarə olunan asılı ərazidir.*

LAYİHƏ

Buradakı əhali bir çox sahələrdə müstəqilliyə malik olsa da, Britaniya təbəəsi olaraq qalırdı.

**S** **XVIII yüzilliyin əvvəllərində hansı amillər İngiltərədən köçüb gələnlərin sayını artıra bilərdi?**

XVIII yüzilliyin ortalarından İngiltərə parlamentinin qəbul etdiyi qanun ilə koloniyaların başqa ölkələrlə ticarət əlaqələri məhdudlaşdırıldı. İdxal olunan fransız və holland mallarına yüksək vergi ödənilməli idi.

İngiltərə koloniyalardan xammalları ucuz qiymətə alır, burada sənaye məhsullarını satırdı. Lakin İngiltərə hökumətinin müxtəlif məhdudiyyətlərinə baxmayaraq, ticarət inkişaf edirdi.

**Yeddiillik müharibənin (1756–1763)** gedişində Şimali Amerikada ingilislər və fransızlar arasında mübarizə baş vermişdi. İngiltərə qalib gələrək Şimali Amerikadakı fransız müstəmləkələrini, əsasən, ələ keçirdi. Bundan sonra İngiltərə müharibə xərclərini ödəmək və burada saxlanan ordunun xərclərini ödəmək üçün koloniyalarda yeni vergilər tətbiq etdi.

1765-ci ildə İngiltərə parlamenti koloniyalara **Möhür qanunu** tətbiq etdi. Qanuna görə koloniyaların əhalisi sənədlər, qəzetlər və digər çap materiallarına rəsmi möhür vurmaq üçün vergi ödəməli idi. Lakin narazılığa səbəb olduğu üçün bu ləğv edildi. Tədricən koloniyalar və İngiltərə arasında narazılıq dərinləşdi. Artıq koloniyalar müstəqilliyə can atırdı.

# ABŞ necə yarandı?

İngiltərə hökumətinin Şimali Amerikadakı müstəmləkələrdə həyata keçirdiyi iqtisadi məhdudlaşdırma siyasəti narazılığı getdikcə artırdı.

1775-ci ildə müstəmləkə əhalisi ilə Britaniya ordusu arasında döyüşlər başlandı. Tezliklə **Corc Vaşinqtonun** komandanlığı ilə koloniyaların ordusu yarandı. 4 iyul 1776-cı ildə Tomas Ceffersonun yazdığı **"İstiqlaliyyət Bəyannaməsi"** elan edildi. Bəyannamə İngiltərənin Şimali Amerikadakı müstəmləkələrinin müstəqilliyini elan etdi.

Amerikalılar müstəqillik uğrunda apardıqları müharibədə qalib gəldilər. Bu, bir neçə səbəblə izah edilir. Birincisi, amerikalıların döyüş motivasiyası ingilislərinkindən qat-qat güclü idi, çünki onlar artıq Amerikanı öz vətənləri hesab edirdilər.

**S** **İstiqlaliyyət müharibəsində ABŞ və Vətən müharibəsində Azərbaycanın qələbələrinin hansı oxşar cəhəti var?**

İkincisi, amerikalılar partizan müharibəsi taktikası tətbiq etdilər. Yandırılmış torpaq taktikasından istifadə edərək ingilis ordusunu zəiflətdilər. Üçüncüsü, müharibəni İngiltərədən uzaqda aparmaq çox baha başa gəlirdi. Bir neçə ildən sonra artan vergilərdən narazı olan İngiltərə əhalisi müharibəni dayandırmağı tələb etdi. Həmçinin amerikalılar İngiltərəyə qarşı tək

Bütün insanlar bərabər yaranmışlar. Tanrı insanların hamısına ayrılmaz hüquqlar, o cümlədən yaşamaq, azadlıq və xoşbəxtliyə can atmaq hüququ vermişdir. Bu hüquqları təmin etmək üçün adamlar arasında hökumətlər təsis edilmiş və idarə olunanların razılığı ilə ədalətli hakimiyyət yaradılmışdır. Bu idarəetmə forması idarə olunanların mənafeyinə uyğun olmadıqda xalqın onu dəyişdirmək, yeni hökumət təsis etmək hüququ vardır.

*ABŞ "İstiqlaliyyət Bəyannaməsi"*



Corc Vaşinqton



Tomas Cefferson

LAYİHƏ

vuruşmadılar. Fransa rəqibi olan İngiltərəni zəiflətməyə çalışdığı üçün müharibənin əvvəlindən üsyançıları silah və pulla təmin edirdi. Fransız zabitləri və əsgərləri də ABŞ ordusunda xidmət edirdilər. İspaniya və Hollandiya da ABŞ-a kömək edirdi.

**S** **Sizcə, İspaniya və Hollandiyanın ABŞ-a kömək etməsinin səbəbi nə idi?**

1781-ci ildə **Yorktaun döyüşündə** tələyə salınan ingilis ordusu təslim oldu. 1783-cü ildə Parisdə sülh müqaviləsi ilə İngiltərə ABŞ-ın müstəqilliyini tanıdı.


Konstitusiyanın imzalanması

# ABŞ konstitusiyasının qəbul edilməsi

Amerikada 13 ingilis koloniyası müstəqillik əldə etmişdi. Əvvəlki koloniyalar artıq dövlətlər hesab olunurdu. Müstəqilliklərini elan etdikdən az müddət sonra vahid mərkəzi hökumətə ehtiyac yarandı. Ona görə də 1787-ci ildə **Konstitusiya** qəbul edildi.

Konstitusiya hakimiyyətin mərkəzi hökumət və əyalət hökumətləri arasında bölüşdürüləcəyi federal sistem yaratdı. Federal hökumətə vergi toplamaq, ordu toplamaq, ticarəti tənzimləmək və milli valyuta yaratmaq səlahiyyəti verilirdi.

Hakimiyyət üç qola bölündü, hər birinin digərlərinin işini yoxlamaq səlahiyyəti var idi. İcra hakimiyyətinə rəhbərlik edən.




Prezidentin qanunları icra etmək, veto qoymaq, xarici siyasətə nəzarət etmək və hərbi qüvvələrə rəhbərlik etmək səlahiyyəti var idi.

**Konqres adlanan** qanunverici orqan iki palatadan – ştatların qanunverici orqanları tərəfindən seçilən üzvlərin olduğu **Senat və Nümayəndələr Palatasından** ibarət idi. Nümayəndələr birbaşa xalq tərəfindən seçilirdi.

**Ali Məhkəmə** və digər məhkəmələr təmsil edirdi. Məhkəmələr Konstitusiyanı "dövlətin ali qanunu" kimi tətbiq edirdilər.

1791-ci ildə Konstitusiyaya **Hüquqlar haqqında Bill** adlanan on düzəliş əlavə edildi. Bu düzəlişlər söz, mətbuat, toplaşmaq və din azadlığına, mülkiyyət hüquqlarının qorunmasına zəmanət verirdi. Məhkəmənin hökmü olmadan axtarış və həbslər qadağan edilirdi.

LAYİHƏ



# 22 RUSİYA

İvan Qroznı, I Pyotr, Şimal müharibəsi, rus-türk müharibəsi, II Yekaterina

Rus knyazlıqlarının Moskva ətrafında birləşdirilməsi XVI yüzillikdə başa çatdı. Böyük Moskva knyazı IV İvan Qroznı 1547-ci ildə rus hökmdarları içərisində ilk dəfə olaraq çar titulunu qəbul etdi və dövləti gücləndirmək üçün bir sıra tədbirlər gördü.

Mərkəzləşdirilmiş güclü hakimiyyət yaratmaq istəyən IV İvan dövlət idarəetmə sistemini təkmilləşdirdi, boyar müxalifətini ləğv etdi. Ordu quruculuğunda yeniliklər yaradan çar məmurların rüşvətxorluğuna görə sərt cəzalar tətbiq etdi.



Həştərxan xanının təslim olması



Qazanda sonuncu döyüş

Onların əhali hesabına saxlanılması qaydası ləğv edildi. Daxilən möhkəmləndirilən Moskva knyazlığı işğallar yolu ilə ərazisini genişləndirmək siyasətini davam etdirdi.

Volqa boyunda yerləşən Qazan və Həştərxan xanlıqlarının işğalı nəticəsində Volqa-Xəzər ticarət yolu Rusiyanın əlinə keçdi. Şərqdəki işğalları genişləndirən Rusiya tezliklə Sibir xanlığının da varlığına son qoydu.

**S** **Sizcə, boyar müxalifətinin ləğv olunması çara hansı üstünlükləri verə bilərdi?**

LAYİHƏ



### IV İvanın İngiltərə kraliçasına göndərdiyi məktubdan

"Biz ümid edirdik ki, siz öz dövlətinizin hakimisiniz. Biz düşünürdük ki, hər iki dövlət bu yaxınlaşmadan gəlir götürəcək. Bütün bunlar üçün biz danışıqlara başladıq. Lakin görürük ki, sizin dövlətdə hər kəs hakimiyyətə malikdir. Tacirlər belə hüquq hakimidir, onlar özləri üçün gəlir mənbəyi axtarır. Siz isə öz krallığınızda, sadəcə, bir qadınsınız".

**S** **Bu məktub əsasında Rusiya və İngiltərədə ali hakimiyyəti necə qiymətləndirmək olar?**

## Rusiya XVII yüzillikdə

XVII yüzillikdə Rusiyada yeni sülalənin hakimiyyəti dövründə bir çox dəyişikliklər baş verdi. Dəyişiklik, ilk növbədə, istehsal sənayesinə və ticarətə toxundu. 1649-cu ildə təhkimçilik möhkəmləndirildi. Yeni qanuna görə kəndlilər təh-



Boyarlar

kim olunduqları torpağı tərk edə bilməzdi. Onları satmaq, cərimələmək, həbs etmək və cəzalandırmaq (cismani cəza) olardı. Bu dövrdə Rusiyada əcnəbilər tərəfindən ilk manufakturalar yaradıldı. Yerli tacirlər və boyarlar da manufaktura yaradılmasında fəallıq göstərirdilər.

Qərbi Avropa ölkələri ilə ticarət Arxangelsk, Asiya ölkələri ilə Həştərxan şəhər-limanlarının vasitəsilə aparılırdı. Rus tacirlərinin və yerli istehsalın maraqlarını müdafiə etmək üçün 1667-ci ildə ticarət nizamnaməsi qəbul edildi. Nizamnaməyə görə əcnəbi tacirlər Rusiya bazarlarında pərakəndə mal sata bilməzdilər. Onlar öz mallarını rus tacirlərinə topdan satmalı idilər.

XVII yüzillikdə fəal xarici siyasət yürüdən Rusiya Ukrayna uğrunda Reç Pospolita və İsveçlə müharibələr etdi. 1667-ci ildə bağlanmış müqaviləyə əsasən Dnepr çayının sol sahilindəki Ukrayna torpaqları Rusiyaya keçdi. Sibirə axınlarını davam etdirən ruslar Sakit okeanadək torpaqları Rusiyanın ərazilərinə qatdılar.

**S** **1667-ci il ticarət nizamnaməsi ölkənin iqtisadi inkişafına hansı təsiri göstərə bilərdi? Fikrinizi əsaslandırın.**

## Rusiyanın imperiyaya çevrilməsi

I Pyotrun (1682-1725) hakimiyyəti dövründə Rusiyada böyük dəyişikliklər baş verdi. Avropa ölkələrindən iqtisadi, hərbi, texniki, mədəni və s. geriliyi aradan qaldırmaq üçün I Pyotr fəaliyyətə başladı. Lakin dənizlərə çıxışın olmaması iqtisadi inkişafa mane olurdu. Buna böyük önəm verən I Pyotr Qara dəniz sahillərinə çıxmaq üçün Osmanlı dövləti ilə müharibəyə başlasa da, istəyinə nail ola bilmədi.

**S** **Sizcə, iqtisadi inkişaf olmadan hərbi, texniki və mədəni inkişafa nail olmaq olarmı? Fikrinizi əsaslandırın.**



I Pyotr

LAYİHƏ

Osmanlı dövləti ilə gələcək müharibədə Avropa dövlətlərindən dəstək almaq üçün I Pyotr geniş nümayəndə heyəti ilə bir sıra Avropa ölkələrinə səfər etdi. Avropa ölkələrində I Pyotrun diqqətini cəlb edən bir çox elmi, texniki, mədəni nailiyyətlər və bilgilər Rusiyada gələcəkdə həyata keçiriləcək islahatlara başlanğıc verdi.

İsveçlə aparılan Şimal müharibəsində qalib gələn Rusiya Baltik dənizinə çıxış əldə etdi. Şimal müharibəsindəki qələbədən sonra I Pyotr imperator, Rusiya imperiya adlanmağa başlandı. Bununla da Rusiyada mütləq monarxiya yarandı.

Şimal müharibəsinin gedişində Neva çayı sahilində əsası qoyulan Sankt- Peterburq şəhəri 1712-ci ildə Rusiyanın paytaxtı oldu.

**S** **Baltik dənizinə çıxış Rusiyaya nə vəd edirdi?**



# I Pyotr islahatları

**T** **Şəklə əsasən rus ordusunun silahlarını müəyyən edin.**

Şimal müharibəsinin başlanması ilə iqtisadi islahatlar başladı. Qısa müddət ərzində yaradılan manufakturaların əksəriyyəti ordu və donanmanın ehtiyaclarını ödəməyə yönəlmişdi. Əsas islahatlardan biri ordu islahatı idi. Rekrut mükəlləfiyyəti hesabına daimi nizami ordu yaradıldı. Zabitlər, əsasən, zadəganlardan təyin olunurdu. Hərbi xidmətdə fərqlənən əsgərlər də zabit ola bilirdi. Dövlət idarəçiliyində islahat keçirildi. 1711-ci ildə qanunvericilik və dövlət idarəçiliyi ilə məşğul olan senat, daha sonra idarəedici orqan olan kollegiyalar yaradıldı. Kilsə dövlətə tabe edildi.

**S** **I Pyotrun islahatları hansı məqsədləri güdürdü?**



XVIII yüzillikdə rus donanması



LAYİHƏ




# II Yekaterina

Saray çevrilişi nəticəsində hakimiyyətə gələn II Yekaterinanın dövründə (1762-1796) Rusiyada mütləqiyyət quruluşu gücləndi. Ölkədə quberniya islahatı keçirildi. Zadəganlar haqqında verilən fərmana görə onlar kəndlilər, torpaqlar, yeraltı sərvətlər üzərində tam sahiblik hüququ aldı, dövlətə məcburi xidmətdən, vergilərdən və cismani cəzalardan azad edildilər. Bu qanun Rusiyada zadəganların imtiyazlı təbəqəyə çevrilməsini rəsmiləşdirdi.

XVIII yüzilliyin II yarısında Rusiyanın xarici siyasətində başlıca yeri Qara dəniz sahillərini zəbt etmək vəzifəsi tuturdu. Bu məqsədi reallaşdırmaq üçün Rusiya iki dəfə (1768-1774, 1787-1791-ci illər) Osmanlı dövləti ilə müharibə etdi. Nəticədə Krım xanlığı Rusiyaya ilhaq olundu. Rusiya Qara dənizin


II Yekaterina

şimal hissəsində xeyli ərazilər zəbt etdi. Eyni zamanda, Rusiya zəifləmiş Reç Pospolita dövlətinin Rusiya, Avstriya və Prussiya arasında bölüşdürülməsinin təşəbbüsçüsü oldu. Nəticədə Reç Pospolita bir dövlət kimi ləğv oldu. Rusiya sağsahil Ukraynanı, bütün Belorusiyanı, Litva və Kurlandiyanı ələ keçirtdi.

**S** **II Yekaterina ilə I Pyotrun fəaliyyətləri arasında hansı oxşarlıqları vardır?**

Təhsilə böyük önəm verən I Pyotr zadəgan uşaqlarına qarşı daha sərt idi. O, 1714-cü ildə riyaziyyatı və həndəsəni öyrənməyənə ailə qurmağı qadağan edən qanun verdi.

Ən əsası 1722-ci ildə I Pyotr 14 səviyyəli hərbi, mülki və məhkəmə məmurlarını özündə birləşdirən "Rütbələr cədvəli"ni nəşr etdi. Bununla da I Pyotr göstərdi ki, təhsil gələcək karyeranın açarıdır. İndi vəzifələri ailənin nəcibliyi ilə deyil, şəxsi qabiliyyət və biliklərlə tutmaq olardı. Hər hansı bir rus xüsusi əzmkarlığı sayəsində zadəgan ola bilərdi.

*"XVIII–XIX əsrlər Rusiya tarixi" kitabından*

**T** **I Pyotrun təhsillə bağlı verdiyi qərarlara münasibət bildirin.**

LAYİHƏ




# OSMANLI İMPERİYASI

I Səlim, Çaldıran döyüşü, Moxaç döyüşü, Zigetvar döyüşü, Vyananın mühasirəsi, hərbi islahatlar

## Sultanlıqdan xəlifəliyə doğru

II Mehmetdən sonra hakimiyyətə oğlu II Bəyazid (1481–1512) gəldi. Mömin bir sultan olan II Bəyazid ədalətlə hökmranlıq etdiyindən hələ sağlığında "Vəli" (qayğı göstərən, dost, yoldaş) ləqəbini almışdı. Sultanın əmri ilə İspaniyadan qovulan yəhudilərə Osmanlıda sığınacaq verildi. Qonşu Səfəvilər dövləti və Misir Məmlük sultanlığı ilə dostluq əlaqələri saxlayan II Bəyazid venesiyalılar üzərində parlaq qələbə qazandı.

1512-ci ildə Osmanlı taxtına atasını zorla hakimiyyətdən uzaqlaşdıran I Səlim çıxdı. O, tarixdə "Yavuz" (qəzəbli) ləqəbi ilə tanınır. Hakimiyyətdə olduğu 8 il müddətində, əsasən, Sultan I Səlim qonşuluqdakı müsəlman dövlətləri ilə müharibələr apardı.

1514-cü ildə Çaldıran döyüşündə qələbə qazansa da, I Səlim qızılbaşların hücumlarından çəkinərək Azərbaycanı tərk etdi.



Rum padşahı Sultan Səlim öz atasını dəf etdikdən və hakimiyyətini sabitləşdirdikdən sonra Azərbaycanı fəth etmək eşqinə düşüb, onun sərhədinə yaxın gəldi. Bu xəbər Şah İsmayılın qulağına çatdıqda Azərbaycana tərəf yollandı. Xoyun Çaldıran adlı yerində iki qoşun arasında müharibə oldu.

Şah İsmayıl özünü düşmən qoşununun ortasına vurub, onların arasına vəlvələ saldı... Şücaətli Malqoçoğlunun başına elə bir qılınc vurdu ki, sinəsinə qədər onu parçaladı. Yeniçərlərin bir bölüyünü parça-parça etdi. Belə bir vaxtda xəbərdar oldular ki, bütün qızılbaş qoşunu qaçmışdır, nə sağ cinah möhkəmdir, nə sol cinah. Şah İsmayıl aradan salamat çıxıb Dərcəzinə qədər getdi. Sultan Səlim ardınca gəlib Təbrizdə dayandı. Bundan artıq irəliləməyə cürət etmədi və tələsik yola düşüb Ruma geri qayıtdı.

*Xacə Zeynalabdin Əli Əbdi bəy. "Təkmilətül-əxbar"*

T Mənbə əsasında Şah İsmayılı dəyərləndirin.

LAYİHƏ



Sultan II Bəyazid



Sultan Səlim Yavuz



Sultan Süleyman Qanuni

Bundan sonra Misir Məmlük sultanlığı üzərinə yürüş edən I Səlim bu dövlətə son qoyaraq özünü "İslam dünyasının xəlifəsi" elan etdi.

Məhəmməd peyğəmbərdən qalan müqəddəs əmanətlər İstanbula gətirildi.

## Möhtəşəm yüz il

Sultan Süleymanın (1520–1566) hakimiyyətə gəlməsi ilə Osmanlılar yenidən Avropa istiqamətində fəthlərə başladılar.

Belqradı tutan Osmanlı ordusu 1526-cı ildə Moxaç döyüşündə birləşmiş macar-çex qoşunlarını darmadağın etdi. 1529-cu ilin payızında Sultan Süleyman Vyananı mühasirəyə aldı. Şəhəri güclü həmlə ilə dərhal ələ keçirmək mümkün olmadı.



Moxaç döyüşü

LAYİHƏ

Əlverişsiz hava şəraiti Vyananı mühasirədə saxlayan Osmanlı əsgərlərinə ərzaq və silah daşınmasını çətinləşdirdiyindən I Süleyman Balkan yarımadasına çəkilməyə məcbur oldu.

1533-cü ildə Avstriya ilə sülh müqaviləsi imzalayan I Süleyman Səfəvilər üzərinə yürüşə hazırlaşmağa başladı. Səfəvi ordusunun Xorasanı ələ keçirmiş özbəklərlə müharibəyə cəlb olunduğundan xəbər tutan I Süleyman 1534-cü ildə Təbrizi tutdu. 1535-ci ildə Həmədan yaxınlığındakı döyüşdə Səfəvilər Osmanlı ordusunu ağır məğlubiyyətə uğradaraq onları geri çəkilməyə məcbur etdi.

I Süleyman yenidən bütün diqqətini Avropadakı fəthlərə yönəltdi. O, Avstriyanı, Müqəddəs Roma imperatorluğunu və İspaniyanı idarə edən Habsburqlara qarşı Fransa ilə ittifaq qurdu. Fransa tacirlərinə imtiyazlı ticarət hüquqları verildi.

**S** **Fransa dövlətinə siyasi-iqtisadi yardım göstərilməsinin səbəbi nə idi?**

I Süleymanın 1541-ci ildə Avstriyaya qarşı müharibəyə başlamasına cavab olaraq İspaniya Osmanlı mülkü olan Əlcəzair sahillərinə güclü donanma yeritdi. Lakin ispan donanmasının bir hissəsini dənizdəki qəfil qasırğa, qalan hissəsini isə Osmanlı dənizçiləri batırdı. Osmanlı donanması Korsika adasının tutulmasında öz müttəfiqi Fransaya yaxından kömək göstərdi.

**T** **I Süleymanın Səfəvilər dövləti və Avstriya ilə apardığı müharibələrə dair cədvəli doldurun.**

| Dövlətlər | Müharibənin səbəbləri | Müharibənin nəticələri |
|---|---|---|
| Səfəvilər | | |
| Avstriya | | |



Vyananın mühasirəsi

Məhz güclü donanma sayəsində Aralıq dənizi və Hind okeanı sahillərində xeyli ərazilər Osmanlı dövlətinin tərkibinə qatıldı.

1566-cı ildə Avstriya üzərinə yürüşə başlayan I Süleyman Zigetvar qalasının mühasirəsi zamanı vəfat etdi. Qalanı ələ keçirən Osmanlı ordusu onu yerlə-yeksan etd.

I Süleymandan sonra hakimiyyətə gəlmiş oğlu II Səlimin dövründə (1566–1574) Osmanlı sultanlığının nüfuzu daha da artdı. Portuqaliya işğalı altına düşmək istəməyən İndoneziya müsəlmanlarının xahişi ilə Osmanlı donanması 1569-cu ildə təcavüzkarları geri oturtdu. Xüsusi strateji əhəmiyyəti olan Kipr adası fəth olundu.

LAYİHƏ

# Durğunluq dövrü



Kipr adasının mühasirəsi

XVI yüzilliyin 70-ci illərinin sonlarından Osmanlı dövlətində başlayan durğunluq dövrü XVII yüzilliyin sonuna qədər davam etmişdir.



Köprülü Mehmet paşa

Sədrəzəm Köprülü Mehmet paşanın orduda qayda-qanun yaratmaq və din alimləri arasındakı çəkişmələrə son qoymaq üçün gördüyü sərt tədbirlər də dövləti durğunluqdan çıxara bilmədi. Durğunluq dönəmində fasilələrlə 40 il davam etmiş Osmanlı-Səfəvi müharibələri hər iki dövlətin iqtisadi gücünü sarsıdırdı. Avropa dövlətləri isə Böyük coğrafi kəşflər və müstəmləkə işğalları nəticəsində get-gedə güclənirdi. 1684-cü ildə Roma papasının təşəbbüsü ilə Avropanın katolik ölkələri Osmanlıya qarşı "Müqəddəs Birlik" adlı ittifaq yaratdı. İki ildən sonra bu birliyə Rusiya da qoşuldu. "Müqəddəs Birlik" ilə aparılan müharibələr nəticəsində ağır məğlubiyyətə uğrayan Osmanlı 1699-cu ildə imzalanmış sülh müqaviləsinə əsasən Mərkəzi Avropadakı ərazilərinin xeyli hissəsini qalib dövlətlərə güzəştə getməli oldu.



Zigetvar döyüşü

LAYİHƏ





Osmanlı tüfəngçisi

**T** **Osmanlı əleyhinə yaradılmış birliyin müqəddəs adlandırılmasının səbəblərini müəyyən edin.**

## Geriləmə dövrü

Osmanlı dövlətinin tarixində 1699-cu ildən başlayan geriləmə XVIII yüzilliyin 90-cı illərinin əvvəllərinə qədər davam etmişdir.

1718-ci ildə sədrəzəm təyin edilən İbrahim paşa dövlətin keçmiş qüdrətini bərpa etmək üçün əsas diqqətini itirilən torpaqların geri alınmasına yox, xəzinənin boşalmasının qarşısını almağa yönəltdi. Yeniçərilərin xeyli hissəsini buraxan İbrahim paşa dövlətin maliyyə vəziyyətini yaxşılaşdırmağa nail oldu.

Lakin Səfəvilərə qarşı aparılan müharibələrdə Osmanlının məğlub olması və İstanbuldakı yeniçəri üsyanı nəticəsində İbrahim paşa sədrəzəmlikdən uzaqlaşdırıldı.

**T** **İbrahim paşanın fəaliyyətinə dair təqdimat hazırlayın.**


Sədrəzəm İbrahim paşa

LAYİHƏ

Osmanlı dövlətini bürüyən siyasi və iqtisadi böhran onun XVIII yüzilliyin ikinci yarısında Rusiya ilə müharibələrdə məğlub olmasına səbəb oldu. Bu müharibələrin nəticəsində Krım da daxil olmaqla Qara dəniz sahillərindəki xeyli ərazilər Rusiyaya verildi. Rusiyanın əsas niyyəti "Yunan layihəsi" deyilən bir planı həyata keçirmək idi. Bu layihə, əslində, XVIII yüzilliyin II yarısından başlayaraq çar Rusiyasının xarici siyasətində əsas rol oynayan "Şərq məsələsi"nin tərkib hissəsi idi.

Lakin İngiltərə ilə Fransanın Misirə, Avstriya ilə Rusiyanın isə Balkan yarımadasına yiyələnmək uğrunda apardıqları mübarizə "Şərq məsələsi"nin Avropa dövlətlərinin xeyrinə həll olunmasının qarşısını aldı

**S** **Rusiya və Avropa dövlətlərinin Osmanlıya qarşı birgə mübarizəsi sizə hansı tarixi hadisələri xatırladır?**

Osmanlı dövlətini böhrandan çıxarmaq üçün Sultan III Səlim (1789–1807) islahatlar keçirməyə başladı. III Səlim Rusiya ilə aparılan müharibələrdə məğlubiyyətin əsas səbəbini ordunun o dövrdəki tələblərə cavab vermədiyində görürdü. Sultanın verdiyi fərmanla hərbi vəzifəni yerinə yetirməyənlərdən timar və ziyamətlər geri alındı, Avropa nümunəsində hərbi hissələr yaradıldı. Ölkədə fəaliyyət göstərən Hərbi Mühəndislik Məktəbinin fəaliyyəti gücləndirildi. Donanmanın yenidən qurulmasına başlanıldı.

**RUSİYA ÜÇÜN "ŞƏRQ MƏSƏLƏSİ"NİN MAHİYYƏTİ**

- Azov və Qara dəniz sahillərini işğal edərək bu dənizlərə çıxış əldə etmək
- Bosfor və Dardanel boğazlarını nəzarətə almaq
- "Yunan layihəsi"ni həyata keçirərək Bizansı bərpa etmək

Avropa ölkələrində baş verən prosesləri yaxından izləmək məqsədilə İngiltərə, Fransa və Avstriyada Osmanlı səfirlikləri fəaliyyət göstərməyə başladı.

Lakin bir tərəfdən yeniçərilərin və mühafizəkarların bu yeniliklərə qarşı müqavimət göstərmələri, digər tərəfdən Sultan III Səlimin qətiyyətsizliyi islahatların tam şəkildə həyata keçirilməsinə mane oldu.

**S** **Sizcə, III Səlimin islahatları baş tutsa idi, Osmanlı dövlətinin sonrakı siyasi vəziyyəti necə olardı?**


Sultan III Səlim


III Səlimin yeni tipli orduya baxış keçirməsi

LAYİHƏ




# BÖYÜK MOĞOL DÖVLƏTİ

Panipat, cagir, Əkbər şah, Maratx, sipahi.

Hindistanda XVI yüzilliyin əvvəllərində vahid dövlət yox idi. Ölkədəki dövlətlərin ən böyüyü Dehli sultanlığı idi. Sonuncu Dehli sultanı İbrahim Ludi hakimiyyəti gücləndirmək üçün iri feodallar və əyanlarla barışmaz mübarizəyə başladı. Buna görə də iri feodallar Kabul hakimi Zahirəddin Babura müraciət edib onları sultanın zorakılığından xilas etməyi xahiş etdilər. Hindistana hücum edən Babur 1526-cı ildə Panipat döyüşündə İbrahim Ludinin qoşununu darmadağın etdi və Böyük Moğol dövlətinin əsasını qoydu. Tezliklə Babur Şimali Hindistanın əsas hissəsini də özünə tabe etdi.


"Əkbərnamə"dən: oxatma yarışı


Babur şah

## İctimai-iqtisadi münasibətlər

Böyük Moğol dövləti mərkəzləşdirilmiş feodal monarxiyası idi. Hökmdar qeyri-məhdud hakimiyyətə malik idi. İşğal olunmuş bütün torpaqlar dövlət torpaq fonduna daxil edilirdi. Bu torpaqlar xalisə adlanırdı. **Xalisədən** şərti torpaq – **cagir** verilirdi. İqtadan fərqli olaraq cagir böyük əraziləri əhatə edirdi. Cagirdarların çoxu müsəlman idi.

Dövlətə tabe edilmiş və xərac verən hind knyazların şəxsi torpaqları zəmindarlıq adlanırdı. Sufi şeyxlərinin, müsəlman ruhanilərinin irsən keçən və vergidən azad olan torpaqları soyurqal və ya mülk adlanırdı. Dehli sultanlarından fərqli olaraq Böyük Moğol şahları İslam dinini zorla yaymağı düşünmürdülər.

LAYİHƏ



"Əkbərnamə"dən: ov səhnəsi

Əksinə, Babur şahın dövründə ölkədə cizyə də ləğv olundu. Artıq hindular hakimiyyətin ən yuxarı vəzifələrinə qədər xidmətə buraxılırdılar.

**S** **Böyük Moğol şahlarının islam dinin zorla yaymasının dövlətə hansı xeyri ola bilərdi?**

**T** **Böyük Moğol dövlətində və Azərbaycanda eyni dövrdə mövcud olmuş torpaq mülkiyyəti formalarının müqayisəli cədvəlini qurun.**

# Dövlətin "qızıl əsri"

Dövlətin "qızıl əsri" Əkbər şahın (1556-1605) hakimiyyəti dövrünə təsadüf edir. O, hakimiyyəti dövründə hinduların dini etiqadlarına, adət və ənənələrinə hörmətlə yanaşırdı. Dövləti daxilən möhkəmləndirməklə məşğul olan Əkbər şah bütün ölkə üçün vahid qanunlar müəyyənləşdirdi, vahid çəki və ölçü sistemi yaratdı, vergi sistemini nizama saldı. Əhalidən yığdıqları məhsulun 1/3-i qədər vergi alınırdı. Ölkənin mərkəzi əyalətlərində kəndlilər vergini pulla verməli idilər. Bu da ölkədə bazar münasibətlərinin inkişafını sürətləndirirdi. İmperator vergi yığılmasını özünün ən etibarlı feodallarına-cagirdarlara tapşırmışdı. Hər cagirdar yığdığı vergi hesabına muzdlu qoşun və döyüş filləri dəstəsi saxlamalı idi. Fəal işğalçılıq siyasəti yürüdən Əkbər şah Qucaratı, Benqaliyanı, Kəşmiri tutdu və tezliklə Şimali Hindistanı, Mərkəzi Hindistanı, müasir Əfqanıstanın bir hissəsini özünə tabe etdi. Əkbər şahdan sonra onun varisləri imperiyanın ərazilərini daha da genişləndirib hakimiyyətlərini, demək olar ki, bütün Hindistana yaya bildilər. Bununla yanaşı, tədricən cagirdarların irsi torpaq sahiblərinə çevrilməsi və mərkəzi hakimiyyətin zəifləməsi nəticəsində ölkədə yüzlərlə müstəqil hakimlər meydana gəldi. XVIII yüziilikdə dövlət dağılmağa başladı.



Əkbər şah

**S** **Sizcə, Əkbər şahın hinduların dini etiqadına hörmət əlaməti olaraq bəzi addımlar atması hansı səbəbdən irəli gələ bilərdi? Fikrinizi əsaslandırın.**

**S** **"Dövlətin qızıl əsri" ifadəsini necə başa düşürsünüz?**

## Şah və imam hakimiyyəti vahidliyi

Özünün dini axtarışlarına uyğun olaraq Əkbər şah dini müzakirələr məqsədilə 1575-ci ildə paytaxtda ibadətxanə yaratdı. ...Müzakirələrdə iştirak edən şah öz simasında dini və dünyəvi hakimiyyətin – şah və imam hakimiyyətinin vahidliyinə can atdı. Sarayın bir çox müsəlman üləmaları (alimləri) tərəfindən könüllü və ya təzyiq altında imzalanan bəyannaməyə görə ali dünyəvi hakim olan Əkbər müctəhid – dini işlərdə ali şəxs kimi tanındı.

LAYİHƏ




# Dövlətin süqutu

XVIII yüzilliyin 30-cu illərində Hindistan ərazisində Maratxla yanaşı, bir sıra müstəqil dövlətlər var idi. Bu dövlətlərin bir-biri ilə mübarizə aparması xarici müdaxiləni asanlaşdırırdı. 1739-cu ildə Nadir şah Moğol ordusunu məğlub edib Dehlini tutdu. Moğol dövləti Nadir şahdan asılılığı qəbul etdi. 1747-ci ildə Nadir şah öldürüldükdən sonra onun yaratdığı böyük imperiya dağıldı. Bu isə Əhməd şah Dürraninin başçılığı altında müstəqil Əfqan dövlətinin yaranmasına səbəb oldu. Tezliklə əfqanlar Şimali Hindistanı – Böyük Moğol dövlətinin torpaqlarını tutmağa başladılar. Bu zaman Maratx dövləti Moğolların müdafiəsinə qalxdı. Uzun sürən Əfqan-Maratx müharibəsi 1761-ci ildə Panipat döyüşü ilə bitdi. Maratxlar döyüşdə məğlubiyyətə uğradı. Bu, Böyük Moğol dövlətinin dağılmasına səbəb oldu. Qələbəyə baxmayaraq, əfqanlar Hindistanda möhkəmlənə bilmədilər.

**S** **Sizcə, Maratxların Böyük Moğol dövlətini müdafiə etməsinin səbəbləri nə ola bilərdi?**

**T** **Mənbə əsasında vergilərin artırılmasının səbəblərini araşdırın.**



*Tac Mahal. Dünyanın yeni yeddi möcüzəsindən biri.*

Böyük bürokratik (süründürməçi) aparatın və ordunun saxlanılması xalqın üzərinə ağır yük kimi düşürdü. Bu yük Cahan şahın (1627-1658) möhtəşəm tikililərlə məşğul olması ilə daha da ağırlaşırdı. Tədricən sistemli şəkildə vergi verənlərdən nələri varsa, hər şey əllərindən alınırdı..."

LAYİHƏ

# İngilis işğalı

Belə şəraitdə avropalılar Hindistana hərbi ekspansiyanı (bir dövlətin, xalqın, yaxud mədəniyyətin öz nüfuz dairəsini və yayılma arealını genişləndirməsi) gücləndirməyə başladılar. Hindistana gələn ilk avropalılar portuqallar olsa da, sonradan bu ölkəyə hollandlar, xüsusən də fransız və ingilislər maraq göstərməyə başladılar. İngiltərə Hindistanın işğalını Ost-Hind şirkətinin əli ilə həyata keçirirdi.

Hind knyazlıqlarından güzəştlər qoparan Ost-Hind şirkəti Hindistanda pul zərb etmək, silahlı dəstələr (sipahilər) saxlamaq hüququ aldı. Bu da öz növbəsində gələcəkdə Hindistanın işğal edilməsində ingilislərin işini yüngülləşdirdi.

Tezliklə Hindistanda nüfuz dairəsi uğrunda ingilis-fransız müharibəsi (1756-1763) başladı. Müharibədə qalib gələn ingilislər hind torpaqlarının işğalına başladılar.

**S** **Ost-Hind şirkətinin Hindistanda pul zərb etmək, silahlı dəstələr saxlamaq hüququ alması gələcəkdə Hindistanın işğal edilməsində ingilislərin işini necə yüngülləşdirə bilərdi?**




Ost-Hind şirkətinin gerbi

**T** **Əkbər şahın fəaliyyətinə dair referat hazırlayın.**

**T** **XVI–XVIII yüzilliklərdə Hindistana edilən hücumların cədvəlini qurun.**



Boyük Moğol hökmdarının Ost-Hind şirkəti saziş imzalama səhnəsi

LAYİHƏ



# 25 MƏDƏNİYYƏT

Piri Rəis, İstanbul Texniki Universiteti, Elmlər Akademiyası, Nyuton, Tac Mahal, Versal, Motsart, Luvr

## Təhsil və elm

Əvvəllər olduğu kimi, XVI–XVIII yüzilliklərdə də mədəniyyət sahəsində əldə edilən nailiyyətlər dövlətlərin siyasi-iqtisadi inkişafı ilə bilavasitə əlaqəli idi. Bu dövrdə yeni sosial-iqtisadi münasibətlərin meydana çıxması mədəniyyətə də təsir göstərdi. Kapitalist istehsal üsulunun tətbiqi daha çox Qərb ölkələrində elmi-texniki tərəqqiyə təkan verdi.

**T** **Siyasi hadisələrin mədəniyyətin inkişafına təsirini izah edin.**

Osmanlı sultanı I Süleyman Qanuninin hakimiyyəti dövründə təhsil ocaqlarının sayı durmadan artırdı. Türk dövlətlərində təhsil müəssisələrinin çoxalması elmin inkişafına şərait yaradırdı. Burada əsas təhsil müəssisələri hələ də mədrəsələr idi. Mədrəsələrdə dini elmlərlə yanaşı, dünyəvi elmlər də tədris olunurdu. Beləliklə, mədrəsələr həm din xadimləri hazırlayır, həm də müxtəlif elm sahələri üzrə alimlərin yetişməsinə imkan yaradırdı.

Məşhur türk admiralı Piri Rəisin fəaliyyəti coğrafi biliklərin inkişafından xəbər verirdi. O, 1513-cü ildə dünyanın böyük xəritəsini çəkərək Sultan Səlimə təqdim edir. O, sonradan bu sahədə fəaliyyətini davam etdirərək "Bəhriyyə" adlı dəniz atlasını yaradır və Sultan Süleymana təqdim edir. Piri Rəis dünya xəritəsinə Amerika qitəsini də daxil etmişdi. Bu, türk səyyah və coğrafiyaşünaslarının Amerika qitəsinin varlığından xəbərdar olduqlarını sübut edir.

Katib Çələbi tarix, hüquq, coğrafiya və maliyyə məsələlərinə aid bir çox dəyərli əsərlərin müəllifidir. Evliya Çələbinin oncildlik "Səyahətnamə" əsəri təkcə Osmanlı deyil, həm də dünya tarixini və mədəniyyətini öyrənmək üçün əhəmiyyətli mənbələrdən biridir. Bu əsərdə müəllif Azərbaycan haqqında da qiymətli məlumatlar vermişdir. Evliya Çələbinin "Səyahətnamə" əsərindən Azərbaycan şəhərləri, xüsusilə



Piri Rəis



Piri Rəisin xəritəsi



Evliya Çələbi



LAYİHƏ

Təbriz şəhəri haqqında dəyərli məlumatlar öyrənmək mümkündür.

XVIII yüzilliyin əvvəllərində Osmanlı dövlətində Avropa təcrübəsini öyrənməyə başladılar. Bunun nəticəsində ölkədə 1727-ci ildə ilk mətbəə yaradıldı. 1773-cü ildə indiki İstanbul Texniki Universiteti fəaliyyətə başladı. Bu ali təhsil müəssisəsində gəmi inşaatı və dəniz xəritələri üzrə mütəxəssis hazırlanması nəzərdə tutulmuşdu.

**S** **Sizcə, nə üçün tərəqqiyə meyil göstərən hökmdarlar dənizçilik və gəmiqayırma ilə bağlı təhsil ocaqlarını açmağa çalışırdılar?**

XVII–XVIII yüzilliklərdə Osmanlı imperiyasının Avropa dövlətləri ilə müqayisədə iqtisadi cəhətdən geriləməsi təhsil və elm sahələrinə də mənfi təsir göstərdi.

Böyük Moğol hökmdarı Əkbər şahın dövründə Hindistan mədəniyyəti daha sürətlə inkişaf etdi. Ona görə də bu dövrü "Əkbər əsri" adlandırırlar. XVII–XVIII yüzilliklərdə Hindistanda bir çox yeni mədrəsələr açıldı. Burada ilahiyyatla yanaşı, dünyəvi elmlər də öyrədilirdi. Ən məşhur mədrəsələr Dehli və Aqrada yerləşirdi.

İngiltərə və Fransa ilə əlaqələrin yaradılması Hindistan mədəniyyətinə müsbət təsir göstərməklə yanaşı, avropalılara da bu zəngin mədəniyyətlə tanış olmağa şərait yaratdı. 1784-cü ildə yaradılan "Benqal-Asiya cəmiyyəti" bu işdə böyük rol oynadı. Sonralar bu cəmiyyəti Kral cəmiyyəti adlandırdılar.

**T** **Sosial-iqtisadi vəziyyətin mədəniyyətə təsirini dövrə aid nümunələrlə əsaslandırın.**

XVI–XVIII yüzilliklərdə Şərq ölkələri ilə müqayisədə avropalılar daha böyük mədəni nailiyyətlərə imza atdılar.

Böyük coğrafi kəşflərdən sonra daha da inkişaf edən coğrafiya elmi astronomiyanın da inkişafına şərait yaradırdı. Orta əsrlərdə kainatın quruluşuna dair baxışlar səhvən Ptolomey təliminə əsaslanırdı. Bu təlimə görə, Yer hərəkət etmir və dünyanın mərkəzində dayanır. Polyak alimi Kopernik Yerin həm öz oxu, həm də Günəş ətrafında fırlandığını bildirmişdi. İtaliyalı alim Bruno isə kainatın sonsuz olduğunu göstərirdi.



Göyə teleskopla baxan ilk alim venesiyalı Qaliley olmuşdur. Onun kəşfləri Kopernik və Brunonun təlimini təsdiq etdi.



Nikolay Kopernik

Manufakturaların çoxalması və ticarətin inkişafı Avropada ixtiraların sayının artmasına səbəb oldu. Ümumdünya cazibə qanununu kəşf edən ingilis alimi İsaak Nyuton alman alimi Q.Leybnitslə birlikdə ali riyaziyyatın əsasını qoydu.



Cordano Bruno



İsaak Nyuton

LAYİHƏ

Niderland alimi A.Levenhukun ixtira etdiyi və baxılan cismi 150-300 dəfə böyüdən linza bakteriyaları öyrənməyə imkan verdi. İngilis alimi E.Cenner çiçək xəstəliyinə qarşı türklərdən öyrəndiyi peyvəndi öz ölkəsində tətbiq etməyə başladı. Fransa alimi Rene Dekart analitik həndəsənin əsasını qoydu.



Rene Dekart

Baş verən siyasi və iqtisadi dəyişikliklər başqa ölkələrdə olduğu kimi, Rusiyada da mədəniyyətin inkişafına öz təsirini göstərirdi. Yenidən qurulan təhsil sistemində dəqiq elmlərin tədrisinə önəm verilirdi. XVIII yüzilliyin əvvəllərində Moskvada naviqasiya, artilleriya, mühəndislik və tibb məktəbləri açıldı, Peterburq Dəniz Akademiyası yaradıldı.

***Naviqasiya**

*dənizçilik, gəmiçilik*

Rus coğrafiyaçıları Kuril adalarını, Alyaska yarımadasını kəşf etdilər.

Rus elminin və mədəniyyətinin ən böyük nailiyyəti 1725-ci ildə Peterburq Elmlər Akademiyasının fəaliyyətə başlaması oldu.

XVIII yüzillikdə Rusiya elminin inkişafında M.Y.Lomonosovun müstəsna xidməti olmuşdur. O, üzvi və fiziki kimyanın yaradıcısı, ilk kimya laboratoriyasının təşkilatçısı idi. 1755-ci ildə açılmış Moskva Universitetinin əsasını da o qoymuşdu.

Dövrün məşhur yazıçı və tarixçiləri D.Fonvizin və N.Karamzin idilər.

XVII yüzilliyin əvvəllərində Şimali Amerikada Harvard Universitetinin əsası qoyuldu XVIII yüzillikdə yaşamış B.Franklin təkcə məşhur siyasi xadim kimi deyil, həmçinin elektrik sahəsinə aid bir çox tədqiqatların müəllifi kimi də tanınırdı.



Mixail Lomonosov

**Qərbi Avropada elmin inkişafının səbəblərini müəyyənləşdirin.**



Benjamin Franklin

# Ədəbiyyat

Bu dövr türk ədəbiyyatının tanınmış simalarından Nəbi, Nedim və Fıtnat xanımı göstərmək olar.

Çoxdilli hind poeziyasında sadə xalqın arzu və ümidləri, feodallara qarşı mübarizəsi təsvir olunurdu. XVII–XVIII yüzilliklərdə Çində ensiklopediya və lüğətlər tərtib edilmiş, ədəbiyyat külliyyatı nəşr olunmuş, Çin klassik romanının inkişafında yeni mərhələnin



Harvard Universiteti

LAYİHƏ

əsası qoyulmuşdu. Ölkədə Çin dili ilə yanaşı, rəsmi dövlət dili olan mancur dilində də elmi və bədii əsərlər yazılırdı.

Qərbi Avropanın humanist yazıçıları feodal qaydalarını və kilsənin elmə qarşı apardığı mübarizəni pisləyir, daha ədalətli quruluş arzulayırdılar. İngilis humanisti, filosof və dövlət xadimi Tomas Mor özünün "Utopiya" kitabında ictimai quruluşun ideal sistemi haqqında öz təsəvvürlərini əks etdirmişdir.



Uilyam Şekspir

Digər dahi ingilis dramaturqu və şairi Uilyam Şekspirin "Hamlet", "Otello" "Romeo və Cülyetta", "Maqbet", "Kral Lir" kimi əsərləri dünya ədəbiyyatının nadir inciləri hesab edilir. Bu dövrdə Fransada, İspaniyada və digər Avropa ölkələrində yaşayıb-yaradan şair və yazıçıların ədəbi əsərləri mədəniyyət nümunələrinin zənginləşməsinə xidmət edirdi.

Məşhur ispan yazıçısı Migel de Servantesin "Don Kixot" əsəri bütün dünyada tanınır. İngiltərə ədəbiyyatının inkişafında Daniel Defo və Conatan Sviftin də özünəməxsus rolu olmuşdur.



"Don Kixot" əsərinə çəkilmiş şəkil

XVI–XVIII yüzilliklərdə Şərq ədəbiyyatında daha çox hökmdar hakimiyyəti tərənnüm olunur, sevgi, qəhrəmanlıq, təbiət mövzularına müraciət edilirdi. Şərqdən fərqli olaraq, Maarifçilik dövrünün Qərb ədəbiyyatı daha çox hakimiyyəti, mövcud idarəçiliyi, dövlət quruluşunu tənqid edir, insanları demokratik yaşam dəyərlərinə yönəldirdi. Bu baxımdan Avropa ədəbiyyatında maarifçilərin əsərləri xüsusi yer tutur. XVII–XVIII yüzilliklərin məşhur yazıçıları Molyer komediyalarında, Şiller isə faciə əsərlərində yaşadıqları dövrü tənqid edirdilər. Alman şairi Hötenin "Faust" poeması dünya ədəbiyyatının ən gözəl nümunələrindən biri hesab edilir.



İohan Volfqanq Höte

"Peterburqdan Moskvaya səyahət" əsərinin müəllifi olan A.Radişşev Rusiyadakı təhkimçilik qaydalarını çox cəsarətlə tənqid edirdi.

# Memarlıq və incəsənət

Osmanlı dövlətinin ən məşhur memarlarından biri Sinan Xocanın inşa etdiyi Şahzadə camisi, Süleymaniyyə camisi və Səlimiyyə camisi kimi memarlıq abidələri bu gün də görənləri valeh edir. Səlimiyyə məscidi və kompleksi 2011-ci ildə UNESCO-nun Ümumdünya irsi siyahısına salınmışdır.



Səlimiyyə məscidinin daxili görünüşü

XVII–XVIII yüzilliklərdə ənənəvi Osmanlı memarlığı Avropaya xas olan rokoko* və barokko* memarlıq üslubu ilə əvəz olunmuşdu. Bu dövrdə Osmanlı memarlığının şah əsəri olan Sultan Əhməd məscidi inşa edilmişdir.

*** Rokoko**

*XVI–XVIII yüzilliklərdə Avropada məşhur olan bəzəkli memarlıq üslubu*

*** Barokko**

*XVII–XVIII yüzilliklərdə Avropada məşhur olan təmtəraqlı memarlıq üslubu*

LAYİHƏ


Sultan Əhməd Camisi

Hindistanda memarlığın inkişafı yüksək səviyyəyə çatmışdı. Memarlıq abidələri içərisində məscidlərin xüsusi yeri vardı. Dehlidəki Cümə məscidi və digər məscidlər ən yaxşı memarlıq nümunələri sayılırdı. İslam mədəniyyətinin təsiri altında XVII yüzillikdə gözəl memarlıq nümunələri yaradılmışdı. Böyük Moğol hökmdarı Cahan şahın arvadı Mümtaz Mahal Banu Bəyimin şərəfinə ucaldılan Tac Mahal məqbərəsi Hindistanın incisi hesab edilir.

**Sizcə, Tac Mahal məqbərəsi hansı xüsusiyyətlərinə görə islam memarlıq nümunələrini xatırladır?**

XVII yüzillikdə Çin memarlığında monumental binaların inşasına başlandı. Pekin sarayı, Mukdendəki (indi Şenyan) imperator mavzoleyi də bu dövrün məhsuludur.

İntibah dövrünün dahi xadimlərindən biri Mikelancelo heykəltaraş, rəssam, memar, hərbi mühəndis və şair olmuşdur. O, nəhəng bir mərmər parçasında hündürlüyü 5,5 metr olan "David" heykəlini yonmuşdu. Bu heykəl Florensiya şəhərinin himayədarı hesab olunur.

Romadakı Müqəddəs Pyotr kilsəsi barokko üslubunda inşa edilmiş memarlıq əsərlərinin ən yaxşı nümunəsidir. XIV Lüdoviqin dövründə tikilmiş məşhur Versal sarayı Fransada mütləqiyyətin rəmzi idi. Versalın ən məşhur olan Güzgülü salonun tikilməsi üçün Venesiyadan xüsusi olaraq güzgü işləri üzrə ustalar gətirilmişdi.

**Hansı Azərbaycan xanının sarayında güzgülü salon olduğunu xatırlayın.**

Moskvada Qızıl meydandakı Pokrov kilsəsi orta əsrlər rus memarlığının zirvəsidir. Bu kilsəni Vasili Blajennı məbədi adlandırırlar.

Bu dövrdə Avropa memarlığı Rusiya memarlığına öz təsirini göstərirdi. Ölkəsini avropalaşdırmaq niyyətində olan I Pyotr yeni paytaxtın – Sankt-Peterburqun tikilməsi üçün Avropadan bir sıra tanınmış memarlar dəvət etmişdi.

II Yekaterinanın zamanında Rasstrelli və Rossi kimi memarlar "Şimali Venesiya" adlandırılan bu şəhərdə bir sıra memarlıq inciləri yaratmışdırlar. Onların arasında Qış sarayı xüsusilə seçilirdi.

**I Pyotrun hakimiyyəti dövründə Rusiyanın mədəni həyatına daxil edilmiş yeniliklər haqqında məlumat toplayın və təqdim edin.**

Həmin dövrdə Osmanlı rəssamları, əsasən, miniatür əsərlərə üstünlük verirdilər. Levni dövrün məşhur rəssamı idi.


Levninin "Gül qoxulayan qız" miniatürü


Tac Mahal


Versal sarayı

LAYİHƏ

Hind miniatür rəssamlıq məktəbinin ən yaxşı nümunələri isə həmin dövrün bizə gəlib çatan kitablarında öz əksini tapmışdır. Hindli sənətkarların toxuduqları incə və bəzəkli parçalar göz oxşayır, ürək açırdı. Rəqs, musiqi ölkənin ən inkişaf etmiş sənət sahələri idi.

İncə, gözəl zövqə malik olan Çin sənətkarları və rəssamlarının sümükdən və mərmərdən hazırladıqları əşyalar əsl sənət əsərləri idi. Çin rəssamları ölkədə toxunan parçalara mürəkkəb, lakin insanın ruhunu və gözünü oxşayan incə naxışlar vururdular.

Çin incəsənətinə, o cümlədən memarlığına Avropa ölkələrində tətbiq edilən yeni forma və üsullar ciddi təsir göstərə bilməmişdi.

Dövrün ideyaları rəssamların əsərlərində də öz əksini tapmışdı. Florensiyada yaşayan Rafael dövrünün görkəmli rəssamlarından biri sayılırdı. Rafaelin ən məşhur əsəri "Məryəm ana"dır.

Jak Lui Davidin "Marat", "Brut" və digər rəsmləri ona böyük şöhrət qazandırmışdı.

**Azərbaycanın məşhur miniatür rəssamlarından kimləri tanıyırsınız?**

XVIII yüzillik türk musiqisinin yüksəliş dövrü hesab edilir. Türk musiqisi Avropa musiqisinin inkişafına böyük təsir göstərmişdir. Musiqinin inkişafı bu dövrün sultanlarının bu sahəyə olan maraqları ilə bağlı idi.



Volfqanq Amadey Motsart

Avropada dinin təsiri azaldıqdan sonra incəsənətin bütün sahələrində inkişaf nəzərə çarpmağa başladı. Bu inkişaf musiqi sahəsində də özünü göstərdi. Alman bəstəkarı İ.Bax, avstriyalı V.Motsart bu dövrün görkəmli bəstəkarları idi. Motsartın "Don Juan", "Fiqaronun toyu" operaları hazırda da gözəl musiqi əsərləri hesab edilir.

XVIII yüzillikdə Avropanın bir çox ölkələrində muzeylər ictimai həyatın ayrılmaz hissəsinə çevrilmişdi. Onların təşkil olunması həmin ölkələrdə mədəniyyətə verilən dəyərin bariz nümunəsi idi. Bu dövrdə Londonda açılmış Britaniya muzeyində ibtidai dövrlərdən başlayaraq Avropa və Asiyanın orta əsrlər incəsənətinə aid əsərlər, mədəniyyət nümunələri toplanmışdı. Zəngin kolleksiyası olan bu muzeyin 6 milyon eksponatı vardır.

Avropada zəngin, möhtəşəm incəsənət məbədlərindən biri Fransanın Luvr muzeyidir. Keçmişdə kral sarayı olmuş bu bina 1793-cü ildə muzey kimi xalqın xidmətinə verilmişdir.

Rusiyada ilk muzeyin əsasını I Pyotr qoymuşdur. Bu muzey Kunstkamera adlanırdı.

**Sizcə, Afrika və Asiyanın qiymətli əsərləri nə üçün Avropanın məşhur muzeylərində sərgilənir?**

**Muzeylərin dövlət və xalq üçün əhəmiyyəti barədə referat hazırlayın.**



"Məryəm ana"



Luvr muzeyi

LAYİHƏ

# ƏDƏBİYYAT SİYAHISI


## Azərbaycan dilində

1. Ə.Muxtarova.Türk xalqlarının tarixi (Qədim dövr və orta əsrlər). Bakı, 2008
2. Mahmud Kaşğari."Divanü lüğat-it-türk" dörd cilddə, I cild, Bakı, 2006
3. Mədəniyyət tarixi və nəzəriyyəsi. Bakı,2010
4. Orta əsrlər tarixi (iki cilddə). C.1,S.D.Skazkinin və.b.redaktəsi ilə. Bakı, 1988.
5. Vəlixanlı N.M. Ərəb xilafəti və Azərbaycan. Bakı, 1993.
6. Yusifov Y. Qədim Şərq tarixi. Bakı, 2007.

## Türk dilində

1. Ahmetbeyoğlu Ali. Avrupa Hun İmparatorluğu. Ankara, Türk Tarih Kurumu, 2001.
2. Artamonov M.İ. Hazar Tarihi (çeviren D. A. Batur). Selenge Yayınları, İstanbul, 2004.
3. Charles Freeman. Mısır, Yunan ve Roma Antik Akdeniz Uygarlıkları. Ankara, 2003.
4. Christopher Hill. İngilterede Devrim çağı 1603-1714. İstanbul, 2016.
5. David Arnold. Coğrafi Keşifler Tarihi. 1995.
6. Erik Hornung. Ana hatlariyla Mısır tarihi. İstanbul, 2004.
7. Henry Kissinger. Dünya Düzeni. İstanbul, 2016.
8. Hoca Sadettin Efendi. Tacüt tevarih (çeviren İsmet Parmaksızoğlu). Ankara,1992.
9. İbrahim Edhem Polat. "Doğu ve Batı kaynaklarında haçlı seferlerinde yaşanan insanlık ihlalleri". Uluslararası suçlar ve tarih dergisi. Ankara, 2009.
10. J. Roberts. Avrupa tarihi, 2015
11. J. Roberts. Dünya tarihi, 1 cilt, İstanbul, 2017.
12. J. Roberts. Dünya tarihi, 2 cilt, İstanbul, 2016.
13. Köymen M. A., (2004), Selçuklu Devri Türk Tarihi. Ankara, Türk Tarih Kurumu Yayınları, 2004.
14. Kültür tarihi. Eskişehir, 2011.
15. Muammer Gül. Orta çağ Avrupa tarihi. İstanbul, 2009.
16. Norman Davies, Avrupa tarihi.
17. Osman Turan. Selcuklular zamanında Türkiye. İstanbul, 1971.
18. Önder Kaya. Avrupa tarihi. İstanbul, 2011.
19. Pol Kennedi. Büyük Güçlerin Yükseliş ve Çöküşleri. İstanbul, 2001.
20. Umberto Eco, Ortaçağ, Barbarlar, Hıristiyanlar, Müslümanlar. 2012.
21. William H. McNeill. Dünya Tarihi. Ankara, 2013.
22. William Woodruff. Modern Dünya tarihi, 2006.
23. V. Diakov, S. Kovalev. İlkçağ Tarihi. I cild. İstanbul, 2011.
24. V. Diakov, S. Kovalev. İlkçağ Tarihi. II cild. Roma, İstanbul, 2014.
25. Z.V.Toğan. Umumtürk tarihine giriş. I cild (en eski çağlardan XVI asra kadar). İstanbul,1981

## Rus dilində

1. Великие империи мира. Москва, 2011.
2. Все войны древности. Москва, 2009.
3. Всемирная история. В 24-х томах. Том 1-2. Минск, 1999.
4. История Востока. В 6 т. Т. 1. Восток в древности / Гл. редкол. : И90 Р.Б. Рыбаков (пред.) и др.; [Отв. ред. В.А. Якобсон]. М: Вост. лит., 2002. 688 с.
5. История Востока. В 6 т. Т. 2. Восток в средние века / Гл. редкол. : И90 Р.Б. Рыбаков (пред.) и др.;[Отв. ред. Л.Б. Алаев, К.З. Ашрафян]. — М.: Вост. лит., 2002. — 716 с.
6. История востока в 6 томах. Т.1. Москва. 1999.
7. История Востока. Т. III. Восток на рубеже средневековья и нового времени. XVI—XVIII вв. М.1999.
8. История древнего Востока. Москва, 1979.
9. История древнего мира. В 3-х томах, часть 1. Москва, 1989.
10. История древнего мира/Р. Ю. Виппер. История средних веков/А. А. Васильев. – М.: Республика, 1993.– 511 с.: ил.
11. История культуры народов мира. В 10-ти книгах. Москва, 2005.
12. История России XVIII–XIX веков под ред. Л. В. Милова. Moskva, 2006.
13. Куликан Уильям. Персы и Мидяне. Подданные империи Ахменидов / пер. с. англ. Л.А.Игоревского.- М. 2002.
14. Л.С. Васильев «История Востока Т.1» Москва; 1998
15. Новая история стран Азии и Африки. XVI—XIX вв. под ред. А.М. Родригеса : в 3 ч. — М. 2010. — Ч. 2.
16. Оскар Йегер (или Егер) Всемирная история в 4-х томах. Том 3. М. 2001
17. Суверов В.М. История России IX – XX веков - Барнаул- 1998.
18. Соловьев С. М. История России с древнейших времен. М., 1989. Кн. VII. Т. 13.
19. Хрестоматия по истории с древнейших времен до наших дней : учеб. пособие / сост. Г. А. Гончаров [и др.]. Челябинск. 2012.




LAYİHƏ